Bu bir xalq qəzetidi

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 125 (5785) 12 sentyabr 2020-ci il | Qiyməti 30 qəpik

# Metro fəaliyyətini bərpa edir




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyası ilə əlaqədar tətbiq olunmuş xüsusi karantin rejiminin 2020-ci il avqustun 5-dən mərhələli şəkildə, ayrı-ayrı sahələr üzrə yumşaldılması məqsədilə tədbirlər davam etdirilir.**

**Operativ Qərargahdan Adalet.az-a verilən məlumata görə, sanitar-epidemioloji vəziyyətə uyğun olaraq 2020-ci il sentyabrın 14-ü saat 06:00-dan Bakı metropoliteninin sərnişindaşıma fəaliyyəti bərpa edilir.**

**2020-ci il sentyabrın 30-dək şənbə və bazar günləri ictimai nəqliyyat fəaliyyət göstərmədiyinə görə sentyabrın 19-u saat 00:00-dan sentyabrın 21-i saat 06:00-dək və sentyabrın 26-sı saat 00:00-dan sentyabrın 28-i saat 06:00-dək metropolitenin sərnişindaşıma fəaliyyəti də dayandırılır. "İctimai nəqliyyatda koronavirus (COVID-19) infeksiyasının profilaktikasına dair metodiki göstərişlər"ə uyğun olaraq koronavirus infeksiyasının yayılmasına yol verilməməsi, sərnişinlərin sağlamlığının qorunması məqsədilə metropoliten ərazisində müvafiq tədbirlər görülmüşdür.**

**Mövcud sanitar-epidemioloji vəziyyət nəzərə alınaraq və virusa yeni yoluxma hallarına yol verməmək üçün vətəndaşlardan mövcud karantin rejiminin tələblərinə və tibbi-profilaktik qaydalara əməl etmək xahiş olunur.**

## YUNANLARIN AJIĞINA

**Deməli, Yunanıstan Egey dənizində və ümumiyyətlə, Aralıq dənizində Türkiyəyə məxsus irili-xırdalı 18 adanı işğal edib. Düzdür, həmin adalarda heç kim yaşamırdı, amma indi yunanlar orda əsgər saxlayırlar, hərdən də müdafiə naziri gəlib adadakı əsgərlərlə görüşür.**

Qardaşlarımız da yunanların acığına 350 metrlik türk bayrağı açaraq sərhəd bölgəsində nümayiş etdiriblər.

Tansu Çillərin başbakanlığı dövründə yunanlar Türkiyəyə məxsus Kardak adasını işğal etmişdilər və yunan bayrağı qaldırmışdılar. Tansu xanım da demişdi:

"O bayraq enəcək, o əsgər gedəcək!" Həqiqətən də o bayrağı endirdilər, o əsgərlərin dallarına da bir təpik vurub göndərdilər geri.

İnanırıq ki, yunanların işğal etdiyi adalardakı yunan bayraqları enəcək və Türk ordusu yunan əsgərlərinin dallarına bir təpik vurub çıxdıqları yerə göndərəcək.

**Və sonda. Bir ara kasıbçılıqdan yunanlar adalarını avropalılara satırdılar. Ağlımız olmadı ki, o vaxt gedib bir-ikisini də biz alaq.**

## Ramiz Mehdiyevin nəşriyyatı təxribatçı kitab çap edib

Bax: səh.9

*Aqil ABBAS*

## MURADXAN CABBAROV, MƏMMƏD KİŞİ VƏ NAVES...

*Çox müdrik millətik. Dünyanın bütün xalqları bizə həsəd apara bilər. Bəlkə də xəbərimiz yoxdu, bizi qısqanırlar. Hər hansı bir məsələ olsun məsləhət verməyi, təklif verməyi xoşlayırıq. Ümumiyyətlə, hər şeyşünasıq. Məsələn, baxırıq televizyona eyni adamlar həm ginekologiyadan, həm əkin-biçindən, həm də Belarus-Rusiya münasibətlərindən və ya Türkiyə-NATO münasibətlərindən danışır. Və yaxud dörd dəfə ərə getmiş və birini də "zanit" eləmiş bir müğənni xalqa əxlaq dərsi keçir. Eləcə də bütün məhkəmə proseslərini uduzmuş bir vəkil kimlərəsə məsləhət verir və vəkilləri qınayır.*

*(Ardı 3-cü səhifədə)*

## URA! AXIR Kİ, HOVUZA SU BURAXDILAR



**Sentyabrın 14-dən metro şəhərimizin bütün zəhmətkeşlərinin üzünə açıqdır.**

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## YAYON VAY, Ə, YAYONUN YİYƏSİN QOYUBLAY İÇƏYİ...



**Qardaş Türkiyənin ən məşhur publisistlərindən biri Yılmaz Özdilin "Sözçü" qəzetində çox ciddi bir köşəsini oxudum. Söhbət Türkiyəyə düşməncəsinə münasibət göstərən Yunanıstanın dəniz flotunun yaranması tarixindən və bu günündən gedir. Bütün yazı barədə söhbət açmaq istəmirəm, qısaca faktları sizlərə çatdırmaq niyyətindəyəm.**

**Deməli, dünya ticarətinin 85 faizi dəniz vasitəsilə daşınır. Və bu daşımaçılığın 20 faizi Yunanıstan gəmiləri vasitəsilə həyata keçirilir və Yunanıstan bu sahədə Yaponiyadan, Çindən, ABŞ-dan, İngiltərədən, Almaniya və Norveçdən irəlidədi.**

**(Ardı 2-ci səhifədə)**

## QURBAN QURBANOVUN KÖHLƏN ATLARI





**UEFA "Qarabağ"ımıza qarşı namərdlik etdi və "Molde" ilə oyunu neytral bir meydançaya yunan Kiprinə saldı. Guya orda pandemiya yoxdu ki? Nə isə...**

İnşallah, Qurban Qurbanovun köhlən atları "Molde"ni tapdayıb keçəcək. Özü də yunan Kiprində "Qarabağ"ın zəfər qazanmasının başqa bir özəlliyi də var. O özəlliyin nə olduğunu ağıllı adamlar bilir.

Mili komandamız bizə o sevinci yaşatdı, indi növbə "Qarabağ"ındı.

**Haydı, köhlən atlarım, yeriyin "Molde" üstünə!**

### *Oxucuların nəzərinə!*

***Pandemiya ilə əlaqədar sərt karantin rejimi uzadıldığına görə qəzetimiz bu ay həftədə 3 dəfə - 2, 4, 6-cı günlər çap olunacaq.***

***Buna görə oxucularımızdan üzr istəyirik.***

### GÜNÜN LƏTİFƏSİ

Kişi işə gəlir və iş yoldaşlarına başına gələn hadisəni danışır:

**- Dünən məşuqəmin evinə qonaq getmişdim. Elə "işə" başlamaq istəyirdik ki, əri qapının zəngini çalır. Məşuqə dedi:**

**- Götür ütünü, ağları ütülə!**

Bu zaman iş yoldaşlarından biri güldü:

**- Bu hadisə Sovet küçəsi 3, mənzil 10-da olub?**

**- Hə.**

**- O ağları dünən yox, srağa gün mən yumuşam!**

## Prezident sərəncamlar imzaladı



**Prezident İlham Əliyev Albert Lixanovun ”Dostluq” ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında humanitar əlaqələrin möhkəmləndirilməsində xidmətlərinə görə Albert Anatolyeviç Lixanov ”Dostluq” ordeni ilə təltif edilsin.

***

Prezident İlham Əliyev Şamaxı rayonunun Bakı-Şamaxı-Yevlax (122 km)-Şəhriyar-Kələxana avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, üç min nəfər əhalinin yaşadığı 2 yaşayış məntəqəsini birləşdirən Bakı-Şamaxı-Yevlax (122 km)-Şəhriyar-Kələxana avtomobil yolunun tikintisi məqsədilə ”Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”ndə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün göstərilmiş vəsaitin 3,5 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

## *"Bilik günü"ndə valideynlər məktəb binasına buraxılacaq?*

***"Valideynlər məktəb binasına buraxılmayacaq. Buna səbəb sıxlığın yaranmamasıdır".***

***Bu sözləri Təhsil nazirinin müşaviri Rüstəm Ağayev Nazirlər Kabinetinin "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları"nın şərhi ilə bağlı Təhsil Nazirliyinin "Facebook" səhifəsində keçirilən onlayn mətbuat konfransında deyib:***

***"Odur ki, indidən övladlarınıza parta arxasında tək oturacağını deyin və onları hazırlaşdırın. Bütün hallarda ilk dəfə məktəbə gələn şagirdlərin adaptasiya məsələsi ilə məktəblərdə olan psixoloqlar da məşğul olacaq. Amma bütün hallarda biz məktəblilərin valideynlərinin müəllimlərə gül almasını tənzimləyə bilmərik".***

***O həmçinin bildirib ki, tədrisin ilk günü müəllimlərə hədiyyə olaraq gül gətirilib-gətirilməməsini tənzimləyə bilmərik.***

***Əgər buna ehtiyac duyulmursa və infeksiya mənbəyi kimi qiymətləndirilirsə, valideynlər bu dəstək olmalıdır.***

## Spikerin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyədə

**Milli Məclisin sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Türkiyəyə rəsmi səfər edib.**

Ankaranın Esenboğa hava limanında nümayəndə heyətimizi Türkiyə Böyük Millət Məclisinin sədr müavini Süreyya Sadi Bilgiç və digər rəsmi şəxslər qarşılayıblar.

Milli Məclisin sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Türkiyənin ticarət naziri Ruhsar Pekcan ilə görüşüb.

Azərbaycan parlament nümayəndə heyətini Türkiyədə salamlamaqdan məmnunluq duyduğunu deyən xanım nazir bildirib ki, 2019-cu ildə iki ölkə arasında ticarət dövriyyəsi 4,4 milyard dollar olub. Lakin bu rəqəm iki ölkənin gerçək potensialını əks etdirmir və məqsədimiz ticarət dövriyyəmizi daha da artırmaqdır.

Xanım nazir bildirib ki, hədəfimiz Azərbaycanla Sərbəst Ticarət Anlaşması imzalamaqdır. Ruhsar Pekcan pandemiya səbəbindən Türkiyənin Orta Asiyaya İran üzərindən daşımalarda çətinlik yarandığını və bu səbəbdən Gürcüstan-Azərbaycan-Xəzər istiqamətinin daha da önəm qazandığını diqqətə çatdırdı. Türkiyənin Naxçıvanla əlaqələrinə də toxunan Ruhsar Pekcan diqqətə çatdırıb ki, Naxçıvan Azərbaycanın bizə əmanətidir və Naxçıvanla ticarət əlaqələrinin inkişafına xüsusi önəm veririk. Ümumiyyətlə, Azərbaycanla işbirliyimizdən məmnunuq və daha böyük ticarət dövriyyəsinə imza atacağımıza inanırıq.

Səmimi qəbul üçün təşəkkür edən Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, bu onun ilk rəsmi səfəridir. Türkiyə bizim üçün doğma ölkə olduğu üçün Azərbaycanın ən yüksək vəzifəli şəxsləri ilk səfərlərini Türkiyəyə həyata keçirirlər. Türkiyə tərəfdən də bu belədir. Biz "bir millət, iki dövlətik". Bu sözləri ulu öndər Heydər Əliyev deyib. Düşünürəm ki, doğrudan da bu sözlərin arxasında çox böyük həqiqət var. Çünki dilimiz, dinimiz, mədəniyyətimiz, tariximiz də birdir. Eyni zamanda, bizim dilimizdə, mədəniyyətimizdə olan birlik bizə gələcəyimizi də birgə qurmağa imkan verir.

İki ölkə arasındakı iqtisadi münasibətlərə toxunan Milli Məclisin Sədri bildirib ki, Türkiyə və Azərbaycan bu gün region üçün çox böyük işlər görür. Milli Məclisin sədri həm Türkiyədə, həm də Azərbaycanda qadınlara verilən dəstəkdən danışaraq qeyd etdi ki, hansı cəmiyyətdə qadın azaddırsa, yaxşı təhsili varsa, o cəmiyyət inkişaf edəcək. Azərbaycan parlament nümayəndə heyətinin Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopla da görüşü olub. Görüşdə parlamentlərarası əlaqələrin perspektivləri, iki ölkə arasındakı münasibətlərin inkişafında parlamentlərin rolu barədə fikir mübadiləsi aparılıb.

**Qeyd edək ki, nümayəndə heyətinin tərkibinə Milli Məclisin Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov, komitə sədri Ziyafət Əsgərov, deputatlardan Sevil Mikayılova, Fazil Mustafa, Elşən Musayev, Tural Gəncəliyev, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxildir. Səfər bu gün başa çatacaq.**

**Nicat Novruzoğlu**

*Aqil ABBAS*

# YAYON VAY, Ə, YAYONUN YİYƏSİN QOYUBLAY İÇƏYİ...

(əvvəli 1-ci səhifədə)

Dünya dəniz flotunun 16 faizinə sahibidi. Avropa dəniz flotunun isə 40 faizinə. Petrol tankerlərinin yüzdə 23-ü Yunanıstana aiddi.

İran neftini dünyaya 200 tanker daşıyır ki, bunun da 81-i Yunanıstan bayrağı altında üzür. Tankerlərinin tonnaj tutumu Türkiyədən 15 dəfə çoxdur. Eləcə də Türkiyə dəniz daşımaçılığını əsasən Yunanıstan gəmiləri ilə həyata keçirir.

Faktlar çoxdur, hamısını sadalamaq istəmirəm.



Və ağrıya-ağrıya yazır: ”İzmirdə yunanları dənizlərə tökdük və dənizləri verdik yunanlara”.

Türkiyə üç tərəfdən dənizlə əhatə olunub, bir tərəfdən də düşmənlərlə. Türkiyənin dəniz sərhədləri Yunanıstanın dəniz sərhədlərindən üç dəfə artıqdır. Və Yunanıstanın da qeyri-dəniz sahilləri düşmənlərlə əhatə olunmayıb.

Çox qəribədir ki, dəfələrlə yazmişam və yenə yazıram. Türkiyənin dəniz sərhədləri təxminən 4 min kilometrə yaxın olsa da, hələ bu ölkədən dünya səviyyəli nə bir üzgüçü çıxıb, nə də Olimpiya çempionu.

Amma Avstriyanın heç bir dənizi yoxdur, içindən bir-iki çay axır, amma üzgüçülük üzrə nə qədər Olimpiya və dünya çempionu var.

Düzdür, bizim Azərbaycanın da təxminən 650 km. dəniz sərhədi var, üzgüçülük üzrə nəinki olimpiya çempionu, heç respublika çempionu da yoxdu. Nə isə....

Qayıdaq söhbətimizə. Yılmaz Özdil yazır ki, Türkiyədəki bütün dəniz limanları satılıb, özünün bir dəniz limanı yoxdur. Yunanıstanın isə bircə dənə dəniz limanı Çinə satılıb. Və bu alverdən sonra Çinin dövlət başçısı Yunanıstana səfər edib və deyib ki, biz tarixi İpək Yolunu bərpa edirik. Və bu dəniz limanını Yunanıstan Çinə satdığına görə Çin bu ölkə üçün tankerlər tikir.

Nə isə. Qayıdaq geri. Ay mənim canım-gözüm Yılmaz Özdil, bunları yazırsan, çox gözəl. Türkiyə vətəndaşı olan, dünyada dəniz daşımaçılığında xüsusi yeri olan ”Palmali” şirkətinin prezidenti Mübariz Mənsimovu tutub qoymusunuz içəri. Və bu şəxs də Türkiyə vətəndaşıdı və onun gəmiləri də dünyada Türk bayrağı ilə üzür. Amma niyə bir dəfə səsinizi çıxarmamısınız ki, bu adamı niyə həbs etmisiniz?

Deməli, belə. Ağcabədidə Nazim adında bir yeməkxana müdiri var. Həm gözəl insandı, həm də dili çox şirindi, ”r” hərfini deyə bilmir. Və rayona gələn bütün vəzifəli qonaqlar adətən onun şirin danışığını eşitmək üçün, həm də ləzzətli xörəklərini yemək üçün həmin yeməkxanada qonaqlanırlar.



Dünyanın dağılan vaxtı idi - 90-cı illər idi. Ağcabədi Xalq Cəbhəsinin sədri Məmmədi (Mamed deyirdilər) həbs edirlər və gətirib salırlar Bayıl həbsxanasına.

Nazim də dostluğa sədaqətli, hər həftə Məmmədə ”peredaça” gətirir.

Bir dəfə ”peredaça” gətirəndə Məmməd pəncərədən Nazimlə danışır və deyir:

- Ə, Nazim, rayonda nə var, nə yox?

Nazim:

- Yayon vay, ə? Yayonun yiyəsin gətiyib qoyublay buyda içəyi, mənnən yayon soyuşuysan?!

Sayın Yılmaz Özdil, indi Türkiyə dəniz flotu istəyirsən. Türkiyənin dəniz flotunun ası Mübariz Məsimovu tutub qoymusuz içəri və Türkiyənin dənizçilikdən yunanlara on beş dəfə uduzmağından yazırsınız.

Və bu günədək nə sizin yazılarınızda, nə də ”Sözçü”də Mübariz Mənsimovu müdafiə edəcək bircə cümlə oxumadım.

Ona görə də sayın Yılmaz Özdil, çox da yekə-yekə danışmayın. Yalnız ”Oda” TV bircə dəfə Mübariz Mənsimovu müdafiə elədi. O da bircə dəfə.

***P.S.** Baxıram Azərbaycanda sosial şəbəkələrdə Mübariz Mənsimovu müdafiə edən statuslar paylaşıblar. Ən dəhşətlisi odur ki, bu statusları cəmi üç-dörd nəfər layk edər, uzağı ikicə nəfər də şərh yazar.*

*Allah Mübariz Mənsimovun qapısını açsın. Hərçənd ki, buna inanmıram. Çünki qapısını bağlayanlar çox bərk bağlayıblar, əstəğfürullah, buna Allahın da gücü çatmır.*

# "Qarabağ qaziləri" birliyi Prezidentə müraciət etdi

## Ölkədəki vəziyyətlə, Tofiq Yaqublu və digərləri barədə

**"Qarabağ qaziləri" birliyi ölkəmizdə son durum, eyni zamanda həbsdə olan Qarabağ qaziləri və müharibə veteranları ilə bağlı Prezident İlham Əliyevə müraciət ünvanlayıb. Müraciətdə deyilir:**

**"Hörmətli cənab Prezident!**

Son günlər ölkəmizdə gedən proseslər biz, Qarabağ qazilərini ciddi narahat edir. Xüsusən də cəbhədə gərginlik olan bir vaxtda, şəhidlərimizin qanı soyumamış, koronavirus pandemiyası ilə bağlı karantin dövründə bəzi keçmiş və hazırkı dövlət məmurlarının saymazlığı, qanunu nümayişkaranə şəkildə pozması, xalqa sayğısızlığı, hörmətsizliyi və bütün bunlara dövlətin sərt reaksiyasını müşahidə etməkdəyik. Qanunu pozan məmurlara qarşı dövlətimizin sərt tədbirlərini dəstəkləyirik!



Heç kəsə sirr deyil ki, azğın düşmənimiz olan ermənilər havadarlarının dəstəyi ilə təpədən dırnağa qədər silahlanaraq hər an torpaqlarımıza hücum etməyə hazırdır. İyul ayındakı Tovuz hadisələri, elə bu günlərdə cəbhə xəttində təxribat törətməyə cəhd edərkən erməni kəşfiyyatçısının tutulması da buna sübutdur. Həm ordumuzun, dövlətimizin müdafiə qüdrətini artırmaq, həm də uzun illərdir işğal altındakı torpaqlarımızı azad etmək üçün səfərbər olmalıyıq. Amma belə bir ağır vaxtda ölkəmizdə bir qrup, daha dəqiq desək "5-ci kalon"un adamları siyasi-ictimai asayişi pozmağa, hər vəchlə qanunu bilərəkdən tapdalayaraq qarışıqlıq yaratmaqda israrlı olduqları göz qabağındadır. Belə bir vəziyyət yaranarsa ermənilər əvvəlki illərdə olduğu kimi, yarana biləcək qarışıqlıqdan faydalanaraq yenə ərazimizi işğala cəhdlərini davam etdirəcək. Bu isə biz Qarabağ qazilərini təbii olaraq narahat edir.

Bütün neqativlərə, çatışmazlığa baxmayaraq bu bizim dövlətdir və biz qanımız bahasına qoruduğumuz dövlətimizin yanındayıq. Bayraq, gerb və himndən sonra dövlətin atributları onun şəhidləri və qaziləridir. Biz Qarabağ qaziləri zaman-zaman rüşvətxor məmurlar tərəfindən - xüsusən də Ramiz Mehdiyevin rəhbərliyi ilə incidilsək də, bir parça çörəyə möhtac edilsək də, təqib və təzyiqlərə məruz qalsaq da vətənimizi tərk etmədik. Dövlətin fərdlər olmadığının fərqində olduq, fərqindəyik. Fərdlər gəldi-gedərdi, dövlət əbədidir! Dözdük, bir gün hər şeyin yaxşı olacağı, Qarabağımızı azad edəcəyimiz ümidi ilə yaşadıq...

**Cənab Ali Baş Komandan!**

Biz Qarabağ qaziləri şahidik ki, Siz ümummilli liderimiz, mərhum dövlət başçımız Heydər Əliyevin Şəhid ailələrinin, Qarabağ qazilərinin, veteranların problemlərinin həllinə yönəlmiş siyasətini uğurla, daha əhatəli, irimiqyaslı şəkildə davam etdirirsiniz. Bu illər ərzində 7 mindən çox Şəhid ailəsinə, Qarabağ qazilərinə və onlara bərabər tutulan şəxslərə mənzil, bir o qədər də Qarabağ qazisi və onlara bərabər tutulan şəxslərə isə avtomobil verilib! Həmişə çıxışlarınızda məmurları Şəhid ailələrinə, Qarabağ qazilərinə və müharibə veteranlarına qarşı diqqətli olmağa, bu insanlara qayğı göstərməyə çağırmısınız! Hətta tələb də etmisiniz! Biz Qazilərə: "Onlar mənim qardaşlarımdır!" demisiniz! Biz bütün bunların fərqindəyik. Və həmişə Sizin timsalınızda arxamızda dövlət başçısı ilə yanaşı bir qardaşın olduğunu hiss eləmişik! Bu gün açıq şəkildə bildiririk ki, "Qarabağ qaziləri" birliyinin timsalında, onun rəhbərliyi və çoxminli üzvləri, tərəfdarları - Qazilər Sizin yanınızdayıq! Dövlətçiliyimizin gücləndirilməsi istiqamətində apardığınız islahatları da bəyənirik! Bu gün də dövlətimizə, dövlətçiliyimizə qarşı gələcək istənilən zərbələrin qarşısına yaralı canımızı verməyə hazırıq!

**Hörmətli cənab Prezident!**

Ölkədə həmişə Qazilərin hüquqları uğrunda mübarizə aparan, onların maraqlarını heç bir məmura güzəştə getməyən bir təşkilat olaraq Sizdən acizanə şəkildə xahiş edirik: hazırda müxtəlif səbəblərdən bir qrup Qarabağ Qaziləri məhbəsdədir; məhkəmə qarşısında olanları da var. Qarabağ qaziləri Asif Yusifli, Babək Həsənov Qarabağ müharibəsi iştirakçıları Tofiq Yaqublu, Saleh Məmmədov, Şəmsi Səmədzadə və digərləri həbs olunub. Tofiq Yaqublu artıq 10-cu gündür aclıq aksiyası keçirir. Bizdə olan məlumata görə, səhhəti ağırdır!

**Hörmətli Prezident, cənab Ali Baş Komandan!**

Milli barışıq, Qarabağ və dövlət naminə, bu Qarabağ döyüşçülərinin - Qarabağ qaziləri Asif Yusifli, Babək Həsənov Qarabağ müharibəsi iştirakçıları Tofiq Yaqublu, Saleh Məmmədov, Şəmsi Səmədzadə və digərlərinin - vətən qarşısındakı xidmətlərini nəzərə alaraq onların azad edilməsini xahiş edirik!"

**Müraciəti "Qarabağ qaziləri" ictimai birliyinin sədri Asəf Əliyev imzalayıb**

---

HƏSƏNQULU

# KAREN ŞAHNAZAROVDAN ÖTRÜ BURNUNUN UCU GÖYNƏYƏNLƏRƏ



**Əslən Bakıdan olan məşhur kinorejissor Karen Şahnazarov mətbuatda verdiyi müsahibələrin birində Bakı üçün, burdakı dostları üçün darıxdığını bildirir. Və deyir ki, dəvət eləsələr məmnuniyyətlə Bakıya gələr.**

Gəl, qaqa, gəl, niyə gəlmirsən?! Filipp Kirkorovdan əskiksən, o Zaradı-nədi, ondan əskiksən və ya "Sülh platforması"na "minib" Bakıya gələn o biri ermənilərdən əskiksən? Əksinə, artıqsan. Özü də heç onlar bakılı da deyillər.

Yox, səhv elədim, deyəsən gələnlərdən biri gəncəli idi. Gəldi, getdi Gəncədəki qonşuları ilə çay içdi, bir az da qucaqlaşıb ağlaşdılar.

Biri də Binəqədidən idi, gəldi evində qalan qaçqınları verdi məhkəməyə, "naş qumannıy sud" da qaçqınları tökdü çölə və evi qaytarıb verdi adı yadımdan çıxan həmin erməniyə.

Gəl, qaqa, gəl. Səni Bakıda gül-çiçəklə qarşılamaq istəyən çoxdu. Bəlkə ayağının altına xalı atan da oldu.

Gəl, qaqa, gəl. Gəl, sən də Bakıdakı evinizin məhkəmədə davasını qaldır, "naş qumannıy sud" da həmin evi qaytarıb versin sənə, özəlləşdir, ver kirayəyə. Hər halda eviniz şəhərin babat yerində və babat binada olar.

Düzdür, atan Georgi Şahnazarov Qorbaçovun köməkçisi olub və Dağlıq Qarabağın Ermənistan tərəfindən işğalında da müstəsna xidmətlər göstərib. Amma bu, 30-32 il əvvəl olub ey. Çox şeyi unutduğumuz kimi bunu da unutmuşuq.

Gəl, qaqa, gəl. Həsrətini çəkənlərin gözlərini yolda qoyma.

Amma gələndə COVİD-19-la bağlı sağlamlıq kağızı da al ki, 14 günlük karantinə düşməyəsən.

**Günah səndə deyil ey, sənin nənənə tamah salan İbrahim xandadı!**

---

Aqil ABBAS

# MURADXAN CABBAROV, MƏMMƏD KİŞİ VƏ NAVES...

(əvvəli 1-ci səhifədə)

Biz təklif verməyi, məsləhət verməyi sevən millətik. Əlli ilin həkiminə də məsləhət veririk, əlli ilin hüquqşünasına da, əlli ilin dövlət məmuruna da.

Hərdən Möhtərəm Prezidentə də məsləhət verməyi yaddan çıxarmırıq. Hansısa bir nazir yeri boşalanda, ya icra başçısı yeri boşalanda və ya yüksək vəzifəli dövlət məmuru vəzifəsi boşalanda Möhtərəm Prezidentə məsləhət veririk ki, filankəsi filan vəzifəyə qoyun, filankəsi filan nazirliyə qoyun.

Hərbçilərə Qarabağın azad olmağın yollarını göstəririk. Müdafiə naziri Zakir Həsənova məsləhətlər veririk ki, Qarabağı necə azad etmək olar.

Yadıma bir hadisə düşdü. O vaxtkı Lenin meydanına yüz minlərlə adam yığışır. Cəbhə xəttindən gəlmiş bir nəfər deyir:

- Biz o gün Füzuli tərəfdən Dağlıq Qarabağa girmək istədik. Ermənilər orda çox möhkəm istehkamlar qurublar, girə bilmədik. Belə məsləhətləşdik ki, Ağdamın Mərzili kəndi tərəfdən girək Dağlıq Qarabağa.

Və bunu tribunadan deyir. İndi bizim məsləhət və təklif verənlərin əksəriyyəti də həmin adam ağıldadılar.

Demək olar hər gün neçə sayt və qəzet müəyyən məsələlərlə bağlı açıqlamalar istəyirlər. Mən mətbuata açıq adamam, kiminsə xətrinə dəymirəm. Və həm də soruşurlar ki, filan məsələ ilə bağlı nə məsləhət və ya nə təklif verə bilərsiniz? Mən də deyirəm ki, həmin problemlə bağlı mütəxəssis deyiləm, uzaqbaşı subyektiv fikrimi deyə bilərəm.

Əslində elə dünyada ən asan iş məsləhət və ya təklif verməkdi.

Deməli, belə. Rəhmətlik Muradxan Cabbarov Laçında birinci katib işləyir. Və ümumiyyətlə, 30 ildən çox Laçına rəhbərlik edib. Deməli, rayonda pəpə yeyəndən məmə deyənə qədər hamını əzbər tanıyırdı. Hansı kənddə bir at oğurlasaydılar Muradxan müəllim bilərdi ki, o atı kim oğurlayıb. Bununla bağlı ayrıca bir yazını yazaram.

Camaat da onu çox sevərdi, bu gün də hörmətlə yad edirlər. Muradxan müəllim özü deyəsən Zəngilandanıydı, dəqiq bilmirəm, amma laçınlılar qədər laçınlı idi və bu gün də kimdən soruşsan rəhmətliyi elə laçınlı bilirlər.

Deməli, belə. Mərkəzi Komitədən yüksək vəzifəli bir dövlət məmuru gəlir. Muradxan müəllim onu götürüb aparır bir kəndə.

Camaata deyir ki, bu yoldaş Mərkəzi Komitədə məsul vəzifədə çalışır, gəlib sizin problemlərinizi öyrənsin və kömək eləsin. Nə təklifiniz varsa, deyin.

Camaat başlayır problemlərindən danışmağa və təkliflərini verməyə. Bir, iki, üç, dörd, beş...

Mərkəzi Komitədən gələn də bu təkliflərin hamısını bir-bir kitabçasına qeyd edir.

Kəndin ağsaqqalı Məmməd kişi də oturub bir kənarda, nəhayət, hamı sözünü bitirəndən sonra əlini qaldırır:

- Mənim də təklifim var.

Muradxan müəllimin dalağı sancır. Əvvəldə dedim ha, hamısını yaxşı tanıyır, o cümlədən Məmməd kişini də.

Deyir:

- Buyur, Məmməd kişi.

Məmməd kişi üzünü tutur Mərkəzi Komitədən gələnə:

- Hörmətli yoldaş, bizim kənddə məktəb yoxdu. Uşaqlar məcbur olub iki kilometr aralıdakı kəndin məktəbinə gedirlər. Payız olur, qış olur, yağış , qar - yazıqlar gedib-gələndə pal-palçığa düşürlər, zülm çəkirlər. Mənim də bir xahişim, bir təklifim var. Bizim kənddən o kənd arasındakı yolun üstünə bir naves qurun, uşaqlar gedib-gələndə pal-palçığa düşməsinlər.

Muradxan müəllim:

- Məmməd kişi, ağsaqqal adamsan, elə təklif ver ki, eləmək mümkün olsun da.

Məmməd kişi gülüb deyir:

- Yoldaş Cabbarov, guya bu yoldaş o biri təklifləri həyata keçirəcək ki? Dedim, qoy bir dənəsini də mən deyim, sonra deməyəsən ki, Məmməd kişi, sən niyə bir təklif vermirsən?!

İndi ay təklif verən dostlar, heç özünüzü də yormayın, heç kim Məmməd kişinin kəndindən o biri kəndə gedən yolun üstünə naves tikməyəcək.

Və sonda. Yaponiya II Dünya Müharibəsindən çıxanda büdcəsində cəmi 10 milyon dollar pul vardı. 1975-ci ildə büdcəsində 100 milyard dollar oldu. İndi isə deyəsən 950 milyard dollardı.

Məşhur jurnalist Svetov 1975-ci ildə bir yapondan soruşur ki, necə oldu otuz ildə belə bir qüdrətli dövlətə çevrildiniz?

Yapon çox qısa cavab verir:

- Çox sadə. Hər bir yapon başa düşdü ki, ölkə ağır vəziyyətdədi və öz işinə vicdanla yanaşdı. Traktorçu traktorunu sürdü, maşınqayıran maşınqayırma ilə məşğul oldu, suçu sahəsini suvardı, siyasətçi də siyasəti ilə məşğul oldu.

İndi təklif verən dostlar, hər birimiz öz işimizlə məşğul olsaq, yəni əkinçi əkinini əksə, işıqçəkən işığını çəksə, avtobus sürən avtobusunu adam kimi sürsə, alim elmi ilə məşğul olsa, müəllim müəllimliyini eləsə və sair və ilaxır.

Məmməd Araz demiş:

*Bir işin qulpundan yapışsa hərə,*
*Nə imiş bir kəndin şəhər olmağı.*

İndi hər birimiz öz işimizin qulpundan yapışsaq nə imiş Azərbaycanı güllük-gülüstana çevirmək!

Deyəsən, mən də təklif verdim ey!

**Layihənin istiqaməti: Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

№ 103 (2137) 12 sentyabr 2020-ci il

# XANIN KƏNDİ

**Tariximizi vərəqlədikcə onun hər səhifəsində müəyyən hadisələrin, müəyyən gerçəkliklərin və ən vacibi isə bizi özümüzə və dünyaya təqdim edən real faktların şahidi oluruq. Bax, bu mənada bu gün Azərbaycanın zorla cəlb olunduğu müharibənin tarixinə nəzər salsaq, onda həmin tarixin bizə verdiyi bilgilər gerçəkliyin özü kimi köməyimizə çatır.**

Yəni söhbət Qarabağın dağlıq hissəsindən gedəndə onda birmənalı şəkildə məlum olur ki, bu, Azərbaycanın böyük ərazisinin bir paçrasıdır. Hətta coğrafiya xəritəsini gözümüz önünə gətirsək, Dağlıq Qarabağ böyük Azərbaycanın tam ortasında yerləşən bir hissədir. Və sadəcə bir təbii prosesin tərkib hissəsi olaraq həmin ərazi Qarabağın aran hisəsindən fərqli olaraq yüksəklikdə, dağlıq bir ərazidə özünü ifadə edibdi. Və bununla da Qarabağın dağlıq hissəsi aran hissəsindən fərqlənib. Həm də sadəcə, ekoloji bir bölgə olmaqla.Və bir daha vurğulayıram ki, dağlıq və düzənlik hissələr özü-özlüyündə həmin o qeyd etdiyimiz böyük Azərbaycanın bir parçasıdır. Tarixə nəzər salanda, onu da öyrənirik ki, Sovet İttifaqı yaranandan sonra, yəni oktyabr inqilabının təntənəsi olaraq, 1923-cü ildə həmin bu ərazi Dağlıq Qarabağ Muxtar Vilayəti üçün rəsmiləşdirilib və Azərbaycan Sovet Sosialist Respublikasının tərkibində muxtariyyat statuslu əraziyə çevrilibdi. Həmin rəsmi sənədlə və xüsusilə də ermənilərin və Sovet İttifaqını idarə edən ermənipərəstlərin, bir də Rusiyanın Qafqazdakı maraqlarının müdafiəçilərinin təşəbbüsü ilə rəsmiləşən bu sənəd 1988-ci ildə Azərbaycana qarşı baş qaldıran torpaq iddiasının səbəblərindən birinə çevrildi. Necə deyərlər, zamanında göz yumduğumuz haqsızlıq sonda bizə böyük bəlalar gətirdi... həm də bu gün də gətirməkdədir!

***Azərbaycan prezidenti cənab İlham Əliyevin də dəfələrlə, özü də ən yüksək səviyyələrdə, bildirdiyi kimi "Böyük tarixi ədalətsizlik Azərbaycan torpaqlarının işğalına müəyyən şərait yaradıb. Sovetlər birliyi tərkibində aparılan siyasət bir respublikanın ərazisi hesabına başqa bir respublikanın yaradılımasına hesablanıb. Bu gündə həmin sonradan yaradılmış Ermənistan Respublikası özünün məkirli, işğalçı siyasətini davam etdirməklə, Azərbaycan torpaqlarını özününküləşdirməyə çalışır."***

Amma əsl həqiqətləri, tarixi gerçəklikləri gizlətmək mümkün deyil. Tarixdən də məlumdur ki, sovet dönəmində adı dəyişdirilən və bu gün isə qondarma respublikanın paytaxtı adlandırılan həmin Stepanakert şəhərinin özülü Xankəndi kimi mövcud olubdu. Yəni tarixi sənədlərdən də məlumdur ki, Qarabağ xanlığının baş bilənləri tərəfindən xan ailəsinin istirahəti üçün salınmış bu məkan öncə kənd, sonra müəyyən zaman keçdikdən sonra qəsəbəyə çevrilmiş və nəhayət, sovet dönəmində bura daha da inkişaf etdirilərək artıq Azərbaycanın ən gənc şəhərlərindən biri olmuşdur. Amma xalqın və tarixin yaddaşında bu ərazi Stepanakert deyil, Xankəndi kimi qalmışdır.

***Hələ çar Rusiyası dövründə, yəni Gülüstan müqaviləsinə qədər Rusiya bütün Azərbaycana, o cümlədən də Qarabağ xanlığının ərazisinə böyük maraq göstərmişdir. Və Qarabağ xanlığının işğalından sonra bu ərazini bir növü özünün dayaq nöqtəsinə çevirmək məqsədilə planlı şəkildə qonşu ölkələrdən, xüsusilə İrandan, Türkiyədən Dağlıq Qarabağ ərazisinə ermənilərin köçürülməsi əməliyyatı gerçəkləşdirilmişdir.***

Sənədlər sübut edir ki, 1847-ci ildə Xankəndində cəmi 80 erməni, 52 rus ailəsi yaşayırdı ki, onlar da yerli əhalinin içərisində heç cür diqqəti çəkə bilmirdi. Faiz baxımından bu adamlar özlərində heç nəyi ifadə etmirdilər. Lakin çar Rusiyası işğaldan sonra burada öz ordusu üçün xüsusi kazarmaların tikintisinə başladı. Çox keçmədi ki, Qafqaz Suvari Diviziyasının hərbçiləri burada onlar üçün tikilmiş hərbi ərazidə yerləşməklə Dağlıq Qarabağın torpaqlarında ermənilərin yerləşdirilməsinə təkan verdi. Yəni bir az da dəqiq ifadə etsək, rus əsgərlərinin burada olması əraziyə ermənilərin axınını sürətləndirdi.

Yeri gəlmişkən, onu da qeyd edim ki, sovet hökuməti Moskva çarizmin hərbi siyasətini davam etdirərək məşhur qətliyamçı və Qaradağlı, Xocalı qırğınlarında böyük rol oynamış hərbi hissəni də Xankəndində yerləşdirməklə milli məsələlərdə öz istədiyi niyyətləri reallaşdırmağı bacarmışdı.

Arxiv materiallarına üz tutanda məlum olur ki, 1900-cü ilin əhalinin siyahıya alınma sənədlərində göstərilir ki, Xankəndində 3000 insan yaşayır. Bu adamların da təhsil problemi də çar Rusiyası tərəfindən həll edilibdi. Çar Rusiyası bölgədə ruslar və ermənilər üçün məktəb də açmışdılar. Ermənilərin və rusların Xankəndində yerləşdirilməsinə baxmayaraq, buradakı xan nəslindən olanların, eləcə də digər azərbaycanlılar da yaşamaqda davam edirdilər. Yəni bütün təzyiqlərə baxmayaraq, torpağın əsl sahibləri Xankəndini tərk etməmişdilər.



***Tarixin cümhuriyyət dövründə də bu ərazidə oktyabr inqilabının təsiri öz izlərini buraxdı. Belə ki, fürsətdən istifadə edən köçkün, konkret desək, xaricdən, xüsusilə İrandan gətirilərək Dağlıq Qarabağda yerləşdirilmiş ermənilər Rusiyada baş verən hadisələrdən ruhlanaraq, Xankəndi ərazisində qondarma Ermənistan dövləti yaratdıqlarını elan etdilər.***

Və onlar Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ ərazilərini özləri üçün Ermənistan dövləti kimi qələmə verməyə və Azərbaycana qarşı torpaq iddialarını səsləndirməyə başladılar. İş elə gətirdi ki, bu ermənilər daha sonra bir az da irəli gedib Bakı, Şamaxı, Quba, Göyçay, Göyçə, Zəngəzur və digər qırğınları törətməkdən də çəkinmədilər. Və onların törətdikləri bu qırğınlar Azərbaycan xalqının tarixində silinməz iz buraxdı. Və bu gün də həmin qırğınların bariz nəticələri qazıntılar zamanı üzə çıxan kütləvi məzarlıqlarda özünü əks etdirir. Həmin məzarlıqlar birmənalı şəkildə göstərir ki, bizə qarşı torpaq iddiasında olan düşmən öz məqsədinə çatmaq üçün körpələrin, qadınların, qocaların qətliamından da çəkinmir. Bu vəhşilik, bu insanlığa yaraşmayan hərəkətlər isə öz növbəsində 1988-ci ilin hadisələrinə gəlib söykəndi. Artıq Muxtar Vilayətdə Ermənistana birləşdirmə çağırışları sonda SSRİ hökumətinin, onun rəhbəri Qorbaçovun, həmçinin erməni lobbisinin dəstəyi ilə qədim Azərbaycan torpaqlarının işğalına səbəb oldu. Öncə İrəvandan, sonra isə Qarabağdan köçlər başladı.Əgər konkret faktlara diqqət yetirsək görərik ki,1988-1989-cu illərdə ermənilər 250 min nəfər soydaşımızı öz doğma ocaqlarından,yəni 22 rayondan qovmağa müvəffəq olmuşlar.

Nəticədə , yəni bu silahlı köçürülmə zamanı 410 nəfər azərbaycanlı, o cümlədən, 57 qadın, 23 uşaq vəhşicəsinə qətlə yetirilmiş, müxtəlif bədən xəsarətləri almışdır. Bu mənəvi terror özü ilə maddi terroru da həyata keçirilməsinə açıq şərait yaratmışdı! Özü də sovet hökumətinin - Moskvanın gözləri qarşısında!!!

Sovet dönəmində yaradılan muxtar vilayət özünün inkişaf imkanlarına və bir şəhər kimi əldə etdiyi imtiyazlara güvənərək Azərbaycanın ən gənc şəhəri olmasına baxmayaraq, ali təhsil müəssisələrinin də ünvanına çevrildi.

Böyük və müasir zavod və fabriklərin, elmi müəssisələrin Xankəndində işə salınması Azərbaycanın öz torpağında münbit bir fəaliyyət bölgəsinin önə çıxmasına səbəb oldu. Çox təəssüf ki, ermənilər göstərilən bu qayğı və diqqəti, yaradılan şəraiti öz düşüncələriylə qiymətləndirdilər. Nəticədə Qarabağın işğalı başladı ki, bu işğalın da arxasında həmin o gizli planlar dayanırdı.

***Bəli, bu gün Xankəndi işğal altında olmasına baxmayaraq, bu ərazi Azərbaycanın tərkib hissələrindən biridir. Orada yerləşdirilən terrorçu dəstələr bu ərazidən həm də narkotik vasitələrin istehsalı və yayımı üçün də istifadə edirlər. Lakin dünyanın ikili standartı hələlik Qarabağdakı özbaşınalıqlara və qanunsuzluqlara son qoymağa mane olur. Doğrudur, BMT Azərbaycanın ərazi bütövlüyünü tanıyır və torpaqlarımızın işğalı ilə bağlı rəsmi sənədlər qəbul edibdi. Lakin nə Minsk qrupu, nə də BMT və digər qurumlar qəti mövqe ortaya qoymur, düşmənin cəzalandırılmasına imkan vermir. Bütün bunlara baxmayaraq, Azərbaycan hökuməti və xalqı gec-tez Xanın kəndində, eləcə də bütün ərazilərimizdə bayrağımızı dalğalandıracaq və tarixi ədalət bərpa olunacaqdır.***

Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici Siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin də dediyi kimi," Amma onu da qeyd etməliyik ki, Azərbaycan BMT Nizamnaməsini 51-ci maddəsində də nəzərdə tutulduğu kimi, bütün vasitələrdən istifadə edərək beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünü və suverenliyini təmin etmək hüququnu hər zaman özündə saxlayır. Bundan irəli gələn nəticələrə görə isə məsuliyyət Ermənistanın üzərinə düşəcək".

**Yəqin ki, bu gerçək və haqqımız, hüququmuz olan məsələ barəsində öncə erməni hakimiyyəti, eləcə də Minsk qrupunun həmsədirləri artıq fikrləşməli olduqlarını dərk edəcəklər! Ali Baş Komandanımızın bəyan etdiyi kimi, Azərbaycanın səbri hüdudsuz deyil!!!**

**Əbülfət MƏDƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

## Çingiz Abdullayev çox sərt danışdı



**Azərbaycanın Xalq yazıçısı Çingiz Abdullayev "Facebook" profili vasitəsilə ölkədəki rus məktəblərinin bağlanmasına çağıran yerli millətçiləri tənqid edib.**

**O qeyd edib ki, Rusiya mediasında erməni soyadlı jurnalistlər üstünlük təşkil edir və bu, lobbi fəaliyyətinin nəticəsi deyil: "Onlar rus dilində səlis danışan ağıllı, intellektual və istedadlı insanlardır".**

**Buna baxmayaraq, o, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanın rus və ingilis dillərindəki çıxışlarını nümunə gətirərək aralarında ölkə başçımızın xeyrinə olan böyük fərqi qeyd edib.**

**Ç.Abdullayev xarici kanallarda demək olar ki, heç bir azərbaycanlının olmadığını, varsa belə, rus və ya ingilis dilində yaxşı danışmadıqlarını da qeyd edib.**

**"Hörmətli yerli cahillər! Ana dilini bilmək əvvəlcədən vacibdir və bu, müzakirə edilə bilməz... Ancaq bizim kimi kiçik bir ölkənin ən azından rus, ingilis, fransız və ərəb dillərini bilən minlərlə insana ehtiyacı var.**

**Əcnəbi dildə danışan yalnız jurnalistlərə deyil, xarici texnologiyaya yiyələnmiş zabitlərə, dünyada mədəniyyəti və elmi təmsil edən sənət və elm işçilərinə, və nəhayət siyasətçilərə ehtiyacımız var. Lobbimiz yoxdur, ona görə yox ki kimsə bizə bunu yaratmaqda mane olur. Düşüncəsizliyimiz, geriliyimiz, həsədimiz, cəhalətimiz - budur bizim əsas düşmənlər. Həm Qarabağda, həm beynəlxalq məsələlərdə, həm də xarici və daxili siyasətdə.**

**Bir yerli "fəal" in dediyi kimi, "biz rus dilindən qurtulmağı xəyal edirdik, indi ingilis dilindən necə qurtulaq", - xalq yazıçısı statusunda qeyd edib.**

**Çingiz Abdullayev fərqli dillərdə məktəblərin sayının artmasına və uşaqlara xarici dilləri öyrənmək imkanı yaratmağa çağırıb:**

**"Bəlkə o zaman bir anda iki azərbaycanlı televiziya ekranlarında görünəcək və biz başqalarının lobbisini yada salmayacağıq. Həqiqətən, xəyal qurmaq zərərli deyil".**

Yılmaz Özdil

# Atatürkün "Lətifə"si...



**(əvvəli ötən sayımızda)**

**Dayəsilə aşpazını Ankaraya gətirmişdi.**

**İzmirdən gətirdiyi əşyalarla Çankayanı öz zövqünə görə yenidən dizayn etdirdi. Yataq otağı dəsti XV Louis tərzində idi. Qonaq otağındakı divan-kresloları yığışdırmış, Fransada gətirdiyi mavi divan-kreslolarla əvəzləmişdi.**

***

Şənbə günləri günortadan sonra paşaları, millət vəkillərini, qəzet işçilərini evində qarşılayırdı. Tortlu, kurabiyəli süfrələr hazırlayırdı. Çay ayaq üstə servis edilirdi. Ankaranın o günə qədər görmədiyi, eşitmədiyi şeylər idi bunlar. Cehiz sandığından çıxartdığı kristal stəkanlar, gümüş çəngəl-bıçaq dəstləri göz oxşayırdı.

***

**Geyimləri Parisdən, Milandan idi.**

**Xanım qonaqlar Lətifənin paltarlarından, ayaqqabılarından və xüsusilə də atası Muammer bəyin ərmağanı olan dörd karatlıq tək daş üzüyündən gözlərini çəkə bilmirdilər.**

**Zərafəti və ev sahibliyi ilə mükəmməl idi.**

***

Uşaqları olmadı, bir qız uşağını övladlığa götürdülər.

1924-cü ildə Amasiyaya gəlmişdilər, Darüleytam yurdunu ziyarət etdilər, Zəhra ilə tanış oldular. 12 yaşında idi, 4 yaşında ikən atasını, 5 yaşında ikənsə anasını itirmişdi, qosqoca dünyada təkətənə qalmışdı.

"Qızımız olarsan?" deyə soruşdular, Zəhra onların boyunlarına sarıldı.

Mənəvi övladları oldu.

***

***Xoşbəxt idi Lətifə.***

***Bağ evini yuvası olaraq mənimsəyirdi.***

***

Amma təəssüf ki gözəl günlər tez bitdi.

İki azad ruh... evin hüzuru qaçdı.

Axşamüstülərin birində... Alber adlı iti bala doğdu. Mustafa Kamal körpə itlərin sevimli hallarını sevəsevə izləyirdi, qəfil "bax, Fikriyə, nə gözəl oynayırlar" dedi.

Aləm bir-birinə dəydi.

Çünki Atatürk "Fikriyə" xitabını Lətifəyə etmişdi. Lətifənin halı pərişan oldu.

Dərhal atasına teleqraf göndərdi.

"Dərhal gəlib məni aparın" dedi.

Muammer bəy tez-bazar gəldi.

Qızını sakitləşdirməyi bacarsa da, bu, sonun başlanğıcı idi.

***

**Atatürkün həyatını səhmana salmaq istəyərkən həddindən ziyadə müdaxilələrə yol ver, qadağalar qoymağa çalışırdı. Bütün bu qadağalarla həm Atatürkü çox sıxırdı, həm də London, Paris görmüş, orada böyümüş qız olaraq Ankaraya sığmırdı.**

***

Davalar başladı, boşandılar.

Evlilikləri 2 il 6 ay davam elədi.

Köçdükləri gündən "1001 gecə nağılı" sona çatmışdı.

***

***İzmirdən "Lətifə Qazi Mustada Kamal" sifətilə çıxmışdı.***

***İzmirə yenidən "Lətifə" olaraq geri qayıtdı.***

***

Mustafa Kamalın yazdığı son məktubda bu sətirlər vardı:

"Uşakizadə Lətifə, möhtərəm xanıməfəndi, iki il yarım müştərək həyatımızda məndə yaranan təəssürata görə, mənimlə birgə səadət tapmağınız mümkün deyil və bunun üçün sizi azadlığa buraxmağı qərar verdim. Sizin mənimlə xoşbəxt olmayacığınız nəticəsinə gəldim.

Talaknaməni (boşanma kağızı) sizə təqdim edirəm.

Türkiyə Cümhurrəisi Qazi M. Kamal".

***

**Ən hədəfə dəyən rəyi isə qaynata Muammer bəy etdi:**

**"Qızım cümhurrəisiylə evləndiyini zənn edirdi, Mustafa Kamalla evli olduğunun fərqinə vara bilmədi!".**

***

Bacıları Lətifənin şəxsi əşyalarını yığmaq üçün Çankayaya gələndə Mustafa Kamal onlardan bir xahiş etdi.

"Əgər özü üçün problem yoxdursa, Lətifəyə aid bəzi kitabları malikanəün kitabxanasına aparasınız" - deyib siyahı verdi.

Lətifədən soruşdular, icazə verdi.

Siyahıda bunlar var idi: "13 cildlik Volter seriyası, Viktor Hüqonun "Səfillər"i, Napoleonun həyatı, dünya tarixi, yunan tarixi, İngiltərə tarixi, Roma imperatorluğu, teatr və dünya insanları".

Hamısı fransızca idi.

Çankaya malikanəsində xoşbəxt günlərin xatirəsi olaraq yalnız birlikdə oxuduqları kitablar qalmışdı.

***

***10 noyabr, 1938.***

***Lətifə İsveçrədə xəstəxanaların birində idi, sətəlcəmdən mülaicə alırdı.***

***Qəzet oxuyurdu.***

***O an hiss etdiklərini "beynimdən vurulmuş adama döndüm" deyə ifadə edəcəkdi. "Mən iki dəfə öldüm, bir 1925-də, bir də 1938-də" deyəcəkdi.***

***

Bir daha evlənmədi.

Təkliflər çox oldu, amma heç ağlının ucundan belə keçirtmədi.

***

**Kişilərin dominant olduğu vəhşi toplumun qaydaları işə düşmüşdü. Bir boşanma varsa, mütləq qadın günahlar idi, kişi isə əsla!**

**Bu kişi Mustafa Kamal idisə, qadının ümumiyyətlə, heç bir şansı yox idi.**

**Lətifə bir andaca tərk olundu.**

**Yaxın bildiyi dostları belə axtarıb-aramadı.**

***

Qaçmaq, uzaqlaşmaq istədi. Bugünkü Slovakiyaya getdi, Tatra dağlarında bir sanatoriyada dincini aldı. İki ilə yaxın Fransada yaşadı. Sonra İstanbula qayıtdı.

Qısa müddət içində Ayaspaşada ailəsinə aid malikanəə, daha sonra 1965-ci ildə Harbiyədə Safir apartmanına köçdü.

***

***Ömrü boyu malikanələrdə yaşamış, geniş baxçalara alışmış biri kimi niyə bu apartmandak mənzili seçmişdi?***

***Pəncərənin kənarından "baxın" deyə işarət edirdi. Üzbəüzdə Harbiye Ordu evi vardı, onun da önündə Atatürkün heykəli.***

***"Bu heykəl Atatürkə çox bənzəyir, buradan onu seyr edirəm, yoxsa burada yaşayardımmı?!" - deyirdi.***

***

Evinə Atütürklə birlikdə çəkilmiş fotolardan heç birini qoymamışdı.

Divarda, kamotun üstündə sadəcə Atatürkün fotoları vardı.

Evliliklərinə dair heç nə

***

**50 il ərzində nə qədər deyilsədə, rədd etdi, xatirələrini yazmadı, danışmadı.**

***

Daima çox şux geyindi. Sevdiyi rəng qara idi. Atasının ərmağanı tək qaşlı brilliant üzüyünü barmağından çıxartmadı.

***

***Evə qapanmadı, gəzməkdən, səyahətdən əl çəkmədi.***

***Tanınmasın, narahat etməsinlər deyə Atatürkün istəyilə "Fatma Sadık" adı ilə passport düzəltdirdişdi. Xaricə gedərkən bu addan istifadə edirdi.***

***

Konsert, teatr - heç biri qaçırtmazdı.

***

**Yemək-içməyinə diqqət edərdi, çəkisinə nəzarət edərdi ki, kökəlməsin.**

***

Saçlarını boyatmadı, ağappaq gur saçları parıldayırdı.

Fildişi darağıyla toppuz yığardı.

***

***Müdhiş kitabxanası vardı.***

***Şekspir, Göte, Şiller, Korneli originaldan oxuyardı.***

***Tevfik Fikret, Ahmet Haşim, Yahya Kemal kimi imzaları əzbər bilirdi.***

***50 yaşından sonra rus dilini öyrəndi. Puşkinə heyran olmuşdu.***

***

Bir veteran yunan qadın xidmətçisi vardı. İrfan adlı aşpazı vardı. Sürücüyə ehtiyac duymazdı, taksidən istifadə edərdi.

***

**Döş xərçəngindən əziyyət çəkirdi.**

**1975-ci ildə 76 yaşında dünyasını dəyişdi.**

***

Dəfni dövlət səviyyəsində keçirilmədi, hökümətdən gələn olmadı.

Ailəsi tabutun üstünə türk bayrağı örtdü.

Cənazə namazı Teşvikiye məscidində qılındı, Edirnəkapı şəhidlər xiyabanında torpağa tapşırıldı.

***

***Ziraat Bankı və Osmanlı Bankında iki kassası vardı.***

***Bu kassalar vəfatından 4 il sonra açıldı.***

***Cümhuriyyət tarixinə aid sənədlər mirasçıları tərəfindən Türk Tarix Qurumuna verildi.***

***Şəxsi əşyalarının içindən nikah üzüyü tapıldı. Platindən idi. İçində Osmanlı dilində "Lətifə 1939" yazılmışdı.***

***

Üzüyün yanında Mustafa Kamalın nikah ərəfəsində mehr-i muaccel (indiki təzminat) olaraq verdiyi 10 gümüş pul var idi.

Üzüklə gümüş pulu çəhrayı bir paketə qoyub zinət əşyaları qutusuna qoymuş, qutunu da tülbəndlə bağlamışdı.

***

Atatürk vəfat edəndə də xüsusi əşyaları arasında incə platindən hazırlanmış bir üzük tapıldı, Osmanlı dilində "Qazi M. Kamal 1939" yazılmışdı.

***

**Hər ikisinin də ömürlərinin sonuna kimi saxladıqları nişan üzükləri İsmət İnönünün hədiyyəsi idi, Lozandan gətirilmişdi.**

***

Lətifə sərvət dəyərində zinət əşyalarına sahib idi. İstanbuldakı mənzili, İzmirdəki malikanəsi, sahələri vardı. Hamısı atasından miras qalmışdı.

***

***İllər sonra 2015-ci ildə... Avropanın ən köklü universitetlərindən olan Vyana Universiteti "cinsi bərabərlik" mövzusu ilə beynəlxalq sərgi açdı.***

***Dünya səviyyəsində dəyərləndirmə aparıldı, dünya qadınlarına tarix boyunca "rol model" olmuş 36 qadın seçildi.***

***Büstləri universitetin girişinə yerləşdirildi.***

***

Onlardan biri də Lətifə idi.

***

**Mecdelli Meryem, Marie Curie, Mileva Einstein, Frida Kahlo, Elisabeth Oppenheim, Sylvia Plath, Virginia Woolf, Josephine Baker, Maria Callas, Sara Baartman, Ana Mendieta, Hapşetsut, Janis Joplin, Sappho, Maria Montessori, Papstin Johanna, Gertrude Stein, Susan Sontag...**

**Lətifə bu qadınların arasında idi.**

**Dünyanın hörmət etdiyi 36 qadın...**

***

Və bu il 9 sentyabr ildönümündə Lətifədən yazmaq istədim.

***

***İşğal edildiyi gün bir millətin qurtuluş savaşından danışan, işğaldan azad olunduğu gün o millətin qurtuluş savaşını sona çatdıran, dünyada bu xüsusiyyətə sahib ilk və tək şəhərimizdir İzmir.***

***Amma eyni zamanda Mustafa Kamala belə boyun əyməyən, azad qadınların şəhəridir.***

***

9 sentyabr həm də azadlıq ruhu Lətifəni simvolizə edir.

***

**9 sentyabr milli mübarizə zəfərindən ibarət deyil.**

**Əsas etibarilə....**

**"Azadlıq mənim xarakterimdir" deyən Mustafa Kamalaın azad xarakterli sevgisidir.**

**Lətifənin həyatdakı duruşudur 9 sentyabr.**

**Dilimizə uyğunlaşdıran**
**Eminquey**



FAİQ QİSMƏTOĞLU,
faiqqismetoqlu@box.az

# ASAN İŞİMİZİ ÇƏTİNƏ SALANLAR

... Bizim həmişə asan düzələn işimizi bəzi məmurlar çətinə salıblar. Bu da ondan ibarət olub ki, işin düzəlməsi üçün gərək bir "şirinlik" verəsən. Və o "şirinliyi" verməyənə qədər səni həftələrlə, aylarla və bəzən də illərlə müdir qapısı qarşısında süründürəcəklər. Hər gün o qapıya getməlisən, hər gün arxasınca düşüb həll edəcəyin işin nəticəsini gözləməlisən və sonra da daşdan səs çıxacaq ki, həmin bürokratdan xəbər çıxmayacaq. Ta o vaxta qədər ki, səndən istədiyini qoparıb alsınlar.

Allah hər adamın yolunu insafını, vicdanını itirmiş bürokratik məmurların kabinetinə salmasın. Çünki bu cür süründürməçi, insanları incidən bürokratik məmurlar səhər işə gələndə xalqa xidmət haqqında yox, nə qədər pul qazanacaqları barəsində düşünürlər. Onlar qəbula gələn insanları nəinki dinləyir, dərdinə əlac qılır, əksinə, əzab-əziyyət verməklə həftələrlə, aylarla qapı ağzında gözlətməklə bundan zövq alırlar. Tay fikirləşmirlər ki, o qapının ağzında duranları da ana doğub, o qapının ağzında dayanan da insandı və onun da Allahı var. Qətiyyən, belə məmurlar qapılar ağzında duran insanlar barəsində düşünməzlər. Düşündükləri o olar ki, görək o qapının ağzında duran adamlardan nə qədər pul alacaqlar?

Bir vaxtlar kimsə mənzil alanda və order əldə edəndə mənzilə qeydiyyata düşmək üçün olmazın əziyyəti ilə üzləşirdi. Polis idarələrində fəaliyyət göstərən pasport-masa rəisləri onların başına olmazın oyununu açırdılar. Hətta mənim özüm 1988-ci ildə aldığımız kooperativ mənzilə ailəlikcə qeydiyyata düşmək üçün illərlə süründürüldüm. Nə var, nə var, onların dediyi pulu verə bilmirdik. Bəhanə edirdilər ki, filan sənəd lazımdı, bəhmən sənəd tələb olunur. Biz də o filan sənədi, bəhmən sənədi aparırdıq, yenə iş düzəlmirdi ki, düzəlmirdi. Axır ki, Asan xidmət fəaliyyət göstərəndən sonra çox asanlıqla evimizə qeydiyyata düşdük. Və bu Asan Xidməti yaradanın ölənlərinə rəhmət oxuduq. Hələ görməmişəm ki, bir adam Asan Xidmətə getsin və orda işi düzəlməsin, narazı olsun. Heç uzağa getməyək, xaricə getmək üçün vətəndaşlıq pasportu alanda adam nə qədər süründürməçilik ilə üzləşirdi. Ya filan qədər pul verməliydin, ya da boynunu büküb günlərlə, aylarla durmalıydın "ovir" deyilən yerin qabağında. Şükürlər olsun ki, bu məsələlər də Asan Xidmətə veriləndən sonra o pasportu almaq üçün nə vaxt keçirirsən, nə də əsəbləşirsən. Asan xidmətə gedib qısa zaman kəsiyində rüsum ödəyib həmin işləri həll edirsən.

Bu gün də xüsusən Bakı şəhərində qediyyat idarələrinə yolun düşəndə istər-istəməz çətinliklə üzləşirsən. Yenə sənə deyirlər ki, lazım oldu-olmadı, filan sənədləri tap, gətir. Sən də filan sənədləri tapıb gətirirsən, ona da bir əmma, qulp qoyurlar. Deyirlər ki, yox ey, sənədlər düz deyil. Sənin də bunu sübut etməyə nə fiziki dözümün çatır, nə də səbrin. Axırda bir başqa yol fikirləşib ona uyğun hərəkət edirsən.

Ümumiyyətlə, bir çox dövlət idarələrində hər hansı bir arayışı, sənədi almaq üçün olmazın əziyyəti ilə üzləşməlisən. Hansı ki, həmin idarədə çalışan hər hansı məmurun vəzifə borcudur ki, bu arayışı və sənədi hazırlayıb sənə versin. Onlar isə müxtəlif bəhanələr gətirib onu sənə vermək istəmirlər. Ta o vaxta kimi ki, istədiyini səndən alsın. Xüsusən də Bakı şəhərindəki qeydiyyat şöbələrində bu cür bürokratik anlara daha tez-tez rast gəlmək mümkündür. Bir dəfə qeydiyyat şöbəsinə işimiz düşmüşdü. Orda çalışan bir məmur xanım yaşlı kişiyə müraciəti ilə bağlı izahat verirdi. Həmin kişi də məsələni çox çətinliklə anlayırdı. Axırda xanım əsəbləşib dedi ki, mən sənə Azərbaycan dilində deyirəm, filan sənədləri də gətir. Çox təəssüf ki, xanım axıra qədər həmin məsələni o kişinin diqqətinə çatdırmadı. Kişini də soyuq tər basdı, nə deyildiyini bilmədi və ordan çıxıb getdi.

Ölkə Prezidenti cənab İlham Əliyev dəfələrlə öz çıxışında qeyd edib ki, mən bu xalqın bir nömrəli xidmətçisiyəm. Başqa vəzifəli şəxslər də bu xalqın xidmətçisidir. Amma çox təəssüf ki, müəyyən vəzifələrdə çalışan bəzi bürokrat məmurlar xalqa xidmət etməyi özlərinə sığışdırmırlar. Yüz bəhanələrlə xalqdan pul qoparmağa çalışırlar. Bu isə birmənalı olaraq müxtəlif idarələrə, nazirliklərə və qeydiyyat şöbələrinə işi düşən insanları çox narahat edir və narazı salır. Ən azından ona görə ki, çoxlu sayda insanlar həmin ünvanlarda süründürməçilik və haqsızlıqla üzləşirlər.

Nə vaxta qədər ki, o xidmət sahələri Asan Xidmətə verilməyib, bu cür neqativ hallar və süründürməçilik davam edəcək. Yaxşı olar ki, əhalinin ən çox üz tutduğu və müraciət etdiyi notariar kontorları və qeydiyyat şöbələri Asan Xidmətə verilsin. Çünki Asan Xidmətə bu dediyimiz qurumlar verilsə, insanlar nə bu qədər bürokratiya ilə üzləşərlər, nə vaxt itirərlər, nə də əsəbləşərlər. Reallıq isə bundan ibarətdir ki, bu gün məmləkətimizdə adi bir arayış üçün nazirliklər, komitələr və eləcə də qeydiyyat şöbələri əhalini get-gələ salır, incidir və onların əsəbləri ilə oynayırlar.

İllah da ki, savadsız adamların işi bu qurumlara düşəndə onlar daha ağır çətinliklə üzləşirlər, get-gələ salınır və axırda da çıxılmaz vəziyyətdə qalırlar. Bürokratlar, süründürməçilər zamanından və məkanından asılı olmayaraq, həmişə belə olublar: onlar aylarla, illərlə insanları qapı arxasında saxlayıblar, onların əsəbləri ilə oynaylıblar və axırda da istədiyini alandan sonra bu işə razılıq veriblər. Və başqa sözlə demiş olsaq, bəzi vicdanını itirmiş məmurlar bizim asan işimizi həmişə dolaşığa, çətinə, düyünə salıblar. Sonra da "şirinlik" alıb o düyünü açıblar. Guya kişinin oğlanları çox yaxşı bir iş görüblər.

Bu millətin, bu xalqın, bu insanların belə bürokrat məmurlardan canını qurtarmağın yeganə bir çıxış yolu var: o çıxış yolu da ondan ibarətdir ki, həmin qurumların səlahiyyətləri qısa zaman kəsiyində onlardan alınıb Asan Xidmətə verilsin və asan xidmətlə də bu yazıq camaatın işi belə asanlıqla həll olunsun. Yəqin ki, inşallah, elə belə də olar!..

# ƏRDOĞAN MAKRONA DEDİ Kİ, SƏN SUS

**Fransa prezidenti Emmanuel Makron Yunanıstanla Türkiyə arasında Aralıq dənizinin şərqindəki gərginliklə əlaqəli açıqlamalar verərək Avropa ölkələrini Türkiyəyə qarşı bir olmağa çağırıb.**



Makron açıqlamasında ***"Biz avropalılar Ərdoğana qarşı möhkəm və güclü olmalıyıq. Gərginliyi artırmaqdan çəkinmək istəyirik, amma Türkiyə hökuməti bəzi bölgələrdə niyyətini aydınlaşdırmalıdır. Bizim problemimiz Türk xalqı ilə deyil, Ərdoğanladır. Avropa birləşərək Türkiyə ilə bağlı daha aydın və vahid mövqedə olmalıdır "*** - deyə bildirib.

Makronun bu açıqlamalarına Türkiyədən cavab gecikməyib. ***"Fransa prezidenti fərdi və millətçi mövqeyi ilə gərginliyə təşviq edir, Avropa və Aİ-nin (Avropa İttifaqı) böyük maraqlarını riskə atır. Aralıq dənizindəki və ya başqa bir coğrafiyada olan ölkənin dəniz hüdudlarını təyin etməyə Makronun ixtiyarı yoxdur. Biz Makronun aciz vəziyyətini fransız xalqının mülahizəsinə buraxırıq"***, - deyə Xarici İşlər Nazirliyi Fransa prezidentinin açıqlamasına öz mövqeyini bildirib.

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın sözçüsü İbrahim Kalın isə Ərdoğanı hədəfə alan Makrona bir fotoqrafla və tək bir cümlə ilə cavab verib: ***"Sözü uzadıb özümüzü yormayaq"***.

İbrahim Kalının paylaşdığı bu foto keçən yay Yaponiyada təşkil edilən G-20 zirvəsində çəkilib. Prezident Ərdoğan, o fotoşəkil çəkilən anda Makronun çiyninə əlini qoyaraq Kipr məsələsi ilə bağlı demişdi: ***"Kipr məsələsi barədə sən bir dəfə belə danışa bilməzsən. Sənin Kiprlə uzaqdan, yaxından heç bir əlaqən yoxdur. Burada mən danışa bilərəm, Yunanıstan və İngiltərə. Hətta Avropa Birliyi belə danışa bilər, amma sən danışa bilməzsən".***

**MEHRİBAN CƏFƏROVA**

# AzTU-da struktur dəyişiklikləri edilib

**Sentyabrın 10-da Azərbaycan Texniki Universitetinin (AzTU) Elmi Şurasının növbəti onlayn iclası keçirilib.**

İclasın gündəliyinə uyğun olaraq universitetin akademik və inzibati strukturunda bəzi dəyişikliklər edilib.



Belə ki, Beynəlxalq əlaqələr şöbəsi ləğv edilib. Onun bazasında 2 şöbə - Əcnəbi tələbələrlə iş və Xarici əlaqələr şöbəsi yaradılıb, həmçinin AzTU-nun strukturunda müstəqil Dil Mərkəzi təşkil olunub.

Müdafiə sənayesi üçün mühəndis hazırlığına yüksək tələbin qarşılanması məqsədilə Xüsusi texnika və texnologiya fakültəsinin yenidən qurulmasına qərar verilib. Belə ki, Xarici dillər kafedrası bu fakültənin strukturundan çıxarılaraq İqtisadiyyat və idarəetmə fakültəsinin tərkibinə daxil edilib.

Yeni tədris proqramlarına uyğun tələblər nəzərə alınaraq Azərbaycan dili və pedaqogika, İctimai fənlər kafedralarında tədrisin yenidən təşkil edilməsinə qərar verilib.

AzTU-da ingilis dili fənninin tədrisinin yenidən təşkil olunması üçün Türkiyənin OSTİM Texniki Universiteti ilə qarşılıqlı əməkdaşlığın qurulması İqtisadiyyat və idarəetmə fakültəsinin dekanına tapşırılıb.

**Yeni təhsil ilində tədris prosesinin təşkili, idarə edilməsi və nəzarətin həyata keçirilməsi üçün Elmi Şuranın iclasında geniş müzakirələr aparılıb və əhəmiyyətli qərarlar qəbul edilib.**

**Sübhan**

## "Nankor olduqlarını bilə-bilə niyə onları ətrafına yığırdın?!"



**Prezident Administrasiyasının sabiq rəhbəri, AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyevin "Təzadlar"a açıqlaması növbəti dəfə müzakirələrə səbəb olub. Akademik dövri mətbuatda bəzi şəxslərin ona böhtan atdığını qeyd edərək, onları hədələyib: "Məni əsassız tənqidlər belə o dərəcədə narahat etmir, lakin məni ən çox narahat edən yaxşılıq göstərdiklərimin, həyatını belə xilas etdiklərimin, ayağa qaldırdıqlarımın, məni görəndə ikiqat baş əyənlərin… bu gün mənə düşmən kəsilməsidir- nankorluğudur… Əgər onların barəsində əlimdə olan faktları ortaya qoysam, onlar gərək respublikadan baş götürüb qaçalar, aləm bir-birinə dəyər".**

Ramiz Mehdiyev adlarını çəkmədiyi həmin şəxsləri məhkəməyə verəcəyini bildirib: "Onlardan bəzilərini isə məhkəməyə verəcəyəm. Yazdıqları yalanlara, olmayan hadisələri uydurub söylədiklərinə görə yox, onların nankor olduqlarını cəmiyyətə sübut etmək üçün". Prezident katibliyinin keçmiş rəhbəri, politoloq Eldar Namazov Modern.az-a açıqlamasında Ramiz Mehdiyevin fikirlərinə münasibət bildirib. Onun sözlərinə görə, Ramiz Mehdiyevin hər yeni açıqlaması onu daha da pis vəziyyətə qoyur:

"Şübhə etmirəm ki, vaxtilə ona xidmət edən, yaxın olan bəzi adamlar indi Ramiz Mehdiyevə qarşı çıxıblar. Onlar da öz sözlərini söyləyirlər. Ramiz Mehdiyevin bəyanatından sonra sual yaranır: əgər sən bilirdinsə, bu adamların belə günahları var, əlində olan materialları açsan bunlar ölkədən qaçarlar, o zaman niyə zamanında bunlara himayədarlıq edirdin? Bu qədər nankorluq etdiklərini bilə-bilə niyə onları qoruyurdun, önə çəkirdin, öz ətrafına yığırdın?!"

Eldar Namazov deyib Ramiz Mehdiyev hər şeyə hazır olmalı idi:

**"Deməli, nankor tipli insanlardan öz məqsədlərin üçün istifadə etməyə çalışırdın. Axı başqasına dönük çıxanları ətrafınıza yığanda bir gün onların sizə də dönük çıxacağını bilməliydiniz. Elə adamlar var ki, həmişə Ramiz Mehdiyevə yaxınlığı ilə seçiliblər. Mehdiyev günahlarını ört-basdır etmək üçün onlara köməklik edib. Allah Heydər Əliyevə rəhmət eləsin. Bu mənzərəni görsəydi Ramiz Mehdiyevdən soruşardı: "Mənə qarşı nankorluq edənləri niyə müdafiə edib himayənə almısan, önə çəkmisən ki, indi də onlar sənin üzünə durublar?!.". Ona görə də Ramiz Mehdiyev həmin adaların nankor olduğunu bilə-bilə onları himayə edib. Bu gün isə ona qarşı çıxdıqları üçün onlara nankor deyir".**

## Seyran Səxavət Çingiz Abdullayevi müdafiə etdi

### *"O xalqını sevərəkdən belə deyib"*



**"Çingiz Abdullayevin fikirləri son dərəcə normal, yana-yana deyilən, millətini, xalqını sevməkdən irəli gələn münasibətdir".**

Bu sözləri Modern.az-a xalq yazıçısı Çingiz Abdullayevin azərbaycanlılar və Azərbaycan dili haqqında müzakirələrə səbəb olan statusu haqqında danışarkən yazıçı Seyran Səxavət deyib.

Onun sözlərinə görə, Çingiz Abdullayev fikirlərində xalqını təhqir etməyib: "O demir ki, hörmətli cahil Azərbaycan xalqı... O deyir, "hörmətli yerli cahillər". Bunu niyə yozurlar ki, guya bütün xalqı təhqir edib? Bununla da razıyam ki, Prezidentimizlə Nikol Paşinyanı müqayisə edib, üstünlüyümüzü göstərib. Bizə hansı ixtisaslar, dillər, kimlər lazımdır, qeyd edib. Mən onu tam dəstəkləyirəm. O, xalqını sevərəkdən belə deyib. Belə bir məşhur deyim var: sən 5 dil bilirsənsə, deməli 5 adama bərabərsən. Bunun nəyi pisdir ki? Amma dil öyrənmək hər şeyi həll etmir.

Məsələn, rus dilini bilmək o demək deyil ki, mənim xalqımı dünya tanıyacaq. Amma başqa millətlərlə ünsiyyətə girməyin birinci şərti onların dilini bilməkdir. Ümumi səviyyə olmalıdır, dünyagörüşü olmalıdır, bu isə dil bilməkdən keçir. Çingiz Abdullayev də qeyd edir ki, Azərbaycan dilini, ana dilini bilmək mütləqdir və bu müzakirə belə olunmamalıdır. Bu çox normal yanaşmadır".

Seyfəddin Altaylı,
Ankara, altaylı_s@yahoo.com

# MƏNDƏN DEYİLSƏN!



*"Kölgədə yaşayanlar günəşi görə bilməzlər"*

*Cənab Şəhabəddin*

İnsanlar dünyaya ayaq qoyandan bəri bir-biriylə mübarizədədir. Yəni Habil-Qabil qısqanclığı əzəldən indiyə kimi davam edib və bundan sonra da edəcəkdir.

Tövrata görə, Qabil Adəm peyğəmbərin ilk, Habil isə ikinci oğludur. Habil çobanlıq etmiş, Qabil isə əkin-biçinlə məşğul olmuşdur. Qabil əkib-becərdiyi torpağın məhsulundan, Habil də otardığı qoyunların dünyaya gələn ilk quzusunu Allaha nəzir kimi təqdim etmişdir. Allah, Habilinkini qəbul etmiş, ancaq Qabilinkinə fikir verməmişdir, səbəbi də birinin müttəqi digərinin də olmaması məsələsidir. Habil Tanrıya nə qədər yaxınsa, Qabil də o qədər uzaq olduğundan qurbanı qəbul olunmamışdır. Bundan qəzəblənən Qabil Tanrının xəbərdarlığına baxmayaraq, qardaşı Habili öldürmüşdür. Tanrı da Qabilin torpaq tərəfindən lənətləndiyini və dünyada avaralanaraq yaşayacağını bildirmiş, lakin işlədiyi cinayət səbəbiylə öldürülməyəcəyini də bildirmişdir. O da ömrünün axırına kimi Ədənin şərq hissəsində yerləşən Nod bölgəsində yaşamışdır. Yəhudilərə görə Qabil ilə Habilin arasında yaranan problemə torpaq səbəb olmuşdur. Yəni onlara görə Qabil materialist anlayışdan çıxış etmişdir.

Qurani Kərimin Maidə surəsində (27-31-ə kimi olan ayətlər) bu olay ad çəkilmədən bu cür nəql edilmişdir: ”Onlara Adəmin iki oğlu haqdakı xəbəri oxu. Onların hər biri qurban təqdim etmişdi, birininki qəbul, digərininki isə qəbul edilməmişdi. Qurbanı qəbul olunmayan qardaşına Səni öldürəcəyəm demişdi. O da qardaşına Allah yalnızca müttəqi olanların qurbanını qəbul edər. And olsun, sən məni öldürmək üçün əlini qaldırsan da, mən səni öldürə bilmərəm. Mən aləmlərin Rəbbindən qorxuram. Arzum budur ki, mənim günahımı da özününküylə birlikdə götürəsən və cəhənnəm əhlindən olasan. Zalımların cəzası budur dedi. Qabil nəfsinə uyub qardaşını öldürdü, beləliklə, ziyan çəkənlərdən oldu. O anda Tanrı bir qarğa yolladı və qarğa qardaşının meyidini nə cür basdıracağını yeri eşələyərək ona göstərdi. O da özözünə, əfsuslar olsun ki, mənə bu qarğa qədər belə olmaqdan, qardaşımın meyidini torpağa tapşırmaqdan acizəmmi?- dedi. Axırda peşimançılıq çəkənlərdən oldu.”

Deməli, insanlar arasındakı mübarizənin özülü qısqanclıq üstündə yüksəlmişdir. Canlı varlıqların qısqanclığı fərqlidir. İnsanın qısqanclığının özülündə həm bioloji, həm də sosioloji prinsiplər hakim olsa da, heyvanlar arasındakı qısqanclıq sahib olma arzusundan yaranmışdır və instinkt xarakterlidir.

Qısqanclıq hər bir insanın yaradılışında mövcuddur, ancaq onun ifrata çatdırılması ən öncə o duyğunu yaşayan insana ziyan vurar və daxilən onun axırına çıxar.

Əgər bir insan uğurlu, onun sevincinə, xoşbəxtliyinə səbəb olacaq şeylərə malik deyilsə və bu özgələrində vardırsa, istər-istəməz onda qısqanclıq duyğuları yaranır və bəzən bu duyğu insanları kin-küdurətə, zorbalığa, qəddarlığa, zalımlığa, Qabil örnəyində olduğu kimi, qatilliyə kimi aparıb çıxarır. Müqəddəs kitabımızda qısqanclıqla bağlı bir çox ayətlər vardır. Bəqərə 109, Nisa 54, Maidə 27,28, 29,30,31, Fələq 5 kimi surələrin ayətləri buna örnəkdir. Peyğəmbərimiz Hz. Məhəmməd ”Həsəddən uzaq durun, çünki o ataş ağacı nə cür yandırıb məhv edirsə, qısqanclıq da bütün xeyir işlərin axırına o cür çıxar” - deyib.

Mərhum şairimiz İmadəddin Nəsiminin cahanı özünə sığdıran, ancaq cahana sığmayan söyləmi mərhum Məhəmməd İqbalda, ”İnsana sığa bilən kainat, kainata sığa bilməyən isə insandır” şəklində öz əksini tapıb. Bu söyləmlər insanın digər varlıqlardan fərqli yaradılmasını bürüzə verən idrakdan yaranmışdır.

Tanrı insanı yaratdıqdan sonra ”Əhsən mənə ki, belə bir varlıq yaratdım” - deyə özünü öyübsə, deməli, insan Tanrının öydüyü bir varlıq kimi öz məsuliyyətini daşımalı, yaradılışının qayəsini dərk etməlidir.

Tarixin müəyyən zamanlarına üz tutduğumuz zaman qısqanclıqdan yaranan siyasətlərin millətimizə nə böyük zərbələr endirdiyinin şahidi oluruq. Hun dövlətində Huhanyəh böyük, Çiçi isə kiçik qardaşdı, ancaq Çiçi xaqan olmağa daha layiqli idi. Toplanan toyda qurultay Çiçini xaqan seçmiş, Huhanyəh isə qısqanclıq ucbatından bunu qəbul etməyərək öz tərəfdarlarını götürüb dünənə kimi düşmən bildikləri və tarix boyu vuruşduqları Çin ölkəsinə üz tutmuşdur. İllər uzunu orda yaşamış, gücünü günü-gündən möhkəmləndirmiş və bir gün çindən də hərbi qüvvə götürüb qardaşı Çiçinin üstünə yeriyərək onu məğlub etmiş, oğul uşaqlarıyla birlikdə qətlə yetirmiş və Hun dövlətinin axırına çıxaraq onu Çinin vassal dövlətinə çevirmişdir.

Deməli adi insanların qısqanclığı ilə tarixi şəxsiyyətlərin qısqanclığı arasında bir xalqın və bir şəxsin taleinin həlli məsələsi dayanır.

Dövləti idarə edənlərdə qısqanclıqdan törəyən ”Məndən deyilsən!” anlayışının hakim olması qaranlığın başladığı astanadır. Bu astanadan sonrası isə fəlakətlərlə dolu bir yoldur. Ona görə dövləti idarə edənlər mənsubu olduqları partiya və ya ideologiyaya aidiyyətin əsiri olmayıb birinci növbədə xalqı, dövləti və vətəni düşünməyə məhkumdurlar.

İslam dünyasına baxdığımız zaman qısqanclığın bu dünyanı nə cür yazıq, çarəsiz, bədbəxt bir hala gətirdiyinin şahidi oluruq. Bugün islam dünyası vardır sözünü təəssüflər olsun ki, işlədə bilmərik, çünki belə bir dünyanın adı var ancaq özü yoxdur. İki yüz milyonluq ərəb dünyası səkkiz milyonluq İsrailin qarşısında zəlil olubdursa, onun səbəblərindən biri də qısqanclığın səbəb olduğu tayfaçılıq anlayışıdır.

Gəlin bir də Türk xalqlarına və dövlətlərinə nəzər salaq.

Əziz oxucu! Dünyanın hansı xristian ölkəsində bir dövlətin qurucu atası Türkiyədə olduğu kimi, ziyalılar, siyasətçilər və ya hakimiyyətə yiyələnənlər tərəfindən təhqir edilir? Xristian ölkələrinin hansında dövlətin qurucu atasının adı tarixdən silinməyə çalışılıb, adına qadağalar qoyulub!? Bax, dövlətlərimizin qarşısındakı böyük problemlərimizdən biri də budur.

”Məndən deyilsənsə, unudulmağa məhkumsan!” anlayışı zülmətin başladığı yerdir.

Bu qaranlıq yolda yeriyənlər bilmirlərmi mən 1500 il sonra Çiçi adlı babamı hörmətlə yad edib Huhanyəh adlı babamı lənətləyirəmsə, deməli, tarixi saxtalaşdırmaq və pozmaq qeyri-mümkündür... Bunun başa düşülməməsi diplomlu cəhalətin səbəb olduğu korluqdan özgə nədir bəs?!



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# İSTƏK

## Problemsizlik arzusu

**Bütün hallarda bir gerçək var - onu heç kim dana bilməz. Bu gerçək də ondan ibarətdir ki, insan varsa, insan yaşayırsa, deməli, problem də var və bu problem də hansı yolla olur-olsun çözülməlidir. Amma...**

Amma bu çözülmənin özü də bəzən əlavə problem yaradır. Belə ki, çözmək üçün vaxt, maddi imkan, fiziki güc və təbii ki, həm də şərait lazımdı. Elə buradaca əlimi ürəyimin üstünə qoyub etiraf edirəm ki, yalnız saydığım şərtlərdən biri mənim üçün əl çatandı. O da vaxtdı. Necə deyərlər, nə qədər sürətlə qaçsa da, vaxt sarıdan bəxtim gətirib. Yəni bəxtə qarşı naşükürlük indi bu mənada ağlımın ucuna da gəlmir. Əgər gəlsə, onda qarşımı kəsib deyərlər ki, bu boyda gen-bol vaxtın var, otur, məsələni çöz. Mən də bu haqlı iradın qarşısında yalnız və yalnız susmalı olacam. Məhz belə olmasını istəmədiyim üçün hər şeyi, hətta ömrümü də zamanın axarına tapşırmışam. Günlər, anlar ötüb gedir, ömür də onun içində. Və bu gedən ömürdən nə qalacaq, necə qalacaq, onu həyat göstərər. Necə deyərlər, yaşayarıq, görərik.

Bəli, deyəcəksiniz ki, yaşamaq hansı ölçüdə, hansı anlamdadı? Mən də cavab verməyəcəm. Ona görə ki, yaşamaq hər kəsin öz haqqı olmaqla bahəm, həm də öz arşınına görədi. Mənim isə arşınım elə xəlbirim kimi öz işini görüb bitiribdi. Yerdə qalıb saymaq. Darıxanda o sayla məşğul oluram. Saydıqca da görürəm ki, nələr itirmişəm, nələri güdaza vermişəm, nələr qaçırmışam və nələrə də hazır olmamışam. Üstəlik, bunların içərisində necə təklənmişəm, necə ağrımışam, necə üzülmüşəm. Onda üzümü Allaha və sənə tutmuşam, onda mömin də olmuşam, asi də. Elə bu yazını diqtə etdiyim anda da içimdəki həmin o hisslər misralanıb şeirə çevrilib. Yazmışam ki:

*Kökləyir süzülən baxışlarıyla*
*Dizinin üstündə yar ürəyimi...*
*Edir,həsrət vuran naxışlarıyla -*
*Pərdəsi dəyişən tar, ürəyimi...*

*Mən ki, öyrənmişəm şehin dilin də*
*Ən həzin, ən xəfif mehin dilin də...*
*Amma aradakı "eh"in dilin də -*
*Üşüdür bu şaxta, qar, ürəyimi...*

*Suallar dolu tək ələnir, yağır*
*Sualmı, yoxsa ki, cavabmı ağır?*
*Harda olduğunu bilməkçün axır -*
*Götür, öz əlinlə yar, ürəyimi...*

*Çiçək açılıbsa solacaq deyib*
*Bütün olmuşalara olacaq deyib...*
*Özün öz ruhuna ol, ocaq! - deyib -*
*Sıxma bu xal düşmüş nar, ürəyimi!*

*Ruhun pıçıltısın telin, demirsə*
*Vücudun istəyin əlin, demirsə...*
*Gözün söylədiyin dilin demirsə -*
*Eləmə, bu qədər xar, ürəyimi...*

***

Günlərin axarını izləyə-izləyə qocalıq yükünə tərəf əyilirəm. Düzdü, bu yük o qədər də ağır deyil. Çünki həyatın qarşıya qoyduğu saysız-hesabsız suallar, gündəlik məsələlər və onların barəsində düşünmək adamı o yükə diqqət ayırmağa qoymur. Özün öz yükünü çəkmək istəyini də, məsuliyyətini də beləcə, qatıb qarışdırırsan birbirinə. Hələ bu məqamda əlavə qohumun-qonşunun, dostun, tanışın gözlənilməz arzuları, istəkləri, umacaqları, hətta ərkləri də gəlib qarışır həmin o əvvlədə dediklərimə. Və beləcə, anlaşılmaz bir mənzərə yaranır, ovqat ortaya çıxır.

Və sən də itib-batırsan onun içərisində. Nəticədə yenə yazının əvvəlində dediyim hər şeyi zamanın axarına buraxmaq ipucu keçir adamın əlinə. Əslində bu, şəxsən mənim üçün bir xilas olur, qurtuluram elə bil özüm-özümdən.

Həmin qurtuluş da bir kənara çəkilməyə, bir kitabla, bir şəkillə, bir xatirəylə baş-başa qalmağa qapı açır. Mən də keçirəm o qapıdan, başlayıram daha çox o şəkillə, o xatirəylə danışmağa. Səsimi isə bir o xatirə, bir o şəkil, bir Allah, bir sən, bir də özüm eşidirəm.

Çünki bu, ruhumun səsidi. Ruhun səsi də yalnız onu duyan üçün, onu gözləyən üçün, onu dinləmək istəyən üçün maraqlı və gərəkli olur, həm də eşidilir. Necə ki, mən sıxılan buluda baxıb etdiyim xəyalları, bənzətdiyim anları, mənzərəli sözə çevirirəm, yaddaşıma hopdururam. Və sonra da başlayıram misralamağa. Həmin misralar da yenə şəkillərə, Allaha və sənə oxunur. Çünki bu amacla, bu məqsədlə yazılır misralarım...

*Bulud sıxır pəncərəmə gözlərin*
*Səbrim çatmır damcıları saymağa...*
*Cilalayıb mən ruhumu sözlərin -*
*Çıxarıram göy üzünə - yaylağa...*

*Yağış səsi bu halıma züy tutur*
*Ovsunlayıb elə bil ki, təbimi...*
*Ətrafımı bir qəribə küy tutur -*
*Vərəqləyir ılıq bir əl qəlbimi...*

*Körpü olur ilkdən sona xəyalım*
*Keçirirəm o körpüdən cismimi...*
*Sən gələndən ,ay ayağı sayalım -*
*Ümid! - dedim sevgilimə ismimi...*

*Bu sıxılan buludları sərməyə*
*Pəncərəmi, qollarımı açıram...*
*Onun üçün topa bulud dərməyə -*
*Mən içimdə - üzü göyə qaçıram...*

***

Hər bir istəyin təkcə konkret ünvanı, məqsədi yox, həm də onun ifadə edilmək müstəvisi olmalıdı. Yəni nəyə can atırsansa, nəyi əldə etmək istəyirsənsə, onu konkret bir məkanda, bir nöqtədə özün üçün xəyalən qurmalısan, yaratmalısan, onunla ruhi bir təmasın olmalıdı.

Əgər təmasına səndən qopan impulslara cavab gələrsə, onda həmin o istəyə, o məqsədə doğru daha inamlı hərəkət etmək labüddür. Məhz bundan sonra adamın içində də inam, qətiyyət daha fəal olur, daha çox inadkarlıq göstərir.

Əgər bu xəyali, o ruhi təmasın sənə heç nə vermirsə, onda boş-boşuna güc sərf edib, zaman itirmək ən azından ağılsızlıqdı.

Daha doğrusu, xalq şairi Səməd Vurğun demişkən, "ağılsız köpəklər ulduza hürər". Mən bu bənzətməni heç kimin boyuna biçmirəm. Sadəcə olaraq, içimdən keçdi və məqamı gəldi, ona görə də dilə gətirdim. Qaldı ki, istəyə, onda belə demək daha doğru olar: gərək istək gücünə və imkanına, xüsusilə haqqına uyğun gəlsin. Yəni haqq etdiyin nədisə, onu istəmək məncə daha ədalətli yanaşmadı.

Çox təəssüf ki, bu günün reallığı dediklərimi tamamilə alt-üst edir. Yəni həm siyasi, həm mənəvi müstəvilərdə oynanılan şahmatlar daha çox qaydasız döyüşləri xatırladır. Hər kəs hardan gəldi, necə gəldi, necə bacardı, o cür də oynayır. Bu xaotik rəqs indi "taymaut" götürmüş toylarımızı xatırladır. Gözünüzün önünə gətirin, kimsə mahnı sifariş edir, bütün toy əhli tökülür ortalığa, hər kəs öz havasını oynayır, səslənən isə sifarişçinin musiqisidi. Bundan zövq almaq özü də elə məncə zövqsüzlüyün gözəl bir göstəricisidir. Amma neyləyək ki, bütün toylardan sonra hamı bu məsələdən danışır və sonra da unudur. Növbəti toyda da yenə həmin mərəkə davam edir. Nə isə...

Söhbətin mahiyyəti ondan ibarətdir ki, şəxsən mən bu günün reallığında daha çox 3 istəyimi özümə, doğmalarıma, dostlarıma, bütövlükdə tanıdığım hər kəsə arzu etmişəm. Bu da can sağlığı, evində, ailəsində maddi-mənəvi təminat və nəhayət, özümün sonunu doğulduğum kənddə, torpaqda görməkdi.

Deyə bilərsiniz ki, bu qədər bəsit istəklə yaşamaq olar? Sizi əmin edirəm ki, bu mənim üçün heç də bəsit istək deyil. Bu, sadəcə, gücümə və haqqıma hesablanmış bir istəkdi. Ümumiyyətlə, insan yaşlandıqsa doğma torpaq, doğma ünvan onu daha çox səsləyir, daha çox özünə çəkir, uşaqlıq xatirələri daha çox yuxuya ayaq açır. Və mən də həmin o istəyimin, o xatirələrimin, o uşaqlığımın ətəyini bərk-bərk tutmuşam.

Və hətta sənin mənə etdiyin mesajı da yaddan çıxarmamışam. Sən sözarası ruhuma pıçıldadın ki:

*Bəlkə yazmayasan daha sevgini*
*Üzə "sevgimiz" yox, "sevgini" - dedi...*
*Mənim xəyal belə etmədiyim söz -*
*İçimi qurd kimi gəmirib yedi...*

*Günümün, ömrümün bu "şoku" oldu*
*Min yerdən ələndi üstümə sual...*
*Didəm qəm yatağı lilləndi, doldu -*
*Bir hind filmi idi yaşanan bu hal -*

*Bəlkə yazmayasan... yozumu sonsuz*
*Fikrin çözümünü gözlə soruşdun...*
*Belə göründü ki, illəri boşa -*
*Mən ürək əridib çənə yormuşdum...*

*Yoxsa yaşatdığın halın özü də*
*Gerçəkdən qurtulmaq, qacmaq cəhtidir?*
*Sənin söylədiyin sevgi sözü də -*
*Mənim yaşadığım eşq şəhididi!*

***

Yazımın əvvəlində vurğulamışdım ki, insan olduğu hər yerdə problem də var. Yəni problem dağın, daşın deyil, adamındı. Və bunu da daha çox adam özü yaradır. Bax, işdə də, evdə də hər dəfə məni əsəbləşdirən, özündən çıxaran dayandığım, durduğum yerdə mənə yaradılan problemlərdi. Bildi-bilmədi, haqlı-haqsız hər kəsin iddiası çevrilir problemə, durur gözümün önündə, yolumun üstündə. Mütləq yeriyəndə, hərəkət edəndə ona toxunmalısan, onun yolundan çəkilməyə vadar etməlisən. Beləcə, bir də görürsən ki, nə qədər əsəb yaşamısan, enerji itirmisən. Hansı ki, hər kəs öz işinin üstündə olsa, öz yerini bilsə, özünə aid işlə məşğul olsa, onda heç kəs əsəbləşməz, heç kəs problem yaşamaz. Amma təəssüf ki, mənim bu yazdıqlarım boşuna deyilmiş söz, boşluğa atılmış güllədi...

Bütün bunların mahiyyətinə varmaq o qədər də çətin deyil. Əgər içində iynə ucu boyda da olsa, halal, düz, insani keyfiyyət olsa, onda mənim qabartdığım məsələni çözmək su içmək qədər asan olar. Burada onu da xatırlatmaq istəyirəm ki, söhbət boğazı yaralı, sarılmış, yəni boğazı sağlam durumda olmayan adamları su içmək məsələsinə qatmıram. Sırf normal, sağlam adamları nəzərdə tuturam. Onlar da ki, elə mənim özüm durumdadı, gündədi. Deməli, qabartdığım, gündəmə gətirdiyim məsələ də havada, boşluqda qalacaqdı. Nə isə...

Hə, bu da qovduğum, ətəyindən tutub bir əlçimini sözə çevirə bildiyim zamanın beş-üç cümləlik yazısı. Mən bu yazını ümidsiz notlarla bitirmək istəmirəm. Ona görə də üzümü Allahıma və yenə də Sənə tutram. İstəyirəm sizə bəlli olan xatirələrimin ünvanından bir şeir pıçıldayam. Yazam ki:

*Saçlarında ötüb gedən ay izi*
*Silə bilmir Günəş, nə də Ay izi...*
*Varlığında hopub qalıb, say, izi -*
*Nağıl kimi oxumuşam şəklini...*

*Havalanan ruhum coşub, oynayıb*
*Nəfəs belə almağa da qoymayıb...*
*Gözlərimə köçürməkdən doymayıb -*
*Ürəyimə toxumuşam şəklini...*

*Təbəssümü, qaranlığı yaran nur*
*Pıçıldayım, sən də dinlə, xəyal qur!*
*Görərsən ki, ürəyimə yavaş vur -*
*Sındırmışam, toxumuşam - şəklini...*

*Dözümündən fərəhlənib eşqimin*
*İzinə də dəyməmişəm heç kimin!*
*Öz dünyamın, sənə bəlli köşkünün -*
*Himni kimi oxumuşam şəklini!*

**Bəli, hələlik bura qədər. Çalışaq bir-birimizə problem yaratmayaq...**

# Ramiz Mehdiyevin nəşriyyatı təxribatçı kitab çap edib

**"Yaxşı yadımdadır, 2005-ci ilin mayın 3-də tarix elmləri doktoru, AMEA-nın müxbir üzvü, Fəridə Məmmədova dövlət sifarişi və maliyyəsilə "Qafqaz Albaniyası və albanlar" əsərini yazıb adı bilinməyən nəşriyyatda nəfis tərtibatla rus dilində çap etdirmişdir. Kitabın AMEA-da müazikərələrdən keçmədən, qəfil işıq üzü görməsi tarixçi alimlərimizin hamısını şoka salmışdır". Bu barədə DİA.AZ-a araşdımaçı-jurnalist Məmməd Əhmədoğlu göndərdiyi məqaləsində qeyd edir.**

Məqalədə daha sonra bildirilir: ***"Kitabla tanışlıqdan sonra isə AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitunda sanki bir "bomba partlamışdır".*** Uzun müzakirələrdən sonra başda Tarix İnstitunun direktoru Yaqub Mahmudov olmaqla bütün kollektiv erməni işğalına birbaşa haqq qazandıran bu kitabın dərhal yayımının qrşısının alınması və müəllif F.Məmmədovanın Tarix İnstitutunun Azərbaycanın tarixi coğrafiyası şöbəsinin müdiri vəzifəsində qalıb-qalmması məsələsi müzakirəyə çıxarılmışdı. Akademik Y.Mahmudov kollektivi qrşısında öz qəti mövqeyini bildirmişdir ki, adını tarixçi qoyan Fəridə Məmmədova kimi birisinin bu institutda yeri ola bilməz. Lakin çox çəkmədən alimlərin müazakirəsi Prezident Aparatından olan zənglərə görə yarımçıq qaldı, təzyiqlər başlandı. Hətta vəziyyət o həddə çatmışdı ki, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev birbaşa AMEA-nın prezidenti Eldar Salayevə göstəriş vermişdir ki, təcili olaraq Y.Mahmudovun Tarix İnsititunun direktorluğunda qalıb-qalmaması məsələsi müzakirəyə çıxarılsın.

Lakin, oğuz-türkü olan Yaqub Mahmudov bütün təzyiqlərə baxmayarq, öz qəti mövqeyini ortaya qoyur və direktoru olduğu Tarix İnsititunun şöbə müdiri F.Məmmədovaya bir daha AMEA-nın həndəvərinə yaxınlaşmamağı tapşırır. Lakin Prezident Aparatından gələn əmrlərdən sonra da F.Məmmədova Tarix İnstitunda tutduğu vəzifədə elə bu günədək qalmaqla yanaşı mütəmadi olaraq əməkhaqqını almaqda davam etsə də, qisasçı və həddən artıq kinli bir insan olan R. Mehdiyev necə olur olsun onun siyasi tapşırığını yerinə yetirən F.Məmmədovanı şıxışdırdığına görə akademik Y.Mahmudov cəzalandırmaqda israr edir. Alimlərimiz arasında böyük hay-küyə səbəb olmuş erməni dəyirmanına su tökən bu kitaba görə iş o həddə çatır ki, PA ilə AMEA arasında şiddətlənən bu mübarizəyə son qoymaq üçün prezident İlham Əliyev məsələyə şəxsən müdaxilə edir və dərin hörmət bəslədiyi tarixçi alim Yaqub Mahmudovu müdafiə edir. Prezidentin birbaşa müdaxiləsindən sonra boz kardinal hisslərini cilovlamağa və ermənipərəst tarixçisini Milli Aviasiya Akademiyasına böyük bir vəzifəyə göndərir. Xatırladaq ki, ermənipərəst alim F.Məmmədova bu günədək MAA-dan da ştat üzrə dövlətdən əməkhaqqı alır. Halbuki, qanunvericiliyə görə eyni zamanda iki dövlət müəssisəsində ştat üzrə təmsil olunmaq və əməkhaqqı almaq qadağandır.

***"Qafqaz Albaniyası və albanlar" kitabının birbaşa sifarişçisi və onun nəfis tərtibatda rus dilində çap edilmiş nüsxələri çoxsaylı tirajla çap edildikdən sonra əsasən MDB məkanı və digər ölkələrə paylanması yenə də R.Mehdiyevin təşkilatçılığıilə həyata keçirilmişdir. Bir sözlə, akademik Ramiz Mehdiyev Erməni Qriqoryan kilsəsinin tarixən görə bilmədiyi işi tarixçi Fəridə Məmmədovanın "xüsusi əməyi" sayəsində həyata keçirmiş, nəticədə ermənilərin Azərbaycan torpaqlarının 20 faizinin işğalına tək bu kitabla haqq qazandırmışdır.***




***Bəs necə oldu ki, azərbaycanlı adı və soyadı olan Fəridə Məmmədova ermənilərin xeyrinə, azərbaycanlıların ziyanına belə bir qondarma tarixi kitabı ərsəyə gətirdi? Apardığımız araşdırmalardan bəlli olur ki, F.Məmmədova AMEA-nın kadrlar anketində özünün 1936-cı ildə ƏlÎ Bayramlı şəhərində anadan olduğu qeyd edir. Lakin Krasnodar şəhərindən olan yazıçı Valeriy Xaçturovun "Vesti" jurnalında çap edilmiş "Qde rodilas istorik Farida Mamedova?" yazısında qeyd edir ki, tarixçinin qatıldığı disputlarda onun ( F.Məmmədovanın) susqun razılığıilə əslən Şuşalı kimi təqdim edirlər. Disput zamanı "əslən Şuşa şəhərindən"olan Fəridə Məmmədova çıxışlarında qarabağ ermənilərinin konkret maraqlarını müdafiə edirdi…"***

Məsələ ilə bağlı 2014-cü ildə KİV-ə verdiyi açıqlamada Tarix İnstitutun direktor müavini t.ü.f.d.Cəbi Bəhramov tarix elmləri doktoru Fəridə Məmmədovanın Tarix İnstitutunun direktoru Yaqub Mahmudov barəsindəki ittihamlarına cavabında bəzi fikirləri təqdim edirik:

***"Tarix elmləri doktoru, AMEA-nın müxbir üzvü, dövlət mükafatı laureatı, "Şöhrət" ordenli Fəridə Məmmədova dövlət sifarişi və maliyyəsilə "Qafqaz Albaniyası və albanlar" əsərini yazıb çap etməli idi.Və əsasnaməyə uyğun olaraq dövlət sifarişi ilə yazılan kitab Tarix institutun bir neçə şöbəsində müzakirə olunandan sonra Elmi Şuraya buraxılmalı idi. Amma nədənsə F.Məmmədova bütün mövcud hüquqi normalara məhəl qoymadan Azərbaycan Respublikası qanunlarını pozaraq bu kitabı adı məlum olmayan bir nəşriyyatda gizli maliyyə hesabına kitabı çap etdirib.O bununla həm də dövlətin, xalqın əleyhinə ideoloji təxribata əl atmışdır. Əslində bu cinayətdir."***

Bununla da "Fəridə Məmmədova 2003-cü il sentyabrın 23-də Akademiyanın Rəyasət Heyətinin qərarının da əksinə gedib. Kitab ümumilikdə 798 səhifədir. Giriş səhifəsinə, üçüncü səhifəyə baxsanız görərsiniz ki, ilk cümləsi Azərbaycan xalqının təhqiri ilə başlayır. Kitabın 557, 601, 602-ci səhifələrində isə Fəridə Məmmədova XIX əsrin birinci yarısında Rusiya imperiyası tərəfindən işğal olunmuş Şimali Azərbaycan torpaqlarına köçürülən ermənilərin albanlar olduğunu iddia edir və bununla da indi Ermənistan tərəfindən həyata keçirilən işğala tarixi və hüquqi haqq qazandırmağa çalışır. Bu fikri təsdiq edən cümləni kitabın 557-ci səhifəsindən götürərək olduğu kimi sizə verirəm: "**Карабах и Сюник царское правительство усиленно стало заселять албанскими переселенцами из Персии и из Турции**" Sual verirəm, XIX əsrin birinci yarısında Qacarlar İranı və türkiyə dövlətləri ərazisində albanlar yaşayırdı yoxsa yox? Xüsusi olaraq qeyd etmək istəyirəm ki, dövrün bütün mənbələri, ilk növbədə çar Rusiyası məmurları tərəfindən tərtib edilən rəsmi sənədlər köçürülənlərin yalnız ermənilər olduğu faktını təsdiq edir. F.Məmmədova bu cümləni eyni şəkildə və məzmunda kitabın 601 və 602-ci səhifələrində də təkrarlayır. İndi özünüz deyin belə bir saxta fikiri yazan şəxsə hansı adı vermək olar? Mənim fikrimcə bütün bunlar Azərbaycan xalqına qarşı törədilən cinayət və xəyanətdir. Həmin kitabına sonunda xəritələr verib. "Böyük Ermənistanın", yəni olmayan bir qurumun, olmayan bir ərazi vahidinin xəritəsini hazırlayıb. Orda "Böyük Ermənistan" sözü Ərdəbil şəhərinin üstündən gəlib keçir düz Xəzər dənizinə qədər. Tarixin heç bir mərhələsində öz hüquqi və faktiki təsdiqini tapmayan uydurma bir "dövlətin" xəritəsini vermək və üstəlik tarixi Azərbaycan ərazilərini onun tərkibinə daxil etmək hansı məqsədi güdür? F.Məmmədova kitaba daxil etdiyi 12-ci xəritədə (Erməni yeparxiyaları VI əsrdən başlayaraq) Erməni Qriqoryan kilsəsinin görə bilmədiyi bir işi yerinə yetirib. Bütün bunlar nə üçün edilib? Düşünürəm ki, bütün bunlar F.Məmmədova tərəfindən qəsdən edilib. Bütün bunlar bu gün də davam edən erməni işğalına haqq qazandırmaq məqsədi güdür.Onun dedikləri birinci nöqtəsindən tutmuş sonuncu hərfinəcən institutun direktoruna, kollektivinə, ümumən Azərbaycan tarix elminə bir böhtandır. Yaqub Mahmudovu hamı tanıyır. Alim olan kəs öncə belə sözlər deməməlidir.

Mən 2007-ci ildə Ukraynanın paytaxtı Kiyev şəhərində keçirilən MDB Tarix İnstitutları rəhbərlərinin müşavirəsində iştirak edirdim. Bu müşavirədə ermənilərin də nümayəndələri iştirak edirdilər. Onlar "Siz nə üçün Fəridə Məmmədovanı təqib edirsiniz? Əvvəllər akademik Ziya Bünyadov və akademik İqrar Əliyev onu təqib edirdilər, indi də Yaqub Mahmudov təqib edir?" Əslində F.Məmmədova doğrusunu yazıb. O, yazır ki, biz ermənilər erməniləşmiş albanlarıq və yalnız dilimizi dəyişmişik. İndi bizə Rusiya kömək öz "torpaqlarımızı" azad etmişik və onun fikirləri bizim istəklərimizi əks etdirir sözlərini söylədilər. Sual olunur erməniləri Fəridə Məmmədova ilə bağlı narahat edən səbəb nədir? C.Bəhramov F.Məmmədovanın Aviasiya Akademiyasına kafedra müdiri təyinatını da anlamadığını qeyd edib. "Bu adam hətta tarixi faktları itirmək naminə kitabxanadan Moisey Kalankatlının "Alban tarixi" kitabını götürüb qəsdən qaytarmırdı.

F.Məmmədova 1971-ci ildə namizədlik dissertasiyası müdafiə edib. Soruşun ondan Onun elmi rəhbəri kim olub? Karen Yüzbaşyan. Bəs opponentləri? Suren Yeremyan və V.Qukasyan. Yenə sual verirəm bunu yetişdirənlər kimlərdir, onun müəllimləri kimlərdir?!"

**Biz də elə hörmətli Cəbi müəllimin Fəridə Məmmədovanın erməni elmi rəhbər və opponentləri qarşısında qazandığı "sirli uğurlar"dan sonra son 40 ildə cənab Ramiz Mehdiyevin onu bu gün də müdafiə etməsini başa düşə bilmirik. Amma onu dəqiq bilirik ki,təkcə "Qafqaz Albaniyası və albanlar" əsərini Azərbaycan dövlətinin vəsaiti hesabına çoxsaylı tirajla çap etdirib bütün dünyaya paylamaqla akademik Ramiz Mehdiyev və "Şöhrət" ordenli tarixçi Fəridə Məmmədovanın erməni xalqı qarşısında göstərdikləri "XİDMƏT" misilsizdir. Və bu ləkəni üzərimizdən götürülməsi üçün Azərbaycanın tarixçi alimlərinə bundan sonra ən azı 100 il əmək sərf etmələri lazım olacaq.**

## *"Azəriqaz" millət vəkilinə cavab verdi*



**Deputat Məşhur Məmmədov İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında qaz çəkilişi ilə bağlı müəyyən texniki şərtlərin tariflərinin yüksək olmasından danışıb: "Qaz çəkilişi ilə bağlı müəyyən texniki şərtlərin tarifləri çoxdur. Masallıda seçicilər deyir ki, bir qaz çəkilməsi üçün 16400 manat tarif qoyulub. Halbuki heç o evin qiyməti 5000 manat deyil".**

O bildirib ki, qaz çəkilişi dövlət tərəfindən edilir, yaxud kimsə bunun üçün ASAN Xidmətə müraciət edir:

"Ancaq texniki şərt üçün tarif qiymətləri yüksəkdir. Mən bununla bağlı "Azəriqaz"a bir neçə dəfə müraciət etmişəm. Həmçinin pandemiya dövrüdür. Rabitə xidmətləri ilə problem var. Uşaqlar, demək olar ki, təhsildən kənar qalır. 3 aydır, hər iki məsələylə bağlı qurumlara yazdığım məktuba nöqtə dəyişmədən eyni cavabı almışam. Məktubların heç birində dəqiq informasiya yoxdur. Bu da insanları dövlətçilikdən narazı salır. "Azəriqaz"la bağlı tariflərin dəyişilməsinə ciddi şəkildə nail olmalıyıq".

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) "Azəriqaz" İstehsalat Birliyi deputatın açıqlamasına və onun quruma müraciət etməsinə münasibət bildirib: "Hörmətli millət vəkilinin diqqətinə çatdırmaq istərdik ki, onun "Azəriqaz" İstehsalat Birliyinə etdiyi müraciət Masallı rayonu, Şərəfə kəndində yerləşən yeni yaşayış massivinin qazlaşdırılması ilə bağlı olub. Məktuba 01 sentyabr 2020-ci il tarixində yazılan cavabda açıq-aydın qeyd edilib ki, yaşayış məntəqələrinin qazlaşdırılması "Azərbaycan Respublikasının regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində Dövlət Büdcəsindən ayrılan maliyyə vəsaiti ilə mərhələli şəkildə icra olunur. Növbəti mərhələdə Masallı rayonunun təbii qazla təmin olunmayan yeni yaşayış massivlərinin, o cümlədən qeyd olunan ərazinin qazlaşdırılması üçün maliyyə vəsaiti ayrıldıqdan sonra həmin yaşayış sahəsinin qaz təminatı məsələsi mərhələli şəkildə öz həllini tapa bilər.

Deputat Məşhur Məmmədovun qaz çəkilişi üçün böyük məbləğdə vəsait tələb olunmasına dair fikirlərində "Azəriqaz" İB-nin adının hallandırılması düzgün deyil. Birlik ödənişli qaz çəkilişləri həyata keçirmir. "Asan xidmət" və "Asan Kommunal" mərkəzlərinə müraciət edən vətəndaşın qanuni icazəsi (lisenziyası) olan 100-dən çox podratçı tikinti təşkilatı ilə müqavilə bağlamaq imkanı var. Seçim onun öz öhdəsinə qalır. Vətəndaş fərdi sifarişi ilə öz vəsaiti hesabına qazlaşmanı aparır və podratçı təşkilatla onun arasındakı münasibətlərə "Azəriqaz" İB müdaxilə etmir. Bu halda Birliyimiz yalnız fərdi yaşayış evlərinin qazlaşdırılması üçün qaz sayğaclarını və texniki şərti ödənişsiz verir. Əgər millət vəkilinin dediyi kimi kimdənsə bizim əməkdaşlarımız vəsait tələb edibsə, o, bunun araşdırılması üçün müvafiq dövlət orqanlarına korrupsiya halı kimi təqdim edə bilər.

Lakin bütün bunlara baxmayaraq, abonent məmnuniyyətini daim üstün tutan Birliyimizin rəhbərliyi yuxarıda adı çəkilən yaşayış massivinin sakinləri üçün öz daxili imkanları hesabına daşıyıcı xəttin çəkilməsini həyata keçirəcək".

**Nicat Novruzoğlu**

# 80-ci dubl

## Milli televiziyamızın və kinomuzun canlı əfsanələrindən biri - Vasif Babayevin növbəti yubiley yaşına

***Onun haqqında yazmaq, danışmaq həm də milli televiziyamızın tarixindən, kinomuzun uğurlarından bəhs etməkdir. Onunla danışmaq, ünsiyyət qurmaq qədim İçərişəhərimizin mistik havasını duymaq, dolanbac küçələrini xəyalən gəzməkdir. Onunla görüşmək, söhbətləşmək qardaşı, mərhum kinorejissor, milli kinomuzda romantizmin əsasını qoyan Arif Babayevi yenidən xatırlamaq deməkdir.***

***Söhbət Xalq artisti, Azərbaycan Prezidentinin Fərdi təqaüdçüsü, Beynəlxalq Televiziya və Radio Akademiyasının akademiki, "Humay" Milli Mükafatının laureatı Vasif Babayevdən gedir. 80 yaşlı həmişəcavan Vasif Babayevdən.***

### *Televiziyamızın köməyinə gələn adam*

Vasif Babayev 1940-cı il sentyabrın 16-da İçərişəhərdə, adsanına, maddi imkanına görə sayılıb-seçilən Hacıağa kişinin ailəsində doğulub. Bu gün Mədəniyyət və İncəsənət Universiteti adlanan ali təhsil ocağını bitirib.

Milli televiziyamızın ilk rejissorlarından sayılan qardaşı Arif Babayev 1964-cü ildə onu öz çalışdığı kollektivə-Az.TV-yə gətirib, rejissor köməkçisi kimi.

Tanrının qisməti, özünün istedad və bacarığı, tükənməz enerjisi ilə Vasif müəllim uzun illər boyu Az.TV-nin köməyinə çatıb, rejissoru, baş rejissoru, bədii rəhbəri olduğu "Ana televiziya" üçün maraqlı verilişlər, proqramlar hazırlayıb, filmlər çəkib.

Azərbaycan televiziyasının sovetlər birliyi məkanında öncül mövqeyə çıxmasına ən çox zəhməti olanlardan biridir. Milli televiziyamızın tarixində bir çox ilklər məhz Vasif Babayevin adı ilə bağlıdır.

Görkəmli rejissorun çəkdiyi "Xuraman" sənədli filmi 1979-cu ildə Ümumittifaq Telefilmlər Festivalında "Baş mükafata" layiq görülüb. Bu, Azərbaycan kino tarixində qazanılan ilk "Qran-Pri" kimi tarixə düşüb.

Vasif Babayev tanınmış jurnalist Nadejda İsmayılova ilə birlikdə ötən əsrin 80-ci illərinin sonunda Dövlət Təhlükəsizlik Komitəsinin arxivlərindəki araşdırmaların nəticəsi olaraq ilk dəfə Mikayıl Müşfiq, Salman Mümtaz, Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb və digər repressiya qurbanları barədə silsilə verilişlər ərsəyə gətirib.

Görkəmli Azərbaycanlı alim və sərkərdə, sovet kosmik sənayesinin rəhbərlərindən biri, uzun illər ərzində Kosmik Uçuşlar üzrə Dövlət Komissiyasına sədrlik etmiş general Kərim Kərimovu da geniş tamaşaçı auditoriyası ilk dəfə məhz Vasif Babayevin sayəsində tanıyıb. Onun bu əfsanəvi insan haqqında çəkdiyi "Xahiş edirəm hazırlıq haqqında məlumat verin" və "Yüksəliş" filmləri böyük maraqla qarşılanıb.

Televiziya rejissorları arasında ilk dəfə Xalq artisti fəxri adına layiq görülmək də məhz Vasif Babayevə nəsib olub.



### Dost yubileyi bayram olar...

***İradə Tuncay ("Ədalət" qəzetinin baş redaktoru, Əməkdar jurnalist):***

**- Xalq artisti Vasif Babayevi bütün professional keyfiyyətləri ilə bərabər gənclərə hamilik edən, onların inkişafına dəstək olan bir insan kimi tanımışam. Təsadüfi deyil ki, hər zaman olduğu kimi, bu gün də gənclərin arasındadır. Təbrik edirəm!"**

***Çingiz Abdullayev (Alman-Azərbaycan Cəmiyyətinin sədri, professor):***

**- Vasif Babayev təpədən-dırnağacan İçərişəhərlidir. Şirin danışığı, geyimi, hətta antropoloji quruluşu bunu sübut edir. Vasif müəllimin mədəni tədbirlərdə, təqdimat mərasimləri və premyeralarda, dostlarla qeyri-rəsmi məclislərdə necə deyərlər mövzuya uyğun geyinib-keçinməsi onun şəhər mədəniyyətinə dərindən bələd olmasından xəbər verir. Vasif Babayevin görkəmli elm xadimi Çapay Sultanovla, futbol əfsanəsi Ələkbər Məmmədovla, tanınmış futbol hakimi Rüstəm Rəhimovla şən zarafatlarını, səs-küylü mübahisələrini saatlarla müşahidə etmişəm. Bu gün sıralarımızda olmayan mərhum dostlarımızın xatirəsini Vasif müəllim həmişə ehtiramla yad edir, bunun özü də müsbət insani keyfiyyətdir.**

**Vasif Babayevin Bakımızın yaraşığı İçərişəhərə necə bağlı olduğunu bayaq xatırlatdım. Bəzən dostlarla İçərişəhərdə görüşəndə öz aramızda zarafatla deyirik ki, gərək Vasif qədeşdən icazə alaydıq, çünki İçərişəhərin açarı Vasif müəllimdədir.**

**Dəyərli dostumun yubileyini ürəkdən təbrik edir, ona uzun və sağlam ömür arzulayıram və deyirəm ki, İçərişəhərin açarını möhkəm saxla!**

***Qulu Məhərrəmli (BDU-nun professoru, Əməkdar jurnalist, media eksperti):***

**- Bir vaxtlar İşərişəhərin dar küçələrindən başlanan həyat yolu Vasif Babayevi geniş sənət dünyasına çıxarıb. Dramatik epizodlarla və sayrışan uğurlarla zəngin olan bu dünya onu parlaq bir simaya, nüfuzlu şəxsiyyətə çevirib. Yubileyini gənclik enerjisi və yaradıcılıq şövqüylə qeyd edən Vasif müəllim elə bir məktəbdir ki, ondan daim öyrənmək lazımdır. Çünki Vasif Babayev bütün varlığı ilə, təpədən-dırnağa, iliyinəcən yaradıcı adamdır, televiziyamızın canlı tarixidir, bir epoxadır.**

### *Ondan yaxşı qardaş varmı?*

Vasif müəllimlə uzun illərdir ki, dostluq edirəm. Evində dəfələrlə qonaq olmuşam, hər dəfə də ömür-gün yoldaşı Afət xanımın, övladları Hüsniyyənin və Aslanın daim güləruz, mehriban münasibəti ilə qarşılaşmışam. Sənət, gündəlik ətrafımızda baş verən hadisələrlə bağlı saatlarla söhbətlərimiz, mübahisələrimiz olub.

Hər dəfə Vasif müəllim qardaşı, unudulmaz kinorejissor Arif Babayevi xatırlayıb, çəkdiyi filmlərdən, nakam qalmış arzularından danışıb.

Vasif müəllimin mənzilində xüsusi bir saxlanc var, mərhum Arif Babayevlə bağlı nadir foto və sənədləri, mətbuatda çap olunan yazıları ev sahibi xüsusi həssaslıqla qoruyub saxlayır.

Kino tariximizə "Gün keçdi", "İnsan məskən salır", "Uşaqlığın son gecəsi", "Arxadan vurulan zərbə", "Bizi bağışlayın", "Alma almaya bənzər", "Birisi gün gecəyarısı" kimi filmlər bağışlayan qardaşı unutmaq olarmı heç?

### *İçəri, içəri, İçərişəhər...*

80 yaşlı yubilyar dünyaya gəldiyi İçərişəhərin dolanbac küçələri ilə addımlayır.

Dünyanın bu mistik məkanında Qala divarları, hər ev, hər küçə, hər ağac ona doğmadır. Qardaşları Arifi, Akifi, uşaqlıq dostu Vaqif Mustafazadəni xatırlayır.

Mərhum şairimiz Ələkbər Salahzadə sanki Vasif müəllimin ürəyindən keçənləri qələmə alıb:

***İçərişəhər, İçərişəhər!***<br>
***Hara tullamısan, açarı***<br>
***şəhər?***<br>
***Mən sənə könlümü açaram***<br>
***şəhər,***<br>
***aç, aç, könlümə aç qapılarını,***<br>
***aç mənə ürəyini,***<br>
***qoy dolsun havanla içərim,***<br>
***şəhər!***<br>
***... içəri***<br>
***içəri,***<br>
***içəri, şəhər...***

Vasif müəllim dar küçələri, məhəlləri dolaşdıqca ürəyində Arif Babayevin böyük ustalıqla yaratdığı "Gün keçdi", "Uşaqlığın son gecəsi" filmlərinin qəhrəmanları ilə həmsöhbət olur, Oqtayı, Əsməri yada salır, Muradın, Rüstəmin, Davudun, İsmayıl dayının, Mənsurə xalanın səsini eşidir sanki.

Yeri gəlmişkən, yəqin çox az adam bilir ki, "Uşaqlığın son gecəsi" filmindəki motosıkl, göyərçinlər Vasif müəllimin qardaşı Akifin olub.

İçərişəhərə sevgisindən söhbət düşəndə yubilyar dostum həmişə maraqlı bir ifadə işlədir. Deyir ki, bu sevgini dillə ifadə etmək mümkün deyil.

**Sentyabrın 16-da Vasif Babayevin 80 yaşı tamam olur. Həmişə cavan və pozitiv, televiziyamızın və kinomuzun canlı əfsanəsi, İçərişəhər sevdalısı yola saldığı illərdən, gördüyü işlərdən qürur duyur, sabaha da inamla baxır. İnanır ki, 80 sonuncu dubl deyil, hələ qarşıda neçə dubl var!**

**Etibar CƏBRAYILOĞLU**

### *MERKEL: "NAVALNI CİNAYƏTİN QURBANIDIR"*



**"Aleksey Navalnı sinir sistemini dağıdan " Noviçok" ailəsinə məxsus kimyəvi maddənin tədbiq olunmasının qurbanı olub. Analizlərin nəticələrində, bu zəhərli maddənin aşkarlanması heç bir şübhə yeri qoymur. Əminliklə deyə bilərik ki, Navalnı cinayətin qurbanıdır" -deyə Angela Merkel, bundecverin toksikologiya laboratoriyasının nəticələrinə əsasən bəyan edib.**

"Şimal axını 2"- ni ciddi-cəhdlə müdafiə edən kanslerin, şok açıqlama verməsi, vəziyyətin ciddiliyindən xəbər verir. Almaniya rəhbərinin təəcübləndirən, XXI əsrdə, böyük bir hegemon dövlətin başçısının on beşinci əsrdə yaşamış Roma Papası Bordciya kimi aparmasıdır. Rusiya hökumətinə , hadisə ilə bağlı özünü bilməməzliyə qoymaq əvəzinə, ciddi araşdırma aparması tələb olunur. Amma müxalifətçi Nemtsovun qətli ilə bağlı sifarişçiləri ələ verмədən, bir-iki nəfər qətli törədənləri tutub "cəzalandırmaqla" işlərini bitmiş hesab eləməsinlər. Navalnıya qarşı sui-qəsd hansısa əldəqayırma tapança ilə törədilməyib.

Ona qarşı tətbiq olunan kimyəvi maddə, yalnız xüsusi xidmət orqanlarının laboratoriyalarında hazırlana bilər. "Noviçok" kimyəvi maddəsinin hazırlanmasını, dünya ictimayyəti Vil Mirzoyanovun zəhərli kimyəvi maddələrin hazırlanmasını qadağan edən konvensiyaya imza atmış Rusiya hökuməti tərəfindən xüsusi laboratoriyalarda hazırlanmasını ifşa edəndən sonra bildi. Beləliklə, almanların bu zəhərli maddə ilə bağlı bilgiləri, birmənalı olaraq Kremlə manevr imkanları vermir. Bu kimyəvi naddənin Rusiyanın üzərinə götürdüyü bütün beynəlxalq öhdəlikləri pozması ilə, xüsusi istehsalatda yaratdığı artıq heç kimdə şübhə doğurmur.

Bütün gücü ilə telekomunukasiya və digər KİV-lərini, "solovyovfason" ruporlarını işə salmaqlarından belə görünür ki, Rusiya hər hansı araşdırma aparmayacaq. Dünya isə artıq bu rejimin iç üzünü daha dərindən müşahidə etməkdədi. Beynəlxalq arenada artıq hörmətdən düşməyə başlayan Putin və onun xarici işlər naziri Sergey Lavrov bundan sonra Belarusiyadan başqa, heç bir dövlət tərəfindən qəbul edilməyəcək. Putin üçünsə əsas məsələ İttifaq dövləti yaratmaqdı. O, heç ölkəsinə qarşı tətbiq olunan sanksiyalara da məhəl qoymur. Putin artıq Rusiyanın taleyini xüsusi xidmət orqanlarının - cəza maşınının öhdəsinə buraxıb.

**Rüstəm Hacıyev**

# "Drakon, bilirsən mən qız görmədim"



**Aqil Abbasın "Dolu" əsərində və filmdə belə bir səhnə var. Drakona ( Rza) Pələngin ölüm anında dediyi "Drakon, bilirsən mən qız görmədim" sözün deyir və şəhid olur.**

Bu səhnə filmin bütün fəlsəfəsini açıqlayır. Aqil əmi bu cümlə ilə bütün dünyaya göstərir ki, Qarabağ savaşında həyatında heç bir cavanlıq, gənclik görməyən oğullarımız savaşıblar və şəhid olublar. Bu gün Şəhidlər Xiyabanına gedəndə 17,18,19,20 yaşında gənclərin məzarlarını görəndə Aqil əminin bu sözündəki mesajı görmək olur. Qarabağ müharibəsində biz 1971,1972,1973, 1974 -cü təvəllüdlü gənclərin çox hissəsini itirmişik. Vətən uğrunda nə qədər gənclərimiz şəhid olub. Həyatlarında bir gözə gün yaşamayan gənc insanların şəhid olması insanı nə qədər yandırır bir bilsəniz .

Avqust, Aprel və İyul ayılarında da şəhid olanların əksəri Pələng kimi gənclər idi. Həyatlarında bir gün , cavanlıq yaşamayan qardaşlarımız öz arzularını, gələcək xəyallarını vətən üçün qurban verdilər.

**Allah müharibə qismət eləsin biz orta yaşlı nəsillər gedib vətən uğrunda savaşaq və gənclərimizi qoruyaq. Onlar bu müharibədə şəhid olmasınlar, biz olaq onların yerinə...**

**Zaur Əliyev**

# "Hadisələr bir-biri ilə zəncirvari bağlıdır"

## Politoloqlar danışdı

**Hər kəsə bəllidir ki, ABŞ-ın 11 sentyabr 2001-ci il sabahı dünyanın ən yüksək binalarından olan New Yorkdakı Dünya Ticarət Mərkəzinin ekiz qüllələrinə yönəlik, yerli saatla 09.00-da baş verən terrorla açıldı. Qeyd edilən tarixdə ABŞ soyuq müharibənin başa çatmasından sonra formalaşan "təkqütblü sistemdə" öz gücünü ən üst səviyyədə hiss edərkən tarixin böyük sınağı ilə üz üzə qaldı.**

Amerikanın New York və Manhattan əyalətlərində gerçəkləşən 11 sentyabr hadisələri dünyada yeni bir əsrin başlamasına səbəb oldu. Pentaqon və Dünya Ticarət Mərkəzinə edilən bu hücumlar ilə birlikdə Soyuq müharibə sonrası təkqütblülüyü müdafiə edən fikirlər aradan qalxdı və beynəlxalq münasibətlər sistemi yenidən nəzərdən keçirildi. ABŞ-ın öz torpaqlarında belə bir hücüma məruz qalması onun hegomon gücünü sarsıtdı.

11 Sentyabr hücumları beynəlxalq münasibətlər sistemində "tarixin sonunun sonu" olaraq qiymətləndirilmiş, XXI yüzilliyin dönüş nöqtəsi olaraq dəyərləndirilmişdir. Bu hücumlardan sonra dünya siyasətində baş verən əsaslı dəyişiklikləri öyrənmək üçün **millət vəkili, politoloq Hikmət Babaoğlu** ilə əlaqə saxlamağa çalışdıq.



"Ədalət" qəzetinə açıqlamasında deputat bildirdi ki, müxtəlif müəmmalar və qaranlıq məqamlarla səciyyələnən 11 sentyabr hadisələrindən sonra dünya siyasətində yeni nizam özünü göstərdi. Belə ki, 11 sentyabr hadisələri müsəlman Şərqinin yenidən dizayn edilməsi prosesinə start vermiş oldu. O vaxtdan bu günə qədər cərəyan edən proseslər belə bir qənaətə gəlməyə imkan verir ki, hadisələr bir-biri ilə zəncirvari bağlıdır. Çünki, 2001-ci il sentyabr hadisələrindən sonra ABŞ ətrafında ciddi bir antiterror koalisiyası yaradıldı və oraya ayrı-ayrı beynəlxalq aktorların, milli dövlətlərin qoşulması sonrakı mərhələdə Yaxın Şərq siyasətinin paradiqmalarını müəyyənləşdirdi. Politoloq Hikmət müəllim bunu da əlavə etdi ki, bu gün Yaxın Şərqdə baş verənlərin dünya siyasətinə təsiri çox böyükdür. Bu hadisələrdən sonra biz postbipolyar dünya nizamından multipolyar dünya nizamına keçidin şahidi olduq və hazırda bunu izləyirik.

Mövzu ilə bağlı **siyasi elmlər üzrə fəlsəfə doktoru, politoloq Könül Şıxiyeva**nın da fikirlərini öyrəndik:



"ABŞ-dakı hadisələrdən sonra dünya sisteminin müasir geosiyasi strukturunun konfiqurasiyasında əsaslı dəyişikliklər özünü göstərdi. Belə ki, ABŞ-ın Mərkəzi Asiya və Yaxın Şərqdə fəaliyyəti nisbətən zəiflədi. Bu bölgələrdə Çin, Rusiya, Hindistan, Yaponiya və Avropa Birliyi kimi aktorlar ABŞ-ın qlobal rəqibləri halına gəldi. Bu dövlətlərlə yanaşı Türkiyə, Venesuella, İran, Cənubi Afrika, Meksika, Braziliya, İndoneziya kimi ölkələr də beynəlxalq münasibətlər sistemində əsaslı yer almağa, dünya siyasətində rollarını müəyyən etməyə başladılar".

Könül xanımın fikrincə, 11 sentyabr hadisələri ABŞ-ın xarici siyasətində yeni bir səhifə açdı. Bu hadisələrdən sonra rəsmi Vaşinqton terrorizmə qarşı mübarizəni özünün xarici siyasət kursunun əsas istiqaməti kimi müəyyənləşdirdi.

11 sentyabr hadisələri ilə ABŞ-ın geosiyasi stratergiyasında da müəyyən dəyişikliklər özünü göstərdi. Belə ki, Yaxın və Orta Şərq onun xarici stratergiyasının əsas hədəfinə çevrildi.

Qeyd etməliyəm ki, Yaxın və Orta Şərq hər zaman ABŞ-ın diqqət mərkəzində olub. Bu regionun zəngin neft, qaz ehtiyatlarına sahib olması onu daima ABŞ-ın qlobal geostrategiyasında istinad nöqtəsinə çevirib.

Günü bu gün belə ABŞ Yaxın Şərqdə və İraqda əldə etdiyi nefti nəyin bahasına olursa, olsun, qoruyub saxlamağa çalışır. Ona görə də bu regionda münaqişələrin yaranmasında maraqlıdır. ABŞ-ın dəstəyi ilə Yaxın Şərq ölkələrinin bir qismində baş verən hakimiyyət dəyişiklikləri və burada təzahür edən münaqişələr məhz buna hesablanıb.

**Rövşən Tahir**

# Xaricdə təhsil alan tələbələrimiz

## Azərbaycan həqiqətlərini olduğu kimi çatdırmağa çalışırıq

*Xaricdə təhsil alan tələbələrimiz ölkəmizi layaqətlə təmsil edirlər. Bunun Fransada oxuyan həmyerlimiz Səbuhinin timsalında da bir daha şahidi olduq. Tanışlıq üçün deyək ki, İsazadə Səbuhi Talıb oğlu 1994-cü ildə Bakı şəhərində dünyaya gəlib. Əslən qarabağlıdır. Onun atası Füzuli rayonunun Pirəhmədli kəndindən məcburi köçkün kimi Bakıda məskunlaşıb. Səbuhi Bakının Sabunçu rayonundakı 67 saylı orta məktəbi müvəffəq qiymətlərlə bitirib. 2012-ci ildə Bakı Dövlət Universitetinin iqtisadiyyat fakültəsinə qəbul olub. 2015-ci ildə təhsilini dayandıraraq Paris Universitetində oxuyub. 2016-cı ildə Bakıya qayıdaraq təhsilini davam etdirmiş, 2017-ci ildə ali məktəbi tamamlayıb.*



*2017-2019-cu illərdə Marsel (Fransa) Universitetinin magistraturasında təhsil alıb. Hazırda Fransanın Lion Universitetinin magistraturasında ikinci ali təhsil almaqla bərabər, həm də elmi iş üzərində çalışır.*

*Bu günlərdə Səbuhinin atası ilə birlikdə onunla telefon əlaqəsi yaratdıq. Təbii ki, ilk sualımız dünyanı iti dişləri ilə hədələyən COVİD-19-la bağlı oldu.*

-Burada pandemiya dövlətin nəzarəti altındadır. Hamı bu xəstəliklə bağlı verilən qanun-qaydalara əməl etmək zorundadır. Biz özümüzü qorumalıyıq ki, başqalarının da sağlamlığını əlindən almayaq.

**-Şairlərimizdən biri yazır ki, "tələbəlik həyatı, könüllər atı, qızıla bənzəyir hər bir saatı". Bu sizin şəxsi həyatınızda öz əksini tapırmı?**

-Mən romantika ilə dolu tələbəlik illərinin şirinliyi haqqında çox oxumuş və radio-televiziya verilişlərində bu barədə çox eşitmişəm. İndi mən tələbəlik illərini insan həyatının ən yaddaqalan, unudulmayan ülvi hisslərlə dolu olduğunu şəxsi həyatımda dolğunluğu ilə görürəm. Tələbəlik illəri ilə bağlı bir telefon söhbətində nə danışmaq olar ki? Təkcə onu deyə bilərəm ki, mən tələbə adı ilə fəxr edirəm və bu şərəfli adı vüqarla daşımağa çalışıram.

**-Dediniz ki, burada tək deyilsiniz. Sizinlə birlikdə həmyerlilərimiz də, o cümlədən qardaş türkdilli xalqların övladları da oxuyur, yaxud işləyir. Türk övladlarının bir-birinə münasibəti necədir?**

-Biz burada sözün həqiqi mənasında bir ailənin üzvü kimi dolanırıq. Bu uşaqların sinəsində öz ölkələri ilə yanaşı bütün türk dünyasının məhəbbəti qərarlaşıb. Türkdilli xalqların nümayəndələrin demək olar ki, çoxu türkçüdür. Onlar əqidəli, məsləkli tələbələrdir.

**-Siz müharibədən, savaşdan uzaq yaşıdlarınızdan fərqli olaraq yaralı bir ölkədən getmisiniz. Torpaqlarımızın 20 faizi təcavüzkar Ermənistan tərəfindən işğal olunub, bir milyondan artıq soydaşımız doğma yurd-yuvalarından didərgin salınıb. Çoxlu sayda soydaşımız düşmən təcavüzünə məruz qalıb, şəhid olub, əlil olub, erməni əsirliyində olmazın müsibətlərlə üzləşib. Bunların arasında uşaqlar, qocalar və qadınlar da var. Hələ də xeyli soydaşımız, eləcə də körpə uşaqlar erməni əsirliyindədir. İşğalçı Ermənistan isə bu faktları danır. Onlar heç bir beynəlxalq qanunlara məhəl qoymurlar. Otuz ilə yaxındır ki, Ermənistan ordusu işğal etdikləri Azərbaycan ərazisindən geri çəkilmirlər ki, qaçqınlarımız və məcburi köçkünlərimiz ev-eşiklərinə qayıtsınlar. Elə sənin valideynlərin və qohum-əqrabaların da neçə illərdir ki, məcburi köçkünlük həyatı yaşamağa məcburdur. Azərbaycanın başına gətirilən bu müsibətləri həmyaşıdlarınıza çatdıra bilirsinizmi?**

-Bəli, mənim valideynlərimin məcburi köçkün həyatı gözlərimin qabağından getmir.

Biz çox əziyyət çəkdik, elə indi də valideynlərim bütün əzab-əziyyətə qatlaşaraq Qarabağa qayıtmaq arzusu ilə yaşayırlar. Biz başqa ölkələrin nümayəndələrinə Azərbaycan həqiqətlərini, ölkəmizin şanlı tarixini, mədəniyyətini, incəsənətini olduğu kimi çatdırmağa çalışırıq. Bu bizim vətəndaşlıq borcumuzdur.

Biz dünya ictimaiyyətinə çatdırmaq istəyirik ki, Ermənistan təcavüzkardır, Azərbaycan torpaqlarını zəbt edib.

Biz həmyaşıdlarımıza, eləcə də təmasda olduğumuz digər əcnəbilərə xatırladırıq ki, Azərbaycan sülhsevər ölkədir. Biz münaqişəni danışıqlar yolu ilə, sülh yolu ilə həll etmək istəyirik. Bizim heç bir kəsin torpağında gözümüz yoxdur, bizim torpaqlara da göz tikənlərin dərsini verəcəyik. Qoy, Ermənistan gəncləri açsın qulaqlarını eşitsinlər: Biz torpaqlarımızı işğaldan azad edəcəyik, ölkəmizin ərazi bütövlüyünü təmin edəcəyik. Buna heç bir kəsin şübhəsi olmasın. İndi Azərbaycanın Avropa standartları səviyyəsində qüdrətli ordusu var. Biz torpaqlarımızın xilası naminə canımızdan keçməyə hazırıq.

**-Səbuhi, özün haqqında danışmadın. Vəziyyətin necədir, necə dolanırsan? Problemin yoxdur ki?**

-Çətinliyim yoxdur. Mən problemin üzərinə getməyi bacarıram.

**- Təbii ki, telefonla sənin və Lionda təhsil alan azərbaycanlılarla, eləcə də türkdilli xalqların hümayəndələri haqqında ətraflı bilgi əldə etmək imkan xaricindədir. Bununla belə, hələlik son olaraq nə demək istərdin?**

- Millətin, xalqın siması, davranışı onun tarixində, folklorunda, adət-ənənəsində, məişətində, məşğuliyyətində, təsərrüfat həyatında aydın görünür. Bu baxımdan biz Fransada təhsil alan Azərbaycan gəncləri özümüzə hörmət etməyi də, etdirməyi bacarmağa çalışırıq. Çalışırıq ki, müsahiblərimizə tariximizlə, folklorumuzla, milli-mənəvi dəyərlərimizlə tanış edək.

Bu pandemiya dövründə millətimizə, xalqımıza möhkəm can sağlığı arzulayıram. Gəlişimizi gözləyin, gəlişimiz möhtəşəm olacaq.

**Söhbətləşdi:**
**Faiq Şükürbəyli**



Abid Tahirli

## 28 May qədər tarixi və müqəddəs bir gün-15 Sentyabr ərəfəsində

**Azərbaycanın istiqlalı uğrunda son nəfəsinədək ideoloji mücadilə aparmış istedadlı yazıçı, publisist, naşir, redaktor Mirzə Bala Məhəmmədzadə mühacirlərin İstanbulda nəşr etdikləri "Yeni Qafqasya" jurnalında "Bakının azad olunması uğrunda döyüş - 15 Sentyabr qələbəsi" adlı məqaləsində (№ 24 (93), 1927) yazırdı: "15 Sentyabr 28 May qədər tarixi və müqəddəs bir gündür". Bu cümlə tarixi zəfərin, türk süngüsünün erməni quldur dəstələrinin, eləcə də bolşeviklərin darmadağın edilməsinin xalqın taleyində, istiqlalın qazanılmasında və qorunmasında rolunu layiqincə dəyərləndirir. Məhz bu müqəddəs gün ərəfəsində Qəbələ rayonunun Nohurqışlaq kənd qəbirstanlığında uyuyan xilaskar türk əsgərlərindən birinin məzarını ziyarət edirəm.**

**Ötən əsrin 90-cı illərindən başlayan axtarışların zamanı naməlum türk əsgərinin qəbirstanlıqdan kənardakı, orta məktəbin həyətindəki tənha məzarının aşkara çıxarılmasında, onun nəşinin sümüklərinin çıxarılaraq qəbirstanlıqda- Qarabağ uğrundakı döyüşlərdə həlak olan kəndin 6 nəfər şəhidi ilə bir sırada dəfn olunmasında, türk əsgərinin anıt qəbirin inşasında mənə yardımçı olan hər kəsə, xüsusilə Azərbaycan Respublikasındakı Türkiyə səfirliyinin sabiq hərbi atteşesi general Faxrı Kıra, səfirliyin sabiq mədəniyyət müşaviri Fəthi Gədikliyə, kənd mollasına, ziyalılara bir daha minnətdarlıq edirəm. 15 ildən çoxdur ki, iki qardaş dövlətin bayrağı anıt qəbrin üzərində qoşa dalğalanır...**

**Nəzərim polad kimi məğrur, sarsılmaz türk əsgərinin simvoluna çevrilmiş başdaşı üzərində təşəbbüsümlə həkk olunmuş misralara dikilir:**

**Doğudan Batıya həsrət qoxulu.
Bir yel əsər, sərin-sərin, bizimdir;
Qədər dolu, sevda dolu, eşq dolu,
Şəhid dolu təpələrin bizimdir.**

**Bu misralar türk ordusu tərkibində 1950-ci ildə Koreyaya göndərilən, əslən Qars azərbaycanlılarından olan topçu zabit Fuat Azgurun 1953-cü ildə Koreyadan Türkiyəyə ünvanlanan və "Azərbaycan" jurnalında ( Ankara, № 1 (10), 1953) dərc olunan şeirindəndir. Həmin şeirin digər iki bəndi də dərin mənalı və təsirlidir, qəlbi sızladır, göz yaşları ilə oxunur:**

**Bir sonsuz həsrətlə bağrılar yaxan
İrmağın, çayındır damarlarda qan;
Səni hərşeyinlə sevəriz, Vatan,
Yağmurun, fırtınan, qarın bizimdir.**

**Eşqi və həyatı səndə bulan biz,
Yar diyə sevdiksə, səni sevmişiz;
Hicranına ortaq, dərdinə eşiz.
Həm sevincin, həm kədərin bizimdir.**

## *Məktəblərdə şagirdlər üçün hazırlıq kurslarının təşkilinə icazə verilməyəcək*

**Məktəb daxilində şagirdlər üçün hazırlıq kurslarının təşkilinə icazə verilməyəcək.**

Bunu Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsil şöbəsinin müdiri Vəfa Yaqublu Nazirlər Kabinetinin "Karantin rejimi dövründə təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları" barədə Qərarına həsr olunmuş onlayn mətbuat konfransında deyib.

Onun sözlərinə görə, şagirdlər dərsdən sonra yenidən məktəbə gələcəklərsə, bu, yenidən təhsil müəssisələrində şagird sıxlığının yaranmasına səbəb olacaq:

"Amma valideynlər uşaqlarını əlavə müəllim yanına göndərirlərsə, bu, onların öz işidir".



Şahnaz Şahin

# YAD OLAN DOĞMALAR

**Esse**

İnsanı içindən idarə edən bir sürü müsbət və mənfi hisslər toplusu var, ikincilərdən eqo, nəfs, həsəd, paxıllıq, və digər. Həm də insan malik olduğu bu hisslərə demək olar ki, həmişə uduzur. İnsan daha humanist duyğularla özünü yenidən inşa etmədikcə böyük mənada insan olmaqdan uzaqlaşır, cılızlaşır, mənəviyyatı korlanır. Ümumiyyətlə insan mənəvi baxımdan içində iki məxluqu yaşadır, şeytan və insan. Deməli bir ömür sürəsincə də bu iki daxili qüvvənin mübarizəsi gedir. Qalib hansı olur.. Mən uzun illər insan xarakterinin, xasiyyətinin arına, mükəmməlliyə doğru dəyişə bilməsinə inanmışam. Dəlicəsinə inanmışam ki, bax elə tanıdığım bu adam səhv yol tutduğunu mütləq dərk edəcək, peşman olacaq, və hətta azərbaycanlılarda çox da dəb olmayan bağışlanma istəyilə geri dönəcək !..Amma və heyhat.. Məndən fərqli düşünən həyat dostumun realist proqnozu sonda qalib olub. Amma yenə qəlbimin lap dərin qatlarında ümid etmişəm ki, əgər şəxsin özünü yaxşıya doğru dəyişmək istəyi olarsa, bununçün isə özünə kənardan baxmağı bacararsa, öz özü ilə təkbətək qalanda vicdan adlanan məhkəmədə nəyi doğru ya da yanlış etdiyinə düzgün qərar verə bilərsə, onda dəyişə bilər

*Ey Allahın bəndəsi.
Bu daşı qapıb arxamca tolazlama...
Düşün!
Demə kim görəcək..?!
Atdın, mənə dəydi,
qayıdanda özünə dəyəcək..
daşın..*

Buna hüquq müstəvisində islah olunma deyilir. Hərdən cəza çəkmə müəssisələrindən reportajlar hazırlanır, ayrı-ayrı məhbuslarla söhbətlər aparılır, etdiyi əməldən peşiman olub olmadığını soruşanda hər biri sonsuz peşmanlığını bildirir, bir nəfər də " yaxşı eləmişəm " demir...O gün ağır cinayət törədib ömürlük həbs cəzası alaraq ömrünün artıq 18 ilini bağlı qapılar arxasında xərcləyən kişi onu bu cinayəti törətməyə vadar edən səbəbin əslində "mənəmlik" olduğunu etiraf etdi və əlavə elədi ki, o zaman düşünürdüm mənə hər şey olar, yəqin qarşı tərəf də eyni cür fikirləşirmiş, yoxsa sonluq belə faciəvi bitməzdi...

Hər bir kəs fərd və təbiətin bir parçası olmaqla yanaşı cəmiyyət içərisində, müxtəlif insanlar əhatəsində birgə yaşamalıdır. Bunun əksi tənhalıq, təklikdir ki, insan ara-sıra ona da ehtiyac duysa da, daimi həyat tərzi kimi seçə bilmir. Yəni insanın insana ehtiyacı var!. Bu böyük aləmdə isə adama doğma və tamamilə yad olan insanlar var. Doğmalar, qohumlar seçilmir, onlar ilahidən sənə düşən qismətdi, amma dostları, tanışları sən özün seçirsən. Ən ağır zərbəni də adama ən yaxın hesab etdiyi insanlar vurur təəssüf ki... Həyatim boyu çox sınaqlar gördüm, qohumlar arasında baş verən dedi-qodular, münasibət pozuntuları qədər ciddi nəticələr verən görmədim. Bilirsiniz niyə? Çünki yad adamı həyatından çıxarmaq, münasibətləri yarıda kəsmək nisbətən asan və rahat başa gəlirsə, qohumluq bağları olan insanlarla bu çətin olur. Hər dəfə düşünürsən, bağışlayırsan, üstündən keçirsən.., amma bənzər münasibətlər təkrarlandıqca daha bacarmırsan. Xüsulilə də belə küsülülüklərə uşaqların da qatılması təəssüf doğurur. Böyüklərin qarşılıqlı münasibəti kəsilibsə uşaqlar qarşı tərəfə "Allahın salamı" nı belə verməzlər!...Uşaqlarına sevgi yerinə nifrət aşılayan bu valideynlər gələcək üçün yarımçıq insan yetirmələrinin heç umurunda belə deyillər. Bu isə daha qorxuludur! Qonşuluqda iki ailə vardı, çəpər qonşusu idilər. Qız alıb-verib qohum olmuşdular, amma heç cür yola getmirdilər. Kürəkən həyat yoldaşını döyür, söyür, təhqir edir, qadın da ən kritik vaxtlarda aradakı çəpəri adlayıb atası evinə gəlir, bir neçə saatdan sonra isə yenə öz evinə dönürdü. Daim qorxu içərisində yaşayan bu qadın ruhu-əsəb xəstəliyinə tutuldu və uzun zaman stasionar müalicə alası oldu... Kişi bu ailədən heç kəsi saymır, salam belə vermir, get-gəl eləmirdi. Yadımdadı, qaynatası hər dəfə söz düşəndə böyük ümidlə : " Bir ağıllanan, başa düşən vaxtı olacaq.." deyirdi. Amma o vaxt heç vaxt olmadı, əksinə, ağır təzyiqlər və təhqirlər altında dünyaya dörd uşaq gətirib böyüdən bu qadın bir gün hər şeyi atıb evdən getdi!...Gec idi əlbəttə, amma artıq bütün ümidləri qırılmış, gözləntiləri özünü doğrultmamışdı...

***Bu gecə məni sevmədi,
Mən bu gecənin olmadım.
Nə bir köz verdi isinəm,
Nə bir xatirə qoymadı.***

***Çox baxdım tanıyammadım,
Bilmədim yaşı neçəydi.
Ayrılanda ovcumuz boş,
Hesabımız heç-heçəydi...***

Eh, qohumlar, qohumlar...Onlar arasında baş verən münaqişələr həm də bir az fərqli olur, əksər hallarda gizli düşmənçiliyə qədər gətirib çıxarır və dairə həmişəlik qapanır...Bir məsələ də var, haqlı olub olmadığından asılı olmayaraq burda kim daha çox" mənfi informasiya " yaya bilirsə, " uğur " da onunladır. Fərqi yoxdu, onsuz da heç kim ədalət axtarışına qalxmayacaq, heç etiraz da etməyəcək, əksinə bəlkə də ocağı körükləyəcəklər ki, danışanın xoşuna gəlsin..! Adı nadanlıq, xəbislik, paxıllıq olan hisslər tutanda ürəyə qurd salır, getdikcə sahibini normal insani keyfiyyətlərdən uzaqlaşdırır, belə adamların xarici üz cizgiləri də dəyişir, siması daim tutqun, acı, narazı bir görgəm alır...Ulu Nəsimi söylədiyi kimi :" İnsanın üzü böyük bir kitabədir...!" İnsanın ali xüsusiyyəti onun alicənablığı, sevgisi, məsumluğu, kövrəkliyi, ədalətliliyi, səmimiyyəti, məkr və hiylədən, bütün pisliklərdən uzaq olmasındadır. Eldə belə adamlara "Bir qarışqanı da tapdamayan " deyirlər. ..

***Dağılmış muncuq kimiyəm,
Bir yerə yığılammıram.
Dörd yandan kötək yeyirəm,
Nə fayda, ağıllanmıram.***

***...Dünya dolanır başıma,
Dünya fərq qoymur yaşıma,
Tülkü çıxarır qarşıma.
Suçum nə.., anlayammıram!..***

Anamn bir sözü vardı, haqsızlıq görəndə həmişə deyirdi ki, "at Allahın ətəyinə..Gec ya tez cəzasını alacaq." Başına dəyən daşlar əvvəl ayaqlarına dəymişdi, adam, amma dərs almadın. Ağıllanmadın. Etdiklərindən peşman olmaq yerinə bir az da tündləşdin, bəd işlərin daha dərin qatlarına enməyə çalışdın. Bax bu da nəticə! İnsan olan başqasının uğuruna özününkü qədər sevinməli, pis gününə heç olmasa şərik olmalıdır. Filosoflar dediyi kimi, dərdə şərik olmaq özü ən ucuz təsəllidir, amma heç bunu da etmədiniz siz...

Qohumlar yaxın və uzaq deyə iki yerə ayrılır, bir də var canı bir, qanı bir olanlar, bacı, qardaş, əmi, dayı, xala, bibi və onların törəmələri, bax bu arada gərgin münasibət bataqlığına düşən çətin ki, ordan qurtara bilsin.

Deyirlər əqrəbin bir pis xüsusiyyəti var, o sancmasa ölər..., amma ən sonda onun özü özünü sancıb öldürməyi daha dəhşətlidir. Çünki sancmağa öyrəşən və məğlub olacağını düşünməyən əqrəb sonda hikkəsindən özünü də sancıb öldürür!..

Həyat isə çox qısadır, ömür saniyələr içərisində axıb gedən suya bənzəyir və sənin bir də o suda təkrar çimmək şansın olmayacaq!...Nə qədər ki, Tanrı sənə yaşamaq haqqı verib aç qəlbini "O"na, çevir üzünü Yaradana, arındır, təmizlə ruhunu, özünə dön, özünə, ey İnsan...! İçindəki şeytanı daşlamaq üçün həcc ziyarətinə getməyə hacət yoxdu, yetər ki, özünü tanı. Onsuz da heç kimin alın yazısını pozub yerinə yenisini yazmaq qüdrətin olmayacaq, kimsənin qismət payına göz dikmə, həyatını zindana döndərmə, özünə həsr et., düşdüyün quyuya sallanan xilas kəndirini kəsmə, nə qədər gec deyil özünü qurtar... Yoxsa sonra gec olacaq, çoox gec.

***Dünya elə dolanır ki,
Hər şey bir ucdan yıxılır.
Alçağın tavanı uçur,
Hündür ucadan yıxılır.***

***Yıxılır kimsə adından,
Qurulu vaxt-saatından.
Kimsə şər atdığı ahın
Yeddi qatından yıxılır...***

***Dağlar bəyaz yalanından,
Ağaclar bəhər-barından.
Zəiflər zəif yerindən,
Güclü gücündən yıxılır.***

***Yüz balta vurub gedən var,
Xəlvət pusquya yatan var.
Hələ də bilmir adamlar,
Adam içindən yıxılır!...***

# Məhəmməd Əliyə 5 milyon dollar verən - “Tanrı-kral”

**Konqonun Leopoldun dövründə çəkdiklərini oxumuşduq. Amma onun ölümüylə birlikdə Konqolular rahat nəfəs aldığını düşündünüzsə yanılırsınız. Çəkəcəkləri çilə hələ bitməmişdi. Dərdin yeni adı: Mobutuydu.**

Mobutu da atasız böyüyən diktatorlar karvanına daxildi. Anasını çox yaxşı xatırlayır və dövlət başçısı olanda ölkə büdcəsinin yarısı hesabına tikilən xəstəxanaya anasının adını verəcək qədər çox sevirdi. Ana sarıdan bəxti gətirmişdi. Atasının aşpaz kimi xidmət etdiyi belçikalı bir ailənin xanımının simasında özünə ikinci ana tapmışdı. Qadın ona oxumaq-yazmaqla yanaşı fransızcanı da öyrətmişdi.

***Görünüşünə görə olduqca iri və güclü idi. Uşaqlığında çox dəcəl olub. Dinlə arası elə də yaxşı deyildi. Katolik olaraq yetişdirilsə də kilsəylə həmişə məsafə saxladı. Hakimiyyəti dövründə mediada tez-tez yer alan fikirləri batil inanclara söykənirdi. Nəhayət yaramazlığı bacarıqlarını kölgədə buraxanda məktəbdən çıxarıldı və məstəmləkə ordusuna yazıldı. Bir müddət sonra silahı buraxıb qələmə sarıldı və müxtəlif yazılar yazmağa başladı. Belçikada Konqo millətçilərinin öndərlərindən olan Patrice Lumumba ilə tanış oldu və onun məsləhətiylə Konqo Dövlət Hərəkatına qoşuldu.***

Digər Afrika müstəmləkələri kimi Konqo da 60-cı illərdə müstəqilliyini qazandı. Lumumda baş nazir, Mobutu isə baş qərərgah rəisi oldu. Lakin ölkə bir anda anarxiyaya sürükləndi. Bəzi qəbilələr Lumumbunun baş nazir olmasına etiraz etmişdi. Ölkədə anarxiya dərinləşdikdən sonra belçikalılar Konqonu tərk etməyə başladı. Ölkənin mədən və almaz bölgələri müstəqilliklərini elan etməyə cəhd edəndə ortalıq daha da qarışdı. Belçika öz vətəndaşlarını qorumaq üçün hərbi dəstələr göndərəndən sonra Lumumba müstəmləkəçiliyi yenidən canlandırmaqda ittiham olundu. Çarəsiz qalan Lumumba BMT-dən sabitliyi yaratmaq üçün kömək istədi. Beynəlxalq koalisiya Konqoya gəldi. Lumumbanın ölkədəki belçikalıları zorla çıxartmaq tələbi yerinə yetirilməyəndə o, BMT-yə qarşı çıxdı və qərblə körpüləri yandırdı.

## *"Hazırlaş Mobutu, səhnə sənindir"*

Vaşinqton və Brüsseldəkilər Lumumbanın üstündən xətt çəkmişdi. Başda Afrika ölkələri olmaqla dünyanın bir sıra ölkələrində tətbiq olunan çevriliş şablonu həmin tarixdən etibarən gündəmə gəldi. Ölkənin baş qərərgah rəisinin əliylə " Böyüklərini əsəbləşdirən yaramaz dövlət başçısı" devrildi. Mobutu qansız çevrilişlə həm Lumumbanı, həm də dövlət başçısı Kasavubanı səhnədən çıxartmışdı. Bununla birlikdə `mülki idarəçiliyə sayqısı sərhədsiz idi` və hakimiyyətini universitet məzunlarından ibarət olan texnokratlara verdi. Təəssüf ki, antidemokratların məsləhətindən sonra `texnokrat hökuməti` adlı dərman Konqonun da mədəsini ağrıdacaqdı. Vəziyyət daha da pisləşdi. Vətəndaş müharibəsi davam edirdi. 1961-ci ildə Lumumba suiqəsd nəticəsində öldürüldü. Hadisədən 40 il sonra Belçikanın suiqəsddə rol oynadığı bilinəcəkdi. MKİ-nın Konqo rəisi Lavrence ` larry` Devlin də Lumumbanı öldürməyi üçün rəhbərlərindən əmr aldığını sonradan qələmə aldığı xatirələrində qeyd edəcəkdi. Qərb ölkələri Konqonun başına corab hörərkən Mobutu da bir yandan şərtlərin uyğunlaşmasını gözləyirdi. Nəhayət 1965-ci ilin 21 noyabrında daha bir çevriliş etdi. Bu dəfə əbədi olaraq gəlmişdi. Dövlət başçısı olduğunu elan etdi. Bütün siyasətçilər aradan çıxdı, meydan ona qaldı. Konqo üçün planladığı parlaq gələcək üçün işə başlaya bilərdi. Nitqləri həddindən artıq maraq çəkici idi.

## *Tək partiya olacaq, dərdlər bitəcək, sıx dişini konqolu*

Mobutu qısa zaman içində tək partiyalı idarəçiliyə keçdi. Partiya rəhbəri də özü idi. Partiyaya üzvlük könüllü idi amma `cürətin çatırsa` olma. Mobutunun ilk işi isə devirdiyi hökumətin bəzi üzvlərini ona qarşı təxribat ittihamıyla 50 min insanın gözü qabağında sorğu-sualdan sonra edam etdirməsi oldu. Mobutu müxaliflərinin başını əzə-əzə ölkəsini tikansız gül bağçasına çevirdi. 70-ci illərin ortalarında hər yer süd limanı olmuşdu. Artıq iqtisadiyyata da əl uzada bilərdi. Maraqlıdır ki, ölkə iqtisadiyyatı ilk mərhələdə özünə gəldi. Nizamlı büdcə yaradılmış, daxili-xarici iqtisadi ticarətdə balans qurulmuş, 7%-lik inkişafa çatdırılmışdı. Mobutu bundan sonra fiaskoya uğrayacaq nəhəng layihələrə başladı.

## *Köhnə adlardan imtina edin!*

Mobutu 1971-ci ildə ölkənin adını dəyişərək Zair qoydu. `Digər çayları udan çay` deməkdir. Bu əsnada öz adını da dəyişdirməyi unutmamışdı. O, artıq Mobutu Sese Seko Ngbendu Va Za Bangaydı. Yəni "Qazanmağa iddialı sarsılmaz iradəli və iradəsiylə fəthdən fəthə qaçan, bunları edərkən də arxasından alovdan iz buraxan yenilməz döyüşçü".

***Mobutu yəni, arxasından alov çıxaran yenilməz döyüşçü sadəcə öz adını dəyişdirməklə qalmamış, vətəndaşlarını da eynisini əmr etmişdi. Buna əsasən hər kəs avropalı adlarını atmalı, afrikalı adlar götürməli idi. Müstəmləkəçilik dövrünün izlərini silmək yerinə işin xarici qisminə fikrini verən hər axmaq diktator kimi Mobutu da bunları etdi. Qərbli geyim tərzi qadağan olundu. Hər kəs Çindəki Mao sistemidəki kimi eyni geyim geyinəcəkdi. Madam və Müsyo sözləri Belçikanı xatırlatdığı üçün işlənməsi yasaqlandı. Və təbii ki, işin ən önəmli hissəsi şəxsiyyət kultunun yaradılması idi. Bürokratların da təbliğatıyla Mobutu qısa zamanda ` Məsih`, `dövlətin atası`, ` İkinci qəhrəman`, `İmperator` və `Tanrı-kral` kimi sifətlərlə tanınmağa başladı. Hər yerə şəkilləri asılır, rəsmi sənədlərdə adı böyük hərflərlə yazılırdı. Anasını Hz. Məryəmə, özünə isə İsa Məsihə bənzədənlər də oldu. Diktatorluqla idarə olunan ölkələrin ortaq bəlası olan ağılsızlıq hər kəsi keyitmişdi. Dövlət televiziyasının xəbər bülletenləri öncəsi özünü buludların arasından enərkən təsvir edən klipsə sözün bitdiyi yer idi...***

## *Nəbzə görə şərbətçi diktator*

Mobutu xarici siyasətdə uzun müddət `nə şişsin yansın, nə də kabab` siyasətini yürütdü. Həm şərq, həm də də qərblə əlaqələrini saxlayır, bitərəf olmağa çalışırdı. Bu çox çəkmədi. 1974-cü ildə Çin və Şimali Koreya səfərlərindən sonra radikallaşdı. Ölkədəki xarici sənayeni milliləşdirdi. Bunları guya ölkənin öz vətəndaşlarına verəcəkdi, amma hamısı rejimin tərəfdarları arasında böləndü. Korrupsiya böyüdü. Mobutu rejiminə yeni bir ad verilmişdi: Kleptocracy. Yəni, oğrular hakimiyyəti.

Ölkə iqtisadiyyatı çökərkən o və tərəfdarları ciblərini doldururdu. 80-ci illərdə onun şəxsi varidatının 5 milyard dollar həcmində olduğu təxmin edilirdi. Ölüm faizi, işsizlik və cəhalətlə birlikdə onun sərvəti də artırdı. Sadəcə Zairdə 11 villası var idi. Korrupsiya rejimin ən təməl prinsiplərindən birinə çevrilmişdi. Müxaliflər satın alınır, `Oğru Həsən`in payına şərik edilirdi. Pulla iradəsi alınmayanların hesabına isə məxfi polis baxırdı.

***Yaxşı, bütün bunlar baş verərkən insan haqları pəhlivanlığını heç kimə buraxmayan qərb ölkələri nə edirdi? Təbii ki, antikommunizm siyasətinə görə Mobutunun başını sığallayırdı. Qatı solçu düşməni olan Mobutu Anqoladakı sağçı silahlılara kömәkliyinə görə qərbli qardaşlarından təşəkkür alır, bunun qarşılığında isə onlar ölkəsində qurduğu dəzgaha çomaq soxmurdular. Mobutu 1975-ci ildə Anqoladakı marksistlərin güclənməsinin qarşısını almaq üçün əməliyyatlara dəstək vermişdi. Mobutunu Anqoladakı marksistlərin dəstək verdiyi üsyançıların əlindən fransızların hava bombarmanıyla birlikdə köməyinə gələn 1500 nəfərlik xüsusi dəstə xilas etmişdi. 1978-ci il Zambiya işğalından da canını qurtaracaqdı. Bu dəfə köməyinə Belçikalı və fransız hərbiçilər gəldi. Qərbin kommunizmə qarşı hislərini bilən diktator tez-tez bu kartdan istifadə edirdi. Ona qarşı çıxanlar arasında Şərqi Almaniya və kubalı agentlərin olduğunu söyləyərək ağalarını tez-tez köməyə çağırırdı. Amerikalı, fransız***



***və belçikalılar da sağ olsunlar, kömək lazım olanda əsirgəmədilər. 80-ci illərə kimi bu belə davam etdi. 1965-88-ci illər arasında sadəcə Amerika Mobutuya bir milyard dollar həcmində yardım etmişdi.***

## *...Və nəhayət Mobutu gedər*

Dövran dəyişdi və soyuq müharibə bitdi. Mobutunun da son istifadə tarixi bitdi. Birdən birə nə qədər zalım və barbar olduğu, demokratiyanı ayaqlar altına atdığı kəşf edildi. Qərbin kommunizmə qarşı afrikadakı bu köhnə diktatora ehtiyacları qalmayacaqdı. Keçmiş sahiblərin də tələbi ilə islahatlara getmək məcburiyyətində qaldı. 1990-cı ildə müxalifət partiyalarına izn verildi amma iplər hələ də Mobutunun əlində idi. Seçkilər qərbin gözünü boyayan teatrdan başqa bir şey deyildi. Ölkə iqtisadiyyatı yerdə sürünürdü. Belə ki, 1994-cü ildə inflyasiya yüzdə 9800-ə çatdı! Həmin il Mobutu karyerasının ən axmaq xətasını etdi. Ruandadakı soyqırımımın baş aktyorları olan radikal hutu silahlılarına Zairin şərqində yerləşməsinə izn verdi. Bu silahlılar Mobutunun nəzarəti ilə Ruandaya hücumlar təşkil etdi. Zair torpaqlarındakı üsyançılar təkcə hutular deyildi. Uqanda hökümətinə qarşı savaşan üsyançılar da Zairin şərqindəki ərazilərdən Uqandaya hücumlar edirdi. Mobutu ölkəsinin şərqini atış poliqonuna çevirmişdi. Bölgədəki etnik gərginliklər artanda Ruanda və Uqanda dövlət başçıları Mobutunun həddini keçdiyi qənaətinə gəldilər və düyməyə basdılar.

**İllərlə sağçı UNİTA silahlılarına dəstək verdiyi üçün Mobutudan narazı qalan Anqola da onlara qatılmaqda gecikmədi. Bu üçlük bir zamanlar Çe Gevarayla birlikdə döyüşmüş Maocu üsyan rəhbəri laurent Kabilaya dəstək verərək Zairi işğal etməsi üçün yaşıl işıq yandırdılar. Bacarıqsız ordu rəhbərliyi, korrupsiya və ruhdan düşmüş Mobutunun ordusu işğalçı qüvvələr qarşısında aciz duruma düşdü və qısa zamanda məğlub oldu. 1997-ci ilin mayında Mobutu çarəni arxasına baxmadan qaçmaqda gördü. Sığındığı Mərakəşdə bir neçə ay sonra prostat xərçəngindən öldü. 31 il yarım davam edən hakimiyyəti dövründə xalqının boynunda yumurta bişirməkdən və digər Afrika ölkələrindəki kommunist qüvvələrlə döyüşməkdən başqa bir şey etməmiş, fürsət düşdükcə isə ölkəsinin büdcəsini mənimsəmişdi.**

## *Ayranı yox içməyə, Concordela gedər Parisə*

Mobutunun ölkəsi aclıq içində olsa da özü dəbdəbəli həyat tərzi sürürdü. Belə ki, makyaj hər şey idi. Yaxın əlaqədə olduğu Fransada səfərdə olarkən Air France-dən kirayələdiyi Concorde təyyarəsindən istifadə edirdi. Hətta təyyarəni rəsmi səfərlər üçün deyil, ailəsi ilə birlikdə Parisdə alış-veriş edərkən də istifadə etmişdi. Mobutu vətəni Gbadolitedə tikdirdiyi nəhəng sarayın yanında Concordenin də enib-qalxması üçün hava limanı tikdirmişdi. Diktator devriləndən sonra Fransız Riveryasında, İsveçrə Alplarında, Portuqaliya və Belçikada onlarla villası olduğu üzə çıxdı.

## *Heç kim yerində çox qalmasın, yoxsa problem olar*

Mobutunun qəribə siyasətindən biri də hökümət kabinetində etdiyi yerdəyişmələr idi. Nazirlər tez-tez bir-birləriylə yerlərini dəyişir, heç kimin bir vəzifədə uzun müddət qalmasına izn vermirdi. Bununla o, uzun illər eyni vəzifədə olan birinin hakimiyyətə qarşı hansısa planının qarşısını almış olduğunu düşünürdü. Düzü, çox ağıllı taktikadır. Bunu rusların` bürokratiya ilə tərbiyə etmə` idarəçiliyinə də bənzədə bilərik. Məlumdur ki, məşhur rus müxalif yazıçısı Aleksandr Solıjitsin bir dəfə belə demişdi: " Kremldəkilər axmaq olduqları üçün bu ölkədə bu qədər bürokratiya yoxdur. Sadəcə insanları bürokratik əngəllərlə məşğul eləyib dərin məsələlərə fikir verməsini əngəlləmək istədikləri üçün var. "

## *Boks matçı təşkil eləyən diktator idi*

**70-ci illərin ən çox səs gətirən idman yarışlarından biri də dövrün boksdakı iki böyük imzası Məhəmməd Əli və George Foremanın Zairdə 1974-cü ilin 30 noyabrında keçirdikləri döyüş idi. Haqqında olduqca çox danışılan və `Rumble in the Jungle` adıyla məşhurlaşan müsabiqənin arxasındakı imzalardan biri də yenə Mobutu idi. İllər sonra məlum oldu ki, diktator bunu ölkəsi haqqında mənfi imici dəyişmək üçün təşkil etmək istəyib. Hər iki boksçuya adambaşına 5 milyon dollar verdiyi üzə çıxmışdı.**

## *"Dostlarını yaxınında saxla, düşmənlərini isə lap yaxında"*

Mobutu hakimiyyətinin ilk illərində müxaliflərini işgəncəylə susdurdu. Daha sonradan pulun işgəncədən daha təsirli olduğunu kəşf etdi və rəqiblərini rüşvətlə ətrafına çəkmək taktikasından istifadə etdi. Qismən uğurlu oldu. "Dostlarını yaxınında saxla, düşmənlərini isə lap yaxında" sözünün hər nə qədər fərqli adamlar tərəfindən deyildiyi iddia olunsa da bu taktikanı kəşf etməsindən sonra Mobutu tərəfindən deyildiyinə inanılır.

"Maaş verir kimi özlərini göstərirlər. Biz də özümü işləyən kimi göstəririk."

Mobutunun ölkə xaricindəki banklara yığdığı pulun Beynəlxalq Şəffaflıq Agentliyinin məlumatına görə 5 milyard olduğu bildirilir. Bu rəqəm təxminən ölkənin xarici borclarına bərabərdir. Bu rəqəmlə Mobutu bütün zamanların diktatorları arasında ilk üçlüyə girmişdi. Rejimin devrilməsindən sonra bu məbləğdən İsveçrə banklarından cəmi 3.5 milyard dolları çıxarıla bilindi. Qalan pulların aqibəti isə hələ də bilinmir. Bu astronomik rəqəmlərə baxmayaraq ölkədəki məmurlar düzəməlli maaş ala bilmirdi. Pulunu vaxtı-vaxtında alanlar isə Mobutunun xüsusi mühafizəçiləri idi. Bu da təəccüblü görünməməlidir. Belə bir vəziyyətdə ictimai sektorda işləyənlərin hansı durumda olduğu məlumdur. Zatən onlar da belə deyirdi: "Maaş verir kimi özlərini göstərirlər. Biz də özümüzü işləyən kimi göstəririk."

## *“Mobutudan mənə pul qaldı. Birlikdə yeyək”*

Internet üzərindən hamınız afrika mənşəlilərdən `Mənə miras qaldı, kömək et bu pulu Afrikadan çıxaraq` tipli emaillər almısınız. Internet jarqonuna `419 fırıldaqçılığı` olaraq daxil olan bu əməllərin Mobutunun mənimsədiyi pullardan ilham aldığını bilirdinizmi? Maili yazanların adətən Mobutunun arvadı, qardaşı və ya uşağı olduğu bildirilir. Sərvəti xaricə çıxartmaq üçün ölkə xaricindən ortaqlar axtarırlar. Torlarına balıq düşəndə isə rəsmi işlər üçün həmin şəxslərdən avans göndərmələrini istəyirlər. Pulu alan kimisə yoxa çıxırlar. Hələ bu tora düşən vardır, yoxdur bilinmir. Amma Mobutu uzun müddət zərər verməyə davam etmişdi.

## *Ölümü göstər, malyariyaya razı sal*

Mobutu da işgəncə məsələsində həddini keçən diktatorlardandır. Hökumət kabinetində kimsə ona qarşı müxaliflik edəndə həbs etdirib işgəncə verdirir, daha sonra yanlışlıq olduğunu söyləyib üzr istəyirdi. Daha sonrasa həmin adamı yüksək vəzifəyə gətirdirdi. Bunun ən diqqətçəkən nümunəsi isə 1977-ci ildə Xarici İşlər Naziri vəzifəsindən azad etdiyi Jean Nguza Karl-i-Bonddur. Onu öz həyat yoldaşını yoldan çıxartmaqda ittiham edib işgəncə vermişdi. Onu ömürlük həbs cəzasına məhkum etmişdi. Daha sonra üzr istəyib onu baş nazir vəzifəsinə gətirmişdi. Bondun tək günahı xarici mətbuatda Mobutunun xələfi kimi göstərilməsi idi. Bond 1981-ci ildə ölkədən qaçdı. Amerika Konqresində Mobutu rejiminin bütün iyrəncliklərini danışaraq intiqamını aldı.

**Runanda da 1994-cü ildə təxminən yüz gün içində 800 min tutsi və liberal hutu radikal hutular tərəfindən öldürülmüşdü. Tarixin ən böyük soyqırımlarından biri olan bu hadisədə Qərbin rolu tez-tez müzakirə obyekti oldu. Xüsusilə Belçikalılar göz yummaqda ittiham olundu. Hətta Fransa eks prezidenti Fransis Mitterand " O ölkələrdə bir soyqırım yaşanması o qədər də önəmli bir şey deyil." demişdi. Dövrün ABŞ prezidenti Bill Klinton sonradan karyerasının ən böyük xətasının bəhs edilən soyqırıma müdaxilə etməmək olduğunu söyləmişdi.**

**Tərcümə:**
**Emin Piri**

# ŞAİRİN SEVGİ DÜNYASI

**Firdovsi Fahralının yaradıcılığı əsasən lirik məhəbbət hissləri üstə köklənmişdir. Onun bu ruhda qələmə almış olduğu nümunələr müasir şeirimizdə öz ab-havası ilə oxucu qəlbində xoş duyğular oyadır. Bu mövzulu nümunələri oxuduqca insan sanki ruhən gəncləşir,təzələnir,ən ülvi hisslərlə nəfəs alır.**

Bu mövzulu şeirlərin lirik "MƏN"inin ən xarakterik xüsusiyyəti ondadır ki, o, hər addımda qürurlu görünür.Sevdiyi kimi barışmağı da bacarır. Şairin şeirlərində taleyə inamın mahiyyəti poetik bir şəkildə təsdiqlənir:

***Bitdi aramızda sevgi dastanı,***
***Əvvəlki o istək, məhəbbət hanı?..***
***Sən uca tutmuşdun şöhrəti-şanı,***
***Yenə də mən səni bağışlayıram.***

Firdovsi Fahralının əksər lirik duyğuları klassik poeziyamızın ənənələrinə söykənsə də, ruhən yeni bir donda, yeni bir biçimdə görünür. Bu mövzulu nümunələrin hər birində günümüzün ab-havası duyulur.

Misraların ləngərində sevginin insan üçün ən gözəl nemət olduğu təmkinlə aşılanır, obrazlı bir tərzdə şərh edilir.

Şair sevginin insan qəlbində silinməz izlər buraxdığını kövrək misraların axarında çox gözəl bir tərzdə açıb göstərir.Bu kövrəklik ötən illərin unudulmaz xatirələrinə çevrilir:

***Biz elə ayrıldıq, itdi izimiz,***
***Tükəndi sevdamız,bitdi sözümüz.***
***Eşqimizi dəfn eylədik özümüz,***
***Hamı görüşsə də, biz görüşmürük.***

Yuxarıda qeyd etdiyimiz kimi, Firdovsi Fahralının yaradıcılığı əsasən lirik məhəbbət hissləri üstə yoğrulsa da, bu hisslərin, bu duyğuların poetik məqamları bir-birindən seçilir, hər biri də təzə-tər görünür.

Onun qələmində məhəbbət insan ömrünü acılı-şirinli xatirələrlə naxışlayır.Bu naxışların hər birinə sevən qəlbin döyüntüləri hopur, insanı həyata, həyat gözəlliklərinə bağlayır:

***Bəxt qalamız sökülməyə,***
***Barımız kal tökülməyə.***
***Belimiz tez bükülməyə,***
***Bu dünyada, bu dünyada.***



Firdovsi Fahralının məhəbbət şeirlərindəki milli mentalitet elə ilk intonasiyadan oxucu qəlbinə hakim kəsilir. Bu şeirlərin etik-estetik dəyərləri türk dünyasının məxsusi poetik məcmusudur desək yanılmarıq.

Misralardakı abır, həya, ismət, ləyaqət və s. bu kimi əxlaqi keyfiyyətlər müəllifin hansı soyaddan boy atdığını, hansı soyaddan su içdiyini, hansı soyaddan qol-qanad açdığını uyarlı ştrixlərlə canlı bir surətdə ifadə edir:

***Yazın yağışından, qışın qarından,***
***Payız xəzanından,yayın barından,***
***Üzümüzün həyasından,arından,***
***Bu saf eşqimizi gizli saxladıq.***

***Daha pozulmuş yazıyam,***
***İlk eşqimə tamarzıyam.***
***Mən özümdən narazıyam,***
***Keçmə mənim günahımdan.***

və s.

Firdovsi Fahralının "Mən elə bilirdim", "Gecikmiş məhəbbət ", "Qayıtdı" , "Tök daşı ətəyindən", "Od olsam ", "Yaşadır məni", "Bu dünyada", "Nə canım o candı, nə yaş o yaşdı", "Sən də günahkarsan, mən də günahkar", "Sənə hədiyyələr bağışlamışdım", "Saf məhəbbət günahlara yazılmır" və s. şeirləri eyni bir mövzuda-məhəbbət mövzusunda olsa da, hər biri ayrı-ayrı poetik situasiyaların bəhrəsidir.

**Firdovsi Fahralının yaradıcılığını izləyərkən belə bir qənaətə gəlirik ki, onun qəlbi sonsuz bir sevgiylə döyünür və bu sevginin ən yüksək poetik əks-sədası hələ qabaqdadır. Yəqin ki, bu əks-sədanı da eşidəcəyik və bu əks-səda onun sevgi dünyasını daha da zənginləşdirəcək.**

**Abbas SƏMƏDOV,**
**Filologiya elmləri doktoru,**
**professor**

# İsmayıllının icra başçısı yüksək bal toplayan abituriyentlərlə görüşüb

**İsmayıllıda yüksək bal toplayan abituriyentlərlə görüş keçirilib. Rayon İcra Hakimiyyətinin başçısı 600-dən yüksək bal toplamış 21 məzun və 1 nəfər Avropa Coğrafiya Olimpiadasının iştirakçısı ilə görüşüb. Tədbir pandemiya qaydalarına uyğun 2 mərhələdə olmaqla açıq səma altında baş tutub.**



Adalet.az xəbər verir ki, görüşdə rayon rəhbəri uğur qazanmış gəncləri, təhsil ictimaiyyətini və valideynləri təbrik edib, onlara doğma vətənimizin daha da qüdrətlənməsi yolunda möhkəm iradə və gələcəkdə yüksək nailiyyətlər arzulayıb.

O bildirib ki, təhsil hər bir ölkənin və rayonun sosial iqtisadi inkişafında əsas yer tutur. Ulu öndər Heydər Əliyevin dediyi kimi "Təhsil millətin gələcəyidir". Bu gün Prezidentimiz cənab İlham Əliyev və ölkəmizin Birinci-vitse prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı nəticəsində təhsilimiz uğurla inkişaf edir. Sevinirəm ki, sizin kimi gənclərin sayəsində İsmayıllı təhsili hər zaman ön sıralarda dayanır. Sonda rayon icra hakimiyyətinin dəyərli hədiyyələri tələbə gənclərə təqdim edilib, müvafiq diplomlarla təltif olunub. Onlarla xatirə şəkli çəkilib.

Məzunlar onlara yaradılan şəraitə, göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə və rayon icra hakimiyyətinə minnətdarlıqlarını bildiriblər.

**Sübhan**

# Qiraət böyük qazanc gətirmir

**Qiraət sahəsi sosial şəbəkələrin, yutubun gəlirli sahəyə çevrilməsindən sonra aktuallaşıb. Bir sıra aktyor və aktrisalar da bu sahəyə baş vurur, dinləyici və ya gəlir əldə etməyə çalışır. Hər halda sırf mənəvi dünyasının rahatlığı üçün şeir səsləndirənlər də var.**





**Əməkdar artist Elxan Rza**nın qiraətdən qazancı yoxdur. Onun məqsədi gənclərin zövqünü gözəlləşdirməkdir.

"Əvvəla, onu deyim ki,yutub kanalından ümumiyyətlə qazancım yoxdu və bu istiqamətdə düşünməmişəm. Mənim yutub səhifəmdə bir məqsədim olub. Zövqləri imkanlar daxilində gözəlləşdirmək və formalaşdırmaq. Ona görədə ara-sıra eyni zamanda radioteatrlarda paylaşıram ki,yeniyetmələrdə gənclərdə radioteatr düşüncəsi formalaşsın, buna qarşı bir diqqət, bir sevgi olsun. O ki, qaldı qiraətdən pul qazanmağıma burda da yenə məqsəd pul qazanmaq olmasada arada sifarişlə iş görmüşəm. Amma yenədə qeyd edim ki,qiraətdən qazancım çıxmır."

**Qiraətçi Anar Adil** hesab edir ki, bu sahədən böyük gəlir əldə etmək mümkün deyil.

**"Qiraət sahəsindən elə də böyük qazanc əldə etmirəm. Məncə, mümkün də deyil. Qiraətə qazanc yeri kimi də baxmamışam. Ancaq, ödənişli səslənmələr də olub. Arada olsa da olub. Dövlət İmtahan Mərkəzinin mətnlərin səsləndirirəm. Dinləmə mətnləri."**

**E.Piri**

## *Müharibələrin ölüm onluğu*



**İnsanlıq tarixi təəssüf ki, həm də müharibələrin tarixidir. Bu günə qədər baş verən müharibələrdə itki sayı dəqiq bilinməsə də ehtimallar irəli sürmək mümkündür.**

Sizə müharibələr tarixində ən çox ölümə səbəb olan 10 müharibəni təqdim edirik:

1. II Dünya müharibəsi 1939- 1945( 40 milyondan çox)
2. Monqol istilası 1206-1368( 30 milyondan çox)
3. Qinq Xanədanlığının Min süləlsi tərəfindən işğalı 1616-1662( 25 milyondan çox)
4. Taypin üsyanı 1851-1864( 20 milyondan çox)
5. I Dünya müharibəsi 1914-1918( 15 milyondan çox)
6. Əmir Teymurun müharibələri 1369-1405( 15 milyondan çox)
7. Li Şan üsyanı 755-763( 13 milyondan çox)
8. Dungan üsyanı 1862-1877( 8 milyon)
9. Rusiya vətəndaş müharibəsi 1917-1921( 6 milyon)
10. Konqo vətəndaş müharibəsi 1998-2003( 5 milyon 400 min)

**Emin Piri**

# "Bayağılığın əsas səbəbi maddi problemdir"

**Son zamanlar şou-biznesdəki bayağılıq, mahnı mətnlərinin bayağılıqla bərabər vulqarlığı ziyalıları narahat etməyə bilməz. Amma bu problem nə qədər qaldırılsa da, öz həllini tapa bilmir.**

Bir çox mahnı mətnlərinin müəllifi Kəmalə Abıyeva adalet.az-a bildirib ki, burda bəstəkarın mətnə yanaşması önəmlidir. Professional bəstəkar zəif şeirə mahnı bəstələmir.

"Sualı oxuyanda Oqtay Kazıminin sözlərimə yazdığı mahnının oxunacağını necə həyəcanla gözlədiyimi xatırladım.

Mahnı Bədii Şuradan keçməliydi. Məsuliyyət vardı. İndi yoxdu.Amma mənim üçün yenə də



hər yeni mahnıda sözlərə olan münasibət çox önəmlidir. Sözlərinə mahnı yazılması üçün dəridən çıxan adamlar var.

Təbii o, şeirinin zəifliyini bilmir. Burda bəstəkarın münasibəti önəmlidir.

Profesional, savadlı bəstəkar zəif şeirə mahnı bəstələmir. Dünyagörüşlü müğənni zəif sözü oxumaz."

Kəmalə xanımın sözlərinə görə, əsas səbəblərdən biri maddi problemdir:

**"Bədii Şura olmalıdı mütləq. Məsələnin həllini tapmamasının başlıca səbəblərindən biri işin maddi tərəfidi. İmkanlı adamlar var ki, nə gəldi yazır, müğənniyə, bəstəkara qonorar verir. Mahnının aranjimanı, yazılmasını öhdəsinə götürür və s. Bəstəkarın və ya müğənninin kənardan göründüyü kimi elə ciddi maddi gəliri yoxdu axı... TV-lər qonorar vermir, əksinə klipin yayımlanması üçün pul ödəmək lazımdı.Yəni quruluş belədi. Hər yerdə var bu."**

**Emin Piri**



**VAQİF YUSİFLİ,**
**filologiya elmləri doktoru**

# "TƏLƏBƏ TAQIMI"

**Müasir Azərbaycan nəsrində müharibə mövzusu ilə bağlı əsərlər sayca o qədər də çox deyil. Gəlin etiraf edək ki, şeirdən fərqli olaraq, nəsrdə gözə görünən bir boşluq var. Yazılan əsərlərin də heç də hamısı həm mövzu, həm də sənətkarlıq baxımından bizə ümid vermir ki, deyək: bax, bu əsər müharibə haqqında dolğun bir təsəvvür yaradır. Deyək ki, bu əsər bir Azərbaycan əsgərinin keçdiyi döyüş yolunu, onun hiss və həyəcanlarını, yaşantılarını, qələbə sevincini ya da məglubiyyət acısını və nəhayət, azərbaycanlı xarakterini əks etdirsin.**

Yalnız barmaqla sayılacaq iki-üç əsərin adını çəkə bilərəm. Sabir Əhmədlinin "Axirət sevdası", Aqil Abbasın "Dolu", Hüseynbala Mirələmovun "Dağlarda atılan güllə", Elçin Hüseynbəylinin "Əsir" və "Gözünə işıq düşmüş adam" əsərləri Qarabağ müharibəsi haqqında müəyyən təsəvvür yaradır. Niyə belə bir vəziyyət yaranıb? Müxtəlif səbəblər göstərə bilərik. Niyə Azərbaycan nəsrindən bu əsərlər istisna olunmaqla müharibə iyi gəlmir, müharibə insanının dolu obrazını görə bilmirik? Niyə, məsələn, Mübariz İbrahimovun qəhrəmanlığı ona layiq olacaq bir romanda öz təcəssümünü tapmır? Əlbəttə, çox səbəb göstərmək olar, mən birini deyim: əgər bir yazıçı müharibədən yazırsa, o, canlı müşahidələr, real görüntülər, təəssüratlar əsasında, yəni müharibə gedən bir bölgədə özünün də iştirakı ilə… bunu həyata keçirə bilər.

### Bir yazıçı kimi

***diqqətimi çoxdan cəlb edən Etibar Muradxanlı Qarabağ müharibəsində könüllü olaraq iştirak etmiş və gözləri qarşısında baş verən hadisələri izləmiş, onların mahiyyətinə varmış və bundan sonra qələmə sarılmışdır. Necə deyərlər, özünü müharibə adamı kimi hiss edib yazmağa başlamışdır. Mən onun "Azərbaycan" jurnalında çap olunmuş bir povestini oxumuşam. Həm o povestdə, həm də yenicə çapdan çıxan "Tələbə taqımı" kitabındakı eyni adlı romanda onu bir jurnalist kimi yox, məhz yazıçı kimi gördüm. Hətta heyrətləndim ki, Etibar Muradxanlı müharibə texnologiyası ilə bağlı bu qədər bilgiyə, məlumata necə yiyələnib? Görünür, burada yazıçı peşəkarlığı ilə yanaşı, həm də müharibəni içindən keçirmək kimi, öz hissiyyatında yaşatmaq kimi dərin bir duyğu da yaşarmış.***

"Tələbə taqımı" məncə, sənədli romandır-buna heç şübhə yox, çünki kitabda həmin romandakı obrazların fotoları da əks olunub. Amma romanı oxuduqca onun sənədli ya bədii əsər olduğunun fərqinə varmırsan. Çünki burada əsl müharibənin özünü görürsən. Rövşən, Fərhad, Arif, Xudaverən, Natiq, Məcid, Ümidvar, Cəmil, Təbriz, Baxış…bu tələbələr könüllü olaraq Qarabağ müharibəsinə yollanır, "Tələbə taqımı" təşkil edərək döyüşlərdə iştirak edirlər-çoxu da qəhrəmancasına həlak olur. Etibarın bu "Tələbə taqımı"nın hər addımını, hər döyüş səhnəsini izləyə-izləyə adi döyüşçüdən qəhrəmanlığa, qəhrəmanlıqdan isə şəhidliyə gedən prosesi necə canlı təsvir etməsi…kitaba ön söz yazan Əsəd Cahangirin belə bir fikrini təsdiq edir ki: "Etibar ləyaqətli, güclü, iradəli, xeyirxah insan surətləri, bir sözlə, müsbət qəhrəmanlar yaratmağa meyl edir. Məhz bu üzdən onun qəhrəmanları oxucunu öz ardınca aparmağa qadirdir". Və Etibar çalışır ki, tələbə döyüşçülərin xarakterinə süni qəhrəmanlıq yarlıqları yapışdırmasın, axı, bu, müharibədir, düşmən də güclüdür, bizə qarşı



təkcə ermənilər vuruşmurdu, rus ordusu da xain qonşularımızla bir sıradaydılar.

Mən "Tələbə taqımı" əsərində təsvir olunan döyüş səhnələrindən, komandir Rövşənin, Arifin, Məcidin, Ümidvarın və digərlərinin qəhrəmanlığından söz açan səhifələrdən danışmaq istəmirəm. Bu səhnələr mənim fikrimcə, professionallıqla yazılıb. Amma əsərdə bu qırğınların, bu döyüş səhnələrinin olmasıyla yanaşı, bir qədər də daha təsirli epizodların təsvirini uğurlu sayıram, məsələn, Rövşənin odlu şəhid olan bir anna ilə görüşü, Fərhadın Şuşanın işğalı ilə bağlı keçirdiyi həyəcanlar, təbii ki, müharibədən bəhs edən bir əsərdə belə lirik-emosional səhnələrin olması vacibdir.

### Bu əsərlə bağlı

***bir iradımı bildirmək istəyirəm. Etibar Muradxanlı təsvir etdiyi tələbə döyüşçüləri əsasən vuruşan, döyüşən, yaralananan, qəhrəmancasına şəhid olan döyüşçülər kimi təqdim edir. Bəs onların mənəvi aləmi? Bu döyüşçülər birinin sevgilisi yoxmu, atanası yoxmu? Yadıma vaxtilə böyük tənqidçimiz Məmməd Cəfərin Hüseyn Abbaszadənin "General" romanı haqqında yazdığı məqalə düşür. O məqalədə Məmməd Cəfər müəllim Hüseyn Abbaszadəyə irad tuturdu ki, sizin təsvir etdiyiniz romanda döyüş səhnələri yetərincədir, amma bu döyüşçülərin mənəvi dünyası layiqincə əks olunmayıb. Müharibə təkcə döyüşmək, vuruşmaq, əsir almaq, ölmək-öldürmək deyil. Yaxud qraf Tolstoyun "Hərb və sülh" romanını yada salmaq olar. Bax, Etibarın romanında da belə bir çatışmazlıq nəzərə çarpır. Necə deyim, Əsəd Cahangirin dediyi "sözün ön və arxa cəbhəsi" var, amma müharibənin ön cəbhəsi varsa, arxa cəbhəsi yaxud bu iki cəbhənin qarşılıqlı əlaqəsi görünmür. Gələcək romanlarında yəqin ki, bunu nəzərə alar.***

"Fəridə nənəgilin pəncərələri" povestində Etibarın təbii həyata, gerçəkliyə, adi insanların mənəvi dünyasına müraciəti uğurlu alınmışdır. Bir yazıçı üçün o gərgin döyüş səhnələrindən adi evailə, məişət hadisələrinə qayıtmaq … Məncə, Etibar üçün məkanın elə bir əhəmiyyəti yox.

### Əsas məsələ təsvirlərin reallığıdır

***Təqdim etdiyi obrazların inandırıcı verilməsidir. Povestdə oğlu Rusiyada yaşayan Fəridə nənənin gündəlik həyatı oğlu Nazimlə bağlı keçirdiyi həyəcanlı anlar, iş yerində darıxdırıcı keçən günləri əks olunub. Deyərdi ki, Fəridə nənə obrazı çox təbiidir, canlıdır, 60-70-80-ci illərdə bizim nəsr əsərlərimizdə təsvir olunan nənələrə heç oxşamır. Onunla bahəm Rəhim kişi obrazı da pis alınmayıb, hərçənd ki, bu obrazın təsvirində yarımçıq cizgilər nəzərə çarpır. Onun ölümü də təsirlidir. Təbii ki, əsərdə ana-oğul münasibətləri mühüm yer tutur və oğulun-Nazimin rus ordusunda xidmət etməsi, öz həyatından razı qalması anada təəssüf doğurur. Oğul məktubda yazır ki, komandirlərim də mənim gələcəyimə inanırlar. İnşallah, tezliklə qarşında gənc bir general görəcəksən. Fəridə nənə isə belə düşünür: "Kaş general yox, əsgər görəydim. Oğul, adi, sıravi əsgər. Amma ləyaqətli, Vətəninin qeyrətini çəkməyi bacaran, yeri gələndə onun uğrunda ölməyə layiq olan, buna cəsarəti çatan mərd bir əsgər!- gözlərinin yaşını sildi. Və o gün Fəridə nənə heç vaxt şikayətlənməmədiyi, taleyindən heç vədə gileylənməmədiyi, oğlundan narazılığını bildirdi. Ağladı. Yetmiş illik həyatında heç kəsin görmədiyi göz yaşları axıtdı". Məncə, bu kiçik epizod povestin bütün qayəsini gözəl ifadə edir. Belə təsirli səhnələrin Etibarın nəsr əsərlərində çox olmasını arzulayıram.***

Etibar Muradxanlının "Qaç, nə qədər gec deyil" hekayəsi də maraqlıdır. Hekayə bir Vətən xaininin ifşasına həsr olunub. Bu vətən xaini indi müstəntiq Pənahlının qarşısındadır. Pənahlı ona "qaç, canını qurtar" deyir, vəsfi-Vətən xaini buna sevinir, amma canını qurtara bilmir, əməliyyat qurulur və o, öz cəzasına çatır. Məncə, Etibar başqa bir yol seçə bilərdi- həmin o Vətən xainini Şəhidlər xiyabına apara bilərdi, yaxud onun xəyanəti nəticəsində öldürülən bir döyüşçünün anası ilə görüşdürə bilərdi. Amma mən yazıçılıq etməyi bacarmıram, qoy Etibar yazan kimi olsun.

**Və sonda. Mən Etiabar Muradxanlıya yaradıcılıq potensialı dolu, yüksəlişdə olan bir yazıçı kimi inanıram, inanıram ki, o, ən gözəl əsərlərini bundan sonra yazacaq… Uğurlar!**

---

# "Hamiləliyin 2-3 ayında uşaqda diş kökləri formalaşır"

***"Dünya üzrə belə ən çox şikayət kariyeslə bağlıdır. Sonra diş-damaq qanamaları, daha sonra ağız boşluğunda estetik problemlərdir. Bunlar ən çox rast gəlinənlər sırasındadır". "Ədalət" qəzetinin qonağı stomotoloq Elvin Həsənlidir.***

**-Sağlam dişlərə sahib olmaq üçün nələr etmək lazımdır?**

-İnsanın dişləri 18 yaşına qədər sağlam çıxıbsa, bundan sonra qulluq insanın özündən asılıdır. Ola bilər ki, genetik olaraq uşaqda hansısa bir problem olsun. Ana hamiləlik zamanı düzgün qidalanmasın və bu da uşağın dişlərində müəyyən fəsadlar əmələ gətirsin. Hamiləlik dövründə süd və qatıq yeməyən ana düşünmür ki, gələcəkdə doğulan körpənin çıxacaq dişlərində kalsium çatışmazlığı yarana bilər. Ona görə də ana düzgün qidalanmalıdır ki, körpə gələcəkdə sağlam dişlərə sahib olsun.



-Bayaq vurğuladığınız kimi, şirin qidaların yeyilməsi, normal qulluq olunmaması dişə ləkələr salır. Bu ləkələr dişdə çatlar yaradır. Soyuq və istiyə salma mikroçatlara səbəb olur ki, bu da kariyesin əmələ gəlməsinə gətirib çıxarır. Bilirsiniz ki, ağız çeynəmə aparatıdır. Ağızda dişin funksiyası qidanı əzib mədəyə ötürməkdir. Məsələn, əlimizi bir dəfə yuyuruq, ola bilər ki, axşama qədər

**-Deməli, dişlərdə çürümələrin olmasını hamiləlik dövrü ilə əlaqələndirmək olar...**

-Bəli, ana uşağa hamilə olarkən hamiləliyin ilk 2-3 ayında uşaqda diş kökləri formalaşır. Buna görə deyirəm ki, ananın qidalanmağı uşağın dişlərinin sağlamlığını və ya bu dişlərin problemli olmasını müəyyən edir.

**-Bax hamilə qadınlar hansı qidaları yeməlidirlər ki, gələcəkdə övladlarının sağlam dişləri olsun?**

-Təbii ki, ana birinci növbədə həkimi ilə məsləhətləşməlidir ki, onda hansı problem var, qanazlığımı, kalsium çatışmazlığımı? Qidalardan ən çox süd, qatıq yemək məsləhətdir. Orqanizmə faydalı qidalardan (göy-göyərti, pomidor, xiyar) istifadə etməlidir ki, doğulan körpə də sağlam olsun.

**-Müəyyən sayda insanlar var ki, onlar şirniyyata meyilli olurlar. Belə olanda dişlərin çürüməsi qaçılmazdır...**

-Bizdə insanlar diş ağrıyan zaman həkimə gedirlər. Əslində isə dişlər 6 aydan bir profilaktik yoxlanılmalıdır. Dişlərdə olan xırda problemlər belə həkim tərəfindən müəyyən edilir, ona görə həkim yanına getmək mütləqdir. Gündəlik həyat tərzinə nəzər salaq, biz soyuq su içirik, sonra isti qida qəbul edirik, bu isə dişlərdə mikroçatlar yaradır. Həmin mikroçatlar isə get-gedə kariyesə çevrilir.

**-Bu sualı elə verəcəkdim ki, dişləri soyuqdan istiyə, istidən soyuğa salmaq nə kimi problemlər yaradır?**

-Tək mikroçatlar deyil, damaqda boşalmalar da əmələ gətirir. Belə olan halda damaqda qida yeyərkən qalıqlar qalır və bu isə ağızda turşulaşmaya səbəb olur. Nəticə etibarilə dişə ləkələr düşür, iltihablar yaranır, qanamalar baş verir. Bu proses dişin itirilməsinə qədər davam edir.

**-Diş sapından istifadə etmək olarmı?**

-Bəli, olar. Diş sapından baxır, necə istifadə etmək lazımdır. Həkimlə məsləhətləşmək mütləqdir. Həkim deməlidir ki, diş sapından necə və hansı halda istifadə etmək olar. Diş sapını dişin boyun hissəsinə kimi gətirmək düzgün deyil. Bu zaman damağa zədə verilə bilər. Diş sapından istifadə qaydasını həkimdən öyrənmək lazımdır.

**-Xəstələrin ən çox şikayəti nədən olur?**

-Dünya üzrə belə ən çox şikayət kariyeslə bağlıdır. Sonra diş-damaq qanamaları, daha sonra ağız boşluğunda estetik problemlərdir. Bunlar ən çox rast gəlinənlər sırasındadır.

**-Kariyesin əmələ gəlmə səbəblərindən danışaq...**

daha suya dəyməsin. Amma ağız daim sulu olur, nəsə içirik, nəsə yeyirik, ona görə də dişlərə qulluq etmək lazımdır. Belə ki, səhər, günorta yeməklərindən sonra diş mütləq yuyulmalı, axşam isə dişlər yatmazdan əvvəl 7-8 dəqiqə ərzində təmizlənməlidir.

**-Amma insanlar gündə 1 dəfə dişlərini fırçalayırlar. O da ki, səhər yuxudan duranda...**

-"Bir dəfə yudum, bəsdir" deyə bir şey yoxdur. İnsan yatmazdan öncə 7-8 dəqiqə ağız boşluğuna vaxt ayırmalıdır. Nəyə görə? Bəzən dişlərin arasında qida qalığı qalır ki, biz bunu görmürük. Dişi isə təmiz yumasaq, həmin qidalar orada qala bilər. Gecə yuxuya getdikdən sonra ağız yumulu qalır və ağızda temperatur artır. Belə halda ağızda qida qalığı pis qoxu verir ki, səhər yuxudan duranda belə hallar müşahidə olunur.

**-Məşhurlarla çalışan stomotoloqsunuz. Bir az onlardan söhbət açaq. Kaprizləri olur?**

-Rəqqasə Renkadan danışaq elə. Stola oturanda ağlayır, iş bitəndə isə gülür, gedir. Ağrı oldu-olmadı, ağlayır. Deyir ki, qorxuram, birdən ağrı verər, ağlayaram. İndidən ağlayım ki, ona hazır olum. Renkanın çox gülməli və maraqlı kaprizi var. Heç nədən qorxmayan pasiyentim Təranə xanım Səmədovadır. Onunla tam rahat şəkildə işləyə bilirəm. Problem yaratmayan insandır.

**-Nazilə xanım Səfərli necə pasiyentdir?**

-Nazilə xanım kaprizli insan deyil. Nazilə xanım Səfərli bizi çox istəyir, bizi yormaq istəmir, ağrıya dözümü olmasa da, səssiz dayanır. Demir ki, ağzım ağrıyır. Söyləyəndə ki, necəsiniz? Cavab verir, narahat olma, qadan alım, hər şey yaxşıdır. Amma o da xırda ağrı olanda belə ağlayan xanımdır.

**-Başqa hansı məşhur haqqında nələri söyləyə bilərsiniz?**

-Qorxmayan pasiyentim Vasif Məhərrəmlidir. Məndə ən qorxmaz pasiyent Hüseyn Dərya olub. Allah ona rəhmət eləsin. İynə vurdurmadan iki dişini çəkdirib. Hüseyn ağrıdan qorxan deyildi. Ən dözümlü pasiyentim o, olub.

**-Çox sağ olun, Elvin. Dəyərli vaxtınızı ayırdığınız üçün təşəkkür edirəm.**

-Siz sağ olun, dəyərli sizsiniz. Yaxşı iş görən həkimlərimizi tanıdanlar media işçiləridir. Odur ki, bizim üçün dəyərlisiniz. Var olun.

**Rövşən Tahir**

# İzləyicilər Namiqi peşman etdilər: "Aygün Kazımovanın qalmaqallı bağı..."



**Yəqin ki, unutmamısınız: Bir neçə il əvvəl Xalq artisti Aygün Kazımova ilə meyxanaçı Namiq Qaraçuxurlunun adının birgə hallanması şou-biznesdə müzakirə olunan mövzulara başçılıq edirdi. Hər iki məşhurum birlikdə olduqları 8 il ərzində alınan bağ evinin Namiqdə qalması bəzi mətləblərin üstünü açdı. Şərikli bağ evi və meyxanaçının xalq artistinə söz verib almadığı royal o vaxt gündəmi zəbt etmişdi.**

Mediaya müsahibə verən pop-diva isə həmin vaxt Namiqə qarşı od püskürdü:

"Namiq mənə çox haqsızlıqlar edib. Özünüz bilirsiniz ki, mal-mülkə həris insan olmamışam. O gün eşitdim ki, Namiq deyib: "Aygünə royal bağışlayacam". O mənə royal verməyəcək, royalımı qaytaracaq. Royalı, üstəlik sintezatorumu da qaytarsın. O bağın yanında bir evim və içi dolu əşyalarım da var".

Xalq artisti Namiqin "Aygün hər şeyi şoulaşdırır" açıqlamasına da özünəməxsus cavab verdi: "Namiq, bəlkə, mənim fikirlərimə don da geyindirmək istəyirsən? Bəlkə də ağlından nələr-nələr keçir. Namiq və səmimiyyət antonim, biri-birinə əks olan fikirlərdir. Az deyil, onunla 8 il ömür sürmüşəm. Yəqin ki, bunu da danmaz. Ümumiyyətlə, Namiqdən səmimiyyət gözləməyin.Əgər etiraf, açıq söz mövzulu verilişlər olsa, oraya Namiqi dəvət etməyin. Çünki səmimi deyil, söhbətiniz alınmayacaq".

Aygün xanım əvvəlcə bu mövzunu aralarında həll etmək istədiyini bildirib: "Ona yazırdım ki, hallalıq olsun. Axı biz bunları bərabər, alın tərimizlə qazanmışıq. Bunların hamısını götürmək düzgün deyil. Onun etdiklərinə bundan artıq şərh vermək istəmirəm" deyərək uzun müddət Namiqlə nəinki küsülü qaldı, hətta o olan yerə ayaq basmadı.

Adalet.az xəbər verir ki, ötən gün meyxanaçı Namiq Qaraçuxurlu bağ evinin fotosunu yayımlayıb. Sənətçi fotoya "Elə bil bir az uzaqlaşmışam. Yoxa lənət" şərhini yazandan sonra ara qarışıb. İzləyicilər həmin bağın bir neçə il əvvəl Namiqin Aygündən zorla aldığı və cütlük arasında böyük qalmaqala səbəb olan bağ evi olduğunu iddia etdilər.

**Qeyd edək ki, Meyxanaçı ilə diva 8 il nigahsız olaraq ər-arvad münasibətində olublar.**

**Əntiqə Rəşid**

## *Rusa ərə getmiş Azərbaycanlı idmançı Samirə Mustafayeva: Atla çəkdirdiyi fotosessiyada...*



**Azərbaycanlı idmançı Samirə Mustafayeva sosial şəbəkədə paylaşdığı fotolarla yenidən diqqət mərkəzinə düşüb. Şəkillər idmançının "Instagram" səhifəsində paylaşılıb. Adalet.az xəbər verir ki, dünya miqyaslı gimnastın atla çəkdirdiyi fotolara minlərlə bəyənmə gəlib. 800 minə yaxın izləyicisi olan Samirə fərqli paylaşımları ilə tez-tez izləyicilərinin marağına səbəb olur.**

**Qeyd edək ki, Samirə Mustafayeva - FİG-in versiyasına görə, dünya miqyaslı gimnastdır.**

**O, komanda birinciliklərində dəfələrlə dünya mükafatları qazanıb, Sankt-Peterburqun absolyut çempionu, Rusiyanın idman ustasıdır. Azərbaycan, sonra isə Rusiya millisində çıxış edib. Karyerasını 2013-cü ildə bitirib, hazırda Moskvada yaşayır. 2019-cu ildə rusiyalı biznesmen Nikolay Kondratyuka ərə gedib.**

**Əntiqə**

Samux rayon Nəbiağalı kənd sakini Həsənov Məsadif Hasan oğlunun adına verilmiş JN-481 A kod: 50701006 saylı torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

***

Astara şəhəri Kijəbə qəsəbə sakini Məmmədov Feremez Sirac oğluna 8 fevral 1999-cu il tarixli 3 saylı qərarı ilə verilmiş torpağın mülkiyyətə verilməsinə dair dövlət aktı (JN-259 kod 80102018) itdiyi üçün etibarsız sayılsın.

***

Lerik rayonu Veri kənd sakini İskəndərov Mirsayad Məmməd oğluna 19 Aprel 2000-ci il 64 saylı qərarı ilə verilmiş torpağın mülkiyyətə verilməsinə dair dövlət aktı (JN-0034 kod 80304018) itdiyi üçün etibarsız sayılsın.

***

Lənkəran rayonu Şıxəkəran kənd sakini Nəhmətov Nurməmməd Qəni oğluna 3 mart 1998-ci il 4 saylı qərarı ilə verilmiş torpağın mülkiyyətə verilməsinə dair dövlət aktı (JN-765 kod 80222028) itdiyi üçün etibarsız sayılsın.

***

Quba rayonu Aqrar İslahat Komissiyasının 1998-ci il 04 mart tarixli 04 nömrəli qərarı ilə Quba rayonu Aşağı Atuc kənd sakini Əhmədov Siracəddin Qiyasəddin oğlunun adına verilmiş Azərbaycan Respublikası Torpaq Mülkiyyət Hüququna dair JN-250 Kod 30308018 Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Astara rayonu Pensər kənd sakini Şabanov Rufulla Aşur oğluna 8 Aprel 2002-ci il tarixli 1 saylı qərarı ilə verilmiş torpağın mülkiyyət hüququna dair dövlət aktı(JN-927 kod 80106018) itdiyi üçün etibarsız sayılsın.

***

Daşınmaz Əmlakın Dövlət Reystr xidmətinin Cəlilabad rayon Ərazi İdarəsi tərəfindən Yardımlı rayonu Keçələkəran kəndində Əliyeva Həmayil Əliqulu qızına məxsus torpaq sahəsinə verilmiş 'çıxarış'(seriya MH N0001791 Reystr nömrəsi 804013000040 qeydiyyat nömrəsi 230600835 qeydiyyat tarixi 09.12.2006) itdiyi üçün etibarsız sayılsın.

***

Yardımlı rayon Keçələkəran kənd sakini kənd sakini Qənbərov Yavər Elyas oğluna 29 aprel 1998-ci il 6\1 saylı qərarı ilə verilmiş torpağın mülkiyyətə verilməsinə dair dövlət aktı (JN-0008 kod 80412058) itdiyi üçün etibarsız sayılsın.

***

Hüseynova Sənubər Hüseyn qızına məxsus TVİNS-ART MMC ilə bağladığı 13 sentyabr 2019-cu il tarixli 362 saylı müqavilə itdiyi üçün etibarsız sayılır.

***

Zeynalov Fuad Hüseyn oğluna məxsus Yamaks motorlu taxta qayığın sənədi itdiyi üçün etibarsız sayılır.

***

Texniki İnventarlaşdırma Bürosu tərəfindən Göygöl (Xanlar) rayonunun Quşqara kəndində Nağıyev Rafiq Abid oğlunun adına verilmiş torpaq sahəsinə aid 9/11b №li qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

Lənkəran rayonu Xolmili kənd sakini Səfərova Bacıxanım Hacıəli qızına 27 mart 1998-ci il tarixli 5 saylı qərarla verilmiş torpağın mülkiyyətə verilməsinə dair Şahadətnamə (JN-324 A kod 80222018) itdiyi üçün etibarsız sayılsın.

# 70 cərrahi əməliyyat keçirən transseksualın yeni görüntüsü: İmicini bəyənmədi



**Son dönəm özünü qadın kimi hiss edən və görən kişilərin sayı durmadan artır. Dünyanın hər yerində o cümlədən Azərbaycanda da belə fiqurlar rastımıza tez-tez çıxır. Cəmiyyətimiz qadın olmuş kişiləri qəbullana bilmədiyi üçün onların ölüm saylarında bir artım olduğu diqqətlərdən qaçmır. Qısası, dünya yeni bir transseksualdan danışır**

Əməliyyat keçirərək özünü "Kena" kuklasına bənzədən braziliyalı Rodriqo Alves yenidən həkim masasına uzanıb.

Adalet.az "Daily Mail" yə istinadən xəbər verir ki, bu dəfə o, özünü "Barbi"yə bənzətmək istəsə də nəticə üreyincə olmayıb.

Əməliyyatı uğursuz alınan Alvesin çənəsində dəlik yaranıb. O, yanvar ayında transseksual qadın olduğunu və Cessika adını istifadə etdiyini deyib.

Qeyd edək ki, Alves son 16 ildə 70-dən çox plastik əməliyyat keçirib.

**Ə.Rəşid**

# Fərqli imiclə, fərqli məkanda: Aparıcı Samirə Mustafayeva ekrana dönür



**Bir vaxtlar ATV-nin məşhur və sevilən xəbər aparıcılarından olan. bir dönəm həm iş yerindən, həm də həyat yoldaşı Vaqif Aydınoğludan ayrılan Samirə Mustafayevanın yeni görüntüləri və bununla yanaşı yeni xəbəri yayılıb.**

Məlumatlara görə, mediadan uzaqlaşan Samirə vizajist kimi fəaliyyət göstərirdi və Bakıda məşhur gözəllik salonlarından birinin sahibidir.

Samirəni sevənlər hətta bir az irəli gedərək onun yeni sevgilisi olduğunu da söylədilər. Aparıcı bu məlumatlardan cana doyduğunu vurğulayaraq belə bir açıqlama verdi: "Xahiş edirəm, məndən əl çəksinlər. Mən artıq məşhur deyiləm. Televiziyada çalışmıram. Qoyun sakitcə evimdə oturub balamı böyüdüm. Bezmişəm bu söhbətlərdən, nə qədər olar axı? "Samirə boşandı", "Samirə özünə iş qurdu"… İnsanlar niyə mənimlə bu qədər uğraşır axı. Mən istəsəydim, televiziyada da işləyərdim, saytda da, başqa yerlərdə də. Bütün qapılar da üzümə açıqdır, amma özüm istəmirəm. Məni sakit buraxın".

Adalet.az xəbər verir ki, görünüşündə xeyli dəyişiklik etdirdiyi, fərqli göründüyü diqqətdən qaçmayan Samirə Mustafayeva beş illik fasilədən sonra yenidən televiziyaya qayıdır. Onun yeni iş yeri Azərbaycan Televiziyası (AzTV) olacaq. Teleaparıcı artıq sentyabrın 14-dən etibarən həftənin beş günü AzTV-nin "Xəbərlər" İnformasiya proqramının axşam saat 20:00, 22:00 və gecə saat 00:00 buraxılışını təqdim edəcək.

S.Mustafayeva şənbə günü eyni saatlarda studiyanı AzTV-nin digər xəbər aparıcısı Mümtaz Xəlilzadə ilə bölüşəcək.

Qeyd edək ki, S.Mustafayeva televiziyada fəaliyyətinə 2003-cü ildən başlayıb.

**O, xeyli müddətdir televiziyadakı işindən kənarlaşmışdı.**

**Əntiqə**

Məhəmmədəli Mustafayev, Qəhrəman Qarayev, Şahismayıl Süleymanov, Akif Qasımov dostları **Ramiz Məmmədova** bacısı

**NAZİLƏ xanımın**

vəfatından kədərləndiklərini bildirirlər və dərin hüznlə başsağlığı verirlər.


**Təsisçi və baş məsləhətçi:** Aqil ABBAS
**Baş redaktor:** İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 2000**
**Sifariş: 25**
Çapa imzalanmışdır: 11.09.2020